RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 214 (9669) 1 oktyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qətiyyətin təntənəsi

### Bizim arxayınlaşmağa heç bir haqqımız yoxdur!

Azərbaycan Prezidenti İlham Əliyev hərbi sahədə görülən işlərə və yaradılan potensiala güvənərək qəti xəbərdarlıq etdi:

"Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".

❖ ❖ ❖

Cənab İlham Əliyev sərhədlərin etibarlı qorunmasını önəmli vəzifələrdən biri kimi qeyd etdi.

Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədlərimizin uzunluğu 500 kilometrdən çoxdur.

Üstəlik, bu şərti sərhədin relyefi, coğrafiyası, iqlim şəraiti çox ağırdır və xidmət aparmaq bir o qədər də asan deyil.

Bütün çətinliklərə baxmayaraq, sərhədboyu yerlərdə hərbi mövqelər möhkəmləndirilir, mühəndis işləri aparılır, müasir infrastrukturla təchiz edilir, bütövlükdə sərhədlərin mühafizəsi həm vizual, həm infrastruktur, həm də texnoloji vasitələrlə təmin olunur.

Ermənistan bir neçə dövlət tərəfindən sürətlə silahlandırılır, hərbi təlimlər keçirilir, maliyyə vəsaitləri ayrılır.

Əsl məqsəd Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Cənubi Qafqazın digər ölkələri üçün təhdid mənbəyi yaratmaq, öz maraqlarını təmin etməkdir, çünki bu işi görənləri erməni xalqının maraqları düşündürmür.

Bütün bunlar Ermənistanın revanşizm iddiasında olan rəhbərliyinin problemidir.

Azərbaycan rəhbəri İlham Əliyev isə bütün qabaqlayıcı addımlarını vədəsində atmaqla dəfələrlə etdiyi xəbərdarlığını bir daha təkrarladı:

"Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin".

❖ ❖ ❖

Müharibə vəziyyətində yaşamaq, məkrli və düşmən münasibətlərinin hədəfinə çevrilmək önləyici tədbirlər görülməsini, ehtiyat tədbirlərinə üstünlük verilməsini tələb edir.

COVID-19-la bağlı quru sərhədlərimiz bağlanmışdı və bu, həmin dövrün zəruri tədbirlərindən biri sayılırdı.

Sərhədlərin hələ də açılmaması müəyyən narahatlıqlar və suallar doğururdu.

Cənab İlham Əliyev bu məsələyə də zəruri aydınlıq gətirdi:

"Son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi bir çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlərin qarşısı alınır".

Azərbaycan xüsusi xidmət orqanları yüksək səviyyədə, peşəkarlıqla çalışmağı, ölkə daxilində vətəndaşların təhlükəsizliyini təmin etməyi məharətlə bacarırlar.

Məhz bunun sayəsində Azərbaycan həm də dünyanın ən sabit, ən əmin-aman ölkələrindən biri sayılır.

Belə sabitlik, dövlətin daxili və xarici risklərdən qorunması onun möhkəmliyini və gücünü göstərən şərtlərdən biridir.

→ 6

## O torpaqlar unudulmayıb və unudulmayacaq

### Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 30-da Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış etdi.

→ 2

## Ölkələrimizin siyasi qüvvələrinin partiyalararası əlaqələri qarşılıqlı fəaliyyətin mühüm amilidir

### Prezident İlham Əliyev Rusiya Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutskini qəbul edib.

→ 4

## Sülh razılaşmasının təxminən 80 faizə qədəri hazırdır

### Ermənistan Azərbaycanın bütün şərtləri ilə hesablaşmalıdır

Ən vacib məqamlardan biri də beynəlxalq müstəvidə formalaşan mövqelərdir, yəni bu gün Azərbaycanın vacib bildiyi prinsipial şərtlər əsasında sülh sazişinin imzalanması Cənubi Qafqazda gələcək vəziyyəti təyin edəcək. Hazırda Ermənistandan istifadə edərək regionda vəziyyətin gərginləşdirilməsi istiqamətində aşkar cəhdlər müşahidə olunur. Ermənistan sistemli olaraq silahlandırılır, bu proses dayanmayıb. Bəzi dövlətlər Ermənistanı revanşa həvəsləndirirlər, ona görə sülh məsələsinə olduqca ehtiyatlı yanaşmaq, "Ermənistanın sülh ritorikası nəyə xidmət edir?" sualına cavab tapmaq lazımdır. Bu, Ermənistana zaman qazandırmaq üçün əldə olunacaq sülh sazişi olacaqsa, bütövlükdə region üçün çox təhlükəlidir. Bütün hallarda Azərbaycanın irəli sürdüyü prinsipial, ədalətli şərtlər əsasında sülh müqaviləsi imzalanacaqsa, bütövlükdə Cənubi Qafqaz regionu bundan qazanacaq. Açıq məsələlərin qalacağı halda Ermənistan müəyyən müddət sonra aldığı dəstəklə vəziyyəti dəyişməyə çalışacaq.

→ 9

## Kanada və Fransanın rəzilliyi

### Biri yerli xalqların soyqırımı nəticəsində yaranıb, digəri isə hələ də müstəmləkəçidir

Əli bir milyondan çox əlcəzairlinin qanına batan Fransa dənizaşırı əraziləri müstəmləkə altında saxlamaq üçün hər cür iyrənc vasitələrdən istifadə edir, xalqların müstəqillik tələblərini qanla boğur. Uzun illərdir ki, Fransa hökuməti minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli sakin olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Buna etiraz edən kanakları öldürür.

Fransa müstəmləkəsi altında inləyən və müstəqillik arzusunda olan ölkələrdən biri də Maohi Nuidir (Fransız Polineziyası). Fransa beynəlxalq qanunları heçə sayaraq Maohi Nui xalqının hüquqlarını heçə sayır, adadakı kolonial siyasətini davam etdirir.

Eyni zamanda Fransa Martinik xalqının öz müqəddəratını təyinetmə hüququnu tam təmin etmədiyinə görə BMT Nizamnaməsinin maddələrini pozur. Belə ki, BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa Martinik xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verməlidir. Ancaq Fransa beynəlxalq hüququ tapdalayaraq müstəmləkə siyasətini davam etdirir.

→ 16

## Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransının və Ümumi Yığıncağının ikinci günü uğurla yekunlaşıb

Dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağı sentyabrın 29-dan oktyabrın 2-dək Bakıda keçirilir.



AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzində keçirilən tədbirin ikinci günündə 95 ölkədən 500-ə yaxın şəxs iştirak edib.

Tədbir çərçivəsində müxtəlif ölkələrin prokurorluq və ədliyyə qurumları arasında ikitərəfli və çoxtərəfli görüşlər olub, bundan əlavə, müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları və şəbəkə iclasları keçirilib.

Beynəlxalq tədbirlərin ikinci günündə "Müstəqil cinayət ədliyyə sisteminin üç əsas sütununu tarazlaşdırmaq üçün milli yanaşmalar - problemlər və cavablar" plenar sessiyası, "Prokurorun ittiham tərəfi ilə müdafiə tərəfi arasında bərabərliyin təmin edilməsində rolu", "Cəza prosesində prokurorun rolu" mövzulu seminarlarında səmərəli müzakirələr aparılıb.

## BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının Tərəflər Konfransına evsahibliyi etmək üçün Azərbaycanın namizədliyi irəli sürülüb

Azərbaycanın 2026-cı ildə BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının növbəti, sayca 17-ci Tərəflər Konfransına evsahibliyi etməsi üçün namizədliyi irəli sürülüb. AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Bakıda İqlim Fəaliyyəti Həftəsinin açılış mərasimində deyib. Nazir bildirib ki, evsahibliyi ilə bağlı yekun qərar bu ayın sonunda Kali şəhərindəki COP zamanı qəbul ediləcək.

# O torpaqlar unudulmayıb və unudulmayacaq

## Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında iştirak edib

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*



- Əziz dostlar, bu gün şəhərimizdə çox əlamətdar bir gündür. Deyə bilərəm ki, ölkə üzrə çox əlamətdar bir gündür. Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, doğrudan da, çox gözəl hadisədir.

Bildiyiniz kimi, üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən iki sərəncam imzalamışam. Bir sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb.

Bildiyiniz kimi, Aşıq Ələsgər ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından - Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir.

Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu Öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir, özü də Sovet İttifaqı miqyasında və bu yubiley münasibətilə doğma Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi.

Bu gün bu tədbirdə iştirak edən yoldaşlar Aşıq Ələsgərin fəaliyyəti və yaradıcılığı ilə bağlı danışacaqlar. Sadəcə olaraq, onu demək istəyirəm ki, onun yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, - o vaxt hələ o təhlükələr tam sovuşmamışdı, - yenə də öz Vətəninə qayıtmışdır.

Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır - 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar.

Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram abhavası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir. Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır.

İşğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səsləndirilirdi. Bəzi hallarda bu fikirləri səsləndirənlər bəlkə də səmimi idilər, bəzi hallarda bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq üçün edirdilər. Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, - mən bunu bilirəm, - qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük. Əslində, birinci həftələr, birinci aylar ərzində bizə qarşı nə qədər əsassız ittihamlar irəli sürülürdü, bizə sanksiyalar tətbiq edildi. Daha böyük sanksiyaların tətbiq edilməsi üçün böyük dövlətlər, - hər halda, özlərini belə sayanlar, - bizə qarşı müxtəlif beynəlxalq platformalarda açıq hücuma keçmişdilər, soyuq müharibə başlamışdır. Bu gün də bu, davam edir. Antiterror əməliyyatının ildönümü ərəfəsində biz yenə də nə qədər genişmiqyaslı şər, böhtan kampaniyası ilə üzləşdik. Bu, bizim iradəmizə təsir edə bilər? Heç vaxt! Çünki bizim işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Əslində, bu, Azərbaycan xalqının işidir. Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur.

Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi - 8 Noyabr və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Bu gün qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq eyni zamanda bu abidə bütün qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik.

❖ ❖ ❖

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı **Anar** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, hörmətli tədbir iştirakçıları. Gündən-günə gözəlləşən Bakını həm də dünyada ən çox sənətkarları, heykəlləri olan bir şəhər adlandıra bilərik. Ancaq elə son illərdə dörd böyük bəstəkarımızın - Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Tofiq Quliyevin, üç böyük müğənnimizin - Bülbülün, Rəşid Behbudovun, Müslüm Maqomayevin heykəlləri ucaldılıb. Bu heykəllərin əksəriyyəti o vaxt ucaldılır ki, biz tariximizin ən şərəfli, ən qürurlu günlərini yaşayırıq. Müzəffər Prezidentimizin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 30 illik həsrətimizə son qoydu, Qarabağın tacı Şuşa başda olmaqla, Qarabağ torpaqları azad olundu. 23 saatlıq antiterror əməliyyatında 200 ilin problemi həll olundu. Buna görə, bu xoşbəxtliyi yaşadığımıza görə mən bir daha hörmətli Prezidentimizə dərin təşəkkürlərimi bildirirəm.

Prezidentimiz qeyd etdiyi kimi, Aşıq Ələsgər Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuşdur. Oranın dağlarını, meşələrini, çeşmələrini vəsf etmişdir və vaxtilə orada heykəli ucaldılmışdı. Vandallar Qarabağda tarixi və mədəni abidələrimizi uçurtduqları kimi, Aşıq Ələsgərin heykəlini də uçurtmuşlar. Amma hörmətli Prezidentin dediyi o əminliyi mən də paylaşıram ki, gec-tez dinc yolla Aşıq Ələsgərin özü də, sözü də, adı da və həmvətənləri də öz doğma torpaqlarına qayıdacaqlar.

Bu gün biz Aşıq Ələsgərdən danışanda minillik poeziyamızda xüsusi yeri olan bir sənətkardan danışırıq. Çünki bizim poeziyamız çox zəngindir, böyükdür. Amma Orta əsr şairlərinin dillərində ərəb, fars kəlmələri o qədər çoxdur ki, indi onları yeni nəsillər lüğətsiz oxuya bilmirlər. Aşıq Ələsgərin, ümumiyyətlə, aşıq poeziyasının dili isə o qədər şəffafdır, bulaq suyu kimi o qədər təmizdir ki, onu biz lüğətsiz oxuyuruq. Mən Aşıq Ələsgərin lap gəncliyimdən yadımda qalan şeirini burada səsləndirmək istəyirəm:

*Çərşənbə günündə çeşmə başında,*
*Gözüm bir alagöz xanıma düşdü.*
*Qaşını oynatdı, gözündən güldü,*
*Nazi-qəmzələri canıma düşdü.*

*Mən işarət elədim, dərdimi bildi,*
*Gördüm həm gözəldi, həm əhli dildi.*
*Qaşını oynatdı, gözündən güldü,*
*Güləndə qadası canıma düşdü.*

*Ələsgərəm, hər dərddən halıyam,*
*Dedim, sən gözəlsən, mən yaralıyam.*
*Dedi, nişanlıyam, özgə malıyam,*
*Sındı qol-qanadım, yanıma düşdü.*

Bu şeir nə qədər sadə, nə qədər gözəl, bu gün anlayacağımız dildə yazılmışdır.

Mən sizə bəstəkarlar və musiqiçilərin heykəlləri haqqında dedim, amma onu da demək istəyirəm ki, bu illərdə bizim ədəbiyyatımızla da bağlı heykəllər ucaldılıb. Dədə Qorqudun, Koroğlunun, türk dünyasının böyük klassikləri Əlişir Nəvainin, Çingiz Aytmatovun və bu gün də Aşıq Ələsgərin heykəli ucaldılıb. Ona görə də mən Yazıçılar Birliyi adından bir daha cənab Prezidentə təşəkkürlərimi və minnətdarlığımı bildirmək istəyirəm.

Sonda bir arzumu da bildirmək istəyirəm, cənab Prezident, gün o gün olsun ki, Mirzə Cəlil Məmmədquluzadənin heykəlinin də açılışına gələk. Sağ olun.

❖ ❖ ❖

Sonra Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, akademik **Əhliman Əmiraslanov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident!

Çox hörmətli tədbir iştirakçıları!

Dünya elm, mədəniyyət, incəsənət xəzinəsinə böyük töhfələr vermiş Azərbaycan övladlarının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi və xatirələrinin əbədiləşdirilməsi Azərbaycanımızda gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Siz isə, möhtərəm cənab Prezident, bu müqəddəs ənənəni çox böyük uğurla davam etdirirsiniz. Bu gün Bakıda aşıq sənətinin əlçatmaz zirvəsinə yüksəlmiş ustad Ələsgər abidəsinin ucalması bu müqəddəs ənənənin davamıdır. Bu da bir həqiqətdir ki, Aşıq Ələsgər şəxsiyyəti, Aşıq Ələsgər irsi, Aşıq Ələsgər yaradıcılığı həmişə Ulu Öndərin qayğısı ilə əhatə olunmuşdur. Belə ki, ilk dəfə Azərbaycanda dövlət səviyyəsində Aşıq Ələsgərin yubileyinin qeyd edilməsi Ulu Öndərin sayəsində mümkün olmuşdur. Aşıq Ələsgər irsinin tədqiqi, təbliği və onun əsas mərhələləri də Ulu Öndərin adı ilə bağlıdır.

Burada qeyd edildiyi kimi, 1971-ci ildə ilk dəfə olaraq Azərbaycanda Aşıq Ələsgərin dövlət səviyyəsində yubileyi keçirildi və ondan bir qədər sonra keçmiş sovetlər birliyinin, mən deyərdim ürəyində, Moskvada, Kremlin sütunlu salonlarında bu yubiley tədbirləri həyata keçirildi. Ulu Öndərin özünün də qatıldığı bu yubiley tədbirlərində keçmiş SSRİ-nin ən yüksəkçinli rəhbərləri və tanınmış mədəniyyət xadimləri iştirak edirdilər. Burada mən yaşda olan insanlar yəqin yaxşı bilirlər ki, o dövrdə belə bir tədbirin Kremldə keçirilməsi o qədər də asan bir məsələ deyildi. Bu və buna bənzər tədbirlər yalnız Ulu Öndərin o dövrdə sovetlər birliyində olan böyük nüfuzunun sayəsində mümkün olmuşdur. Mən çox yaxşı xatırlayıram, Ulu Öndərin sərəncamından sonra Aşıq Ələsgərin 150 illik yubileyi ərəfəsində Göyçə mahalının Ağkilsə kəndində onun qəbirüstü abidəsinin qoyulması məsələsi gündəmə gəlmişdi. Möhtərəm cənab Prezident, Ermənistan rəhbərliyi buna çox cidd-cəhdlə mane olmağa çalışırdı. O vaxt Göyçə ziyalıları Ulu Öndər Heydər Əliyevə müraciət etdikdən sonra bu məsələ öz həllini tapdı və abidə çox qısa bir müddət ərzində hazırlandı və qoyuldu. Burada qeyd edildiyi kimi, çox təəssüflər olsun ki, o abidə erməni vandalları tərəfindən dağıdılıb.

Möhtərəm cənab Prezident, tarixi Qələbəmizdən sonra Şuşada dahi Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Natəvanın ermənilər tərəfindən dağıdılmış abidələrini bərpa etdiyiniz kimi, Sizin dəmir iradəniz sayəsində qərbi azərbaycanlılar öz torpaqlarına qayıdacaq və Aşıq Ələsgərin qəbirüstü abidəsi də bərpa olunacaq. Mən bu günün çox da uzaq olmadığına inanıram.

Möhtərəm cənab Prezident, Siz qeyd etdiyiniz kimi, böyük ustadın 200 illik yubileyi ilə bağlı iki sərəncam imzalamısınız. Birinci sərəncama əsasən, böyük ustadın yubileyi Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd edildi. Ulu ustadın yubileyi təkcə Azərbaycanda deyil, bütün türk dünyasında qeyd olundu. Bu gün isə gözəl Bakımızın ən gözəl yerlərindən birində ikinci sərəncamınız icra olunur. Mən hesab edirəm ki, bu möhtəşəm abidənin Bakıda ucaldılması Sizin Aşıq Ələsgər şəxsiyyətinə, irsinə, yaradıcılığına verdiyiniz çox yüksək qiymətin təcəssümüdür.

Son olaraq, möhtərəm cənab Prezident, icazə verin, böyük Ələsgər irsinə, şəxsiyyətinə, yaradıcılığına olan bu misilsiz diqqət və qayğıya görə Qərbi Azərbaycan İcmasının çoxsaylı üzvləri adından və öz adımdan Sizə dərin təşəkkürümü və səmimi minnətdarlığımı bildirim. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Aşıqlar Birliyinin sədri **Məhərrəm Qasımlı** çıxış edərək dedi:

- Bu gün söz bayramıdır, Aşıq Ələsgər bayramıdır. Bu bayramı bizə qismət edən Prezidentimizə xüsusi təşəkkür edirik, var olsun!

Ulu Öndərimiz Heydər Əliyev vaxtilə Dədə Qorqudun yubileyində bir məşhur cümlə işlətdi, dedi ki, ozan, aşıq mədəniyyəti bizim milli varlığımızın ən mötəbər qaynağıdır. Doğrudan da, bütün sonrakı dönəmdə bizim bu yoldakı irəliləyişimizdə Prezident cənab İlham Əliyev də bu məsələni diqqətdə saxladı. Gördük ki, böyük Dədə Qorqud abidəsi, möhtəşəm Koroğlu heykəli ərsəyə gəldi. Bu gün ucaldılan Aşıq Ələsgər heykəli də bir daha bu doğru yolun nə qədər diqqətdə olduğu, vacib olduğu mənasında bizim diqqətimizdədir.

Mən düşünürəm ki, bizim milli-mənəvi varlığımızın qorunmasında cənab Prezidentimizin, həqiqətən, böyük işləri var. Bu böyük işləri hər gün, hər saat görürük. Qarabağdan tutmuş bir çox məsələlərdə milli-mənəvi dəyərlər bütün başqa istiqamətlərlə birlikdə ön planda durur. Bu gün Aşıq Ələsgərin heykəli də o gerçəkliyi ortaya qoydu. Bir məsələni də ayrıca qeyd etmək istəyirəm, yəqin ki, çoxları bilir, Bakıda çoxlu heykəllər var. Anar müəllim də dedi, amma ilk aşıq heykəli Aşıq Ələsgərindir. O, məhz cənab Prezident, Sizin sayənizdə ucaldılıbdır. Ona görə Sizə ürəkdən təşəkkür edirik.

Elə sənətkarlar var ki, onlar mənsub olduqları sənət sahəsində öz qüdrətləri ilə həmin sahənin rəmzinə çevrilirlər. Bu mənada Aşıq Ələsgər də ozan-aşıq mədəniyyətinin rəmzi olan, onun sənət pasportu rolunu oynayan bir şəxsiyyət, bir sənətkar səviyyəsindədir və hamımızın da gözündə o ucalıqda dayanır. Aşıq Ələsgərin dili, poeziyası Azərbaycan dilinin, Azərbaycan ruhunun, türk ruhunun, belə deyək ki, çox monumental bir göstəricisidir. O deyib:

*Yaxşı hörmət ilə, təmiz ad ilə*
*Mən dolandım bu Qafqazın elini,*
*Pirə ata dedim, cavana qardaş,*
*Ana-bacı bildim qızı, gəlini.*

Bu, bir əxlaq kodeksidir, sənətkarın əxlaq kodeksi. Özü də sıradan bir kodeks deyil, milli-mənəvi dəyər səviyyəsinə ucalmış bir kodeksdir ki, bizim üçün Ələsgər ucalığının nə olduğunu bu misralardan görürük. Yaxud aşıq sənətinin nizamnaməsi statusunda çıxış edən bir şeirində deyir:

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdir.*

*Ardı 3-cü səh.*

# O torpaqlar unudulmayıb və unudulmayacaq

## Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında iştirak edib

























*Əvvəli 2-ci səh.*

Baxın, bu və bu sıradan olan bütün mətləblər hamısı elin, xalqın ürəyindən gələn, belə deyək ki, o düşüncələrdir. Həm də böyük fəlsəfi dərinliyi özündə cəmləşdirir. Yəni Aşıq Ələsgər sıradan bir aşıq deyil, o, böyük ustaddır, filosof ustaddır və onun heykəlinin ucaldılmasında da bu keyfiyyətlər rol oynayır. Şeirlərinə baxın, şeirlər Dədə Qorqud ruhundan, Dədə Qorqud dilindən süzülüb gəlir və onların içərisindəki bütün keyfiyyətlər xalqın milli duruşuna, milli-mənəvi varlığının ayaq üstündə durmasına təkan verir. O mənada mən düşünürəm ki, Aşıq Ələsgər irsinə Ulu Öndərimiz Heydər Əliyevin verdiyi böyük dəyərdən bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də ucaltdığı bu heykəl, doğrudan da, hamımız üçün bir qürur mənbəyidir, elə bir ümid yeridir ki, heykəlin ikinci açılışı Göyçəmizdə olacaq və Göyçədə Aşıq Ələsgər heykəlinin açılışı sizli-bizli bir yerdə olacaq.

Mən saz, söz ictimaiyyəti adından cənab Prezident, Sizə xüsusi təşəkkür edirəm. Sağ olun, var olun!

❖ ❖ ❖

Sonra Aşıq Ələsgərin nəticəsi **Xətai Ələsgərli** çıxış edərək dedi:

- Çox hörmətli Prezident!

Hörmətli tədbir iştirakçıları!

Hər birinizi Aşıq Ələsgərin bütün qohumları adından və "Dədə Ələsgər Ocağı" İctimai Birliyi adından salamlayıram.

Cənab Prezident, qeyd etdiyiniz kimi, həqiqətən, şəhərin belə bir gözəl yerində Aşıq Ələsgərin heykəlinin ucaldılması bizi çox sevindirir. Bu, bizim uzun illərdir arzumuz idi ki, bu arzuya bu gün qovuşuruq. Cənab Prezident, bu heykəlin ucaldılması barədə sərəncamınızdan sonra mən tez-tez heykəlin necə olacağı ilə bağlı heykəltaraşımızla əlaqə saxlayırdım. O deyirdi ki, bir neçə eskiz vermişik, cənab Prezident hansını bəyənərsə, o hazırlanacaq. Doğrudan da, çox möhtəşəm, əsl Aşıq Ələsgərin adına layiq, bu sənətə uyğun gözəl bir heykəl alınıb. Buna görə bir daha bütün ələsgərsevərlər adından Sizə xüsusi təşəkkürümü bildirirəm.

Ələsgər ocağının bir nümayəndəsi kimi hər zaman bizim ailədə ya saz çalmalısan, ya şeir deməlisən. Bu, bir adətdir. Mənim də qismətimə hər ikisindən pay düşüb. Ancaq istəyirəm ki, burada Sizin şərəfinizə bir şeir deyim. Bu şeir Vətən müharibəsinin ən qızğın vaxtlarında Sizə xitabən deyilibdir. İstəyirəm bunu Sizə çatdırım:

*Xalqın sənə güvənir, ey Baş Komandanımız,*
*Uzun ömür diləyirik sənə bizim hamımız.*
*Səninlə nəfəs alır ürəyimiz, canımız,*
*Səninlə çiçəklənir bu Azərbaycanımız.*

*Sən bizim ümidimiz, sən bizim inamımız,*
*Səninlədir gələcək, işıqlı sabahımız.*
*Səninlə fəxr edirik, həmişə edəcəyik,*
*Sənin siyasətinlə irəli gedəcəyik.*

*Xalqına məhəbbətin xalqını qoruyacaq,*
*Söylədiyin hər nitqin əldə şüar olacaq.*
*Sən bir tarix yazırsan, dahi Heydər övladı,*
*Tutduğun doğru yolla yaşadırsan o adı.*

*Xalqın sənin arxanda, yolundan dönməyəcək,*
*Yüksələn bayrağımız bir daha enməyəcək.*
*Xoş sorağın gələcək hər obadan, hər eldən,*
*Hamı Sizi deyəcək, hamı Sizi deyəcək,*
*Tarix yazan Sərkərdə, tarix yazan Sərkərdə.*

Cənab Ali Baş Komandan, həqiqətən də, həmin dövrdə, müharibənin çox qızğın dövründə hamı kimi bütün millətimiz televizor qarşısında Sizin çıxışınızı gözləyirdi. Deyərdim, 100 minlərlə insan Sizin o çıxışınızdan sonra televizoru qucaqlayıb öpürdü. Onlardan biri də mən olmuşam.

Cənab Prezident, həqiqətən də, Aşıq Ələsgər sənətinə verdiyiniz bu dəyər bütövlükdə saz sənətinə, söz sənətinə verilən bir dəyərdir. Milli-mənəvi dəyərlərimizi bu gün belə yaşatmaq bizi çox sevindirir, çox qürurlandırır. Həqiqətdə ürək sözlərim çoxdur, bir qismini dedilər. Əslində, mən o mövzuya toxunacaqdım. Amma istəyirəm ki, bir balaca da o mövzuya toxunum. Ulu Öndərin Aşıq Ələsgərə ilk dəfə verdiyi ən böyük dəyər 1972-ci ildə oldu. Aşıq Ələsgərin 150 illik yubileyi 1971-ci ildə olmalı idi. Məhz nəyə görə bir ildən sonra oldu? Hörmətli Əhliman müəllim də qeyd etdi, o dövrdə erməni xalqı istəmirdi ki, Aşıq Ələsgərin, türk millətindən olan belə bir şairin xatirəsi əbədiləşdirilsin. Ona görə ermənilər bir il bu işi yubatdılar. Nəhayət, Ulu Öndərimiz həmin vaxt Moskvada məsələ qaldırdı, bütün mərkəzi komitəni ayağa qaldırdı, komissiya təşkil etdi və bilavasitə bu məsələni öz nəzarətinə götürdü. Beləliklə, nəinki Göyçə mahalında onun kəndində abidəsi qoyuldu, hətta İrəvanda, Moskvada, Kreml sarayında onun yubiley tədbiri keçirildi.

Bəli, bizim çox böyük arzumuz var ki, inşallah, bayaq dediyiniz kimi, Aşıq Ələsgərin doğulduğu kənddə yenə də onun qəbirüstü abidəsi bərpa olunsun. Hələ vaxtilə Ulu Öndər Göyçə camaatı ilə görüşəndə belə bir söz deyib ki, mən çox inanıram, inanıram ki, gün gələcək, dövr dəyişəcək, siz öz dədə-baba torpaqlarınıza qayıdacaqsınız və orada ata-babalarınızın qəbrini ziyarət edəcəksiniz və Aşıq Ələsgərin sazı o dağlarda təzədən çalınacaq. Həqiqətən də, biz buna inanırıq, çox inanırıq. Çünki Siz ata vəsiyyətini doğrudan həyata keçirirsiniz. İnanırıq ki, o gün bizə qismət olacaq.

Vaxtınızı çox almayacağam, cənab Prezident, mən o vaxt televizorda Sizi qucaqlamışdım, istəyirəm icazə versəniz əlinizi sıxım.

Göyçədə Şəhrəbanu bulağından Sizə şəxsən su verəcəyəm.

❖ ❖ ❖

Prezident İlham Əliyev ustad sənətkar Aşıq Ələsgərin abidəsinin açılışını etdi.

Azərbaycan Prezidenti abidənin önünə gül dəstəsi qoydu.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, heykəlin müəllifi Xalq rəssamı Natiq Əliyev, memarı isə Azərbaycan Rəssamlıq Akademiyasının baş müəllimi Malik Babayevdir.

Aşıq Ələsgər öz əsərləri ilə Azərbaycanın zəngin bədii irsinə misilsiz töhfələr bəxş edib. Azərbaycan milli bayramları və toylarının əvəzedilməz iştirakçısı olan Aşıq Ələsgərin yaradıcılığı əlvan xüsusiyyətlərə, müxtəlif mövzulara və süjet xəttinə malikdir. Aşıq Ələsgərin əsərləri dilinin sadəliyi, nitqin zənginliyi, müxtəlifliyi, emosionallığı və özünəməxsus bədii tapıntıları ilə seçilir.

Onun yaradıcılığında gənc nəslin əxlaqi-tərbiyəvi və vətənpərvər ruhda böyüməsi üçün yazdığı şeirlər - ustadnamələr də xüsusilə təqdirəlayiqdir. Aşıq Ələsgərin zəngin poetik irsi aşıqlar üçün əsl sənətkarlıq məktəbi olub.

# Ölkələrimizin siyasi qüvvələrinin partiyalararası əlaqələri qarşılıqlı fəaliyyətin mühüm amilidir

## Prezident İlham Əliyev Rusiya Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbərini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Leonid Eduardoviç. Sizi salamlamağa çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz böyük əhəmiyyətə malikdir. Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

Bildiyiniz kimi, ötən ay Rusiya Federasiyası Prezidentinin ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafına çox böyük təkan verən dövlət səfəri oldu. Sizə də məlumdur ki, qanunvericilərimiz arasında fəal parlamentlərarası əlaqələr mövcuddur. Hökumətlərarası Komissiya uğurla fəaliyyət göstərir, humanitar əməkdaşlıq fəal inkişaf edir. Rusiya Prezidentinin səfəri çərçivəsində bütün bunlar və bir çox digər məsələlər müzakirə olunub. Biz münasibətlərimizin ardıcıl, dinamik xarakterini bir daha məmnunluqla qeyd etdik. Əlbəttə, ölkələrimizin siyasi qüvvələrinin partiyalararası əlaqələri də qarşılıqlı fəaliyyətin mühüm amilidir. Siz Rusiya Federasiyasının bütün regionlarında böyük nüfuza malik olan Rusiya Federasiyasının aparıcı siyasi partiyalarından birinə rəhbərlik edirsiniz. Partiyanızın nümayəndələrinin nümayiş etdirdiyi seçki kampaniyalarının uğurlu nəticələri siyasi qüvvənizin Rusiya Federasiyasının siyasi sistemində mühüm amil kimi böyük nüfuzundan xəbər verir.

Əlbəttə, biz bütün bunları böyük maraq və sevinclə müşahidə edirik. Sizə və rəhbərlik etdiyiniz partiyaya yeni-yeni uğurlar arzulayıram. Təbii ki, Dövlət Dumasının xarici siyasət istiqamətinin rəhbəri kimi siz, əlbəttə, gündəlik fəaliyyətinizdə Rusiya-Azərbaycan münasibətlərində əldə edilən uğurlarla tanış olursunuz. Düşünürəm ki, bu gün isə biz bu və digər məsələləri ətraflı müzakirə edəcəyik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirəcəyik.

Son olaraq, istərdim ki, gərgin iş cədvəlinizə baxmayaraq, vaxt tapıb Azərbaycanın Qarabağ bölgəsinə səfər etdiyinizə görə sizə təşəkkürümü bildirim. Sizin ziyarət etdiyiniz yaşayış məntəqələri arasında Şuşa şəhəri də olub. Bu, əlbəttə, səfərinizə xüsusi əhəmiyyət verir. Əminəm ki, Azərbaycan ictimaiyyəti də, ilk növbədə keçmiş məcburi köçkünlər də Qarabağ bölgəsinə səfər etməklə bağlı qərarınızı layiqincə qiymətləndirəcəklər.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra **Leonid Slutski** çıxış edərək dedi:

- Möhtərəm, əziz İlham Heydər oğlu. Bizə qardaş olan Azərbaycana hər dəfə səfər etmək, Sizinlə görüşmək və Azərbaycanın milli iqtisadiyyatın inkişafı üzrə uğurlarını böyük məmnuniyyətlə vurğulamaq mənim üçün həm şərəf, həm də mühüm hadisədir. Heydər Əlirza oğlunun bütün vəsiyyətləri uğurla həyata keçirilir. Sosial siyasətə gəldikdə, o, hər bir ailəni əhatə edir, bütün insanlara aiddir. Ölkənizdə hər il çox ciddi humanitar layihələr reallaşdırılır.

Azərbaycanın mədəniyyət mərkəzi Şuşada olmaq mənim çoxdankı arzumun həyata keçməsi baxımından əlamətdar oldu. Deyə bilərəm ki, Qarabağ bölgəsi inanılmaz templərlə bərpa olunur. Artıq Füzulidə və Zəngilanda çox gözəl beynəlxalq aeroportlar var, üçüncü hava limanı sürətlə tikilir. Bu gün Şuşa möhtəşəm tikinti meydançasını xatırladır, tarixi obyektlər bərpa olunur. Mən Şuşada olduğum üçün xoşbəxtəm. Bütün bunlar mənim üçün çox əlamətdar oldu. Ona görə də səfərə xüsusi olaraq bir gün əvvəl gəldim. Qarabağın Azərbaycanın tərkibinə qayıtması ilə nəticələnən antiterror əməliyyatının uğurlarının ən azından bir hissəsini öz adına çıxan bəzi region ölkələrinə münasibətdə xüsusi bir məqamı da qeyd etmək istəyirəm, - bununla yanaşı, milli miqyasda yoxsulluqla mübarizə üzrə strategiya uğurla hazırlanandan sonra Azərbaycan enerji cəhətdən müstəqil ölkə oldu, Sizin dahi atanızın, müasir Azərbaycan dövlətinin banisi, bizim də Rusiyada xatirəsini əziz tutduğumuz Heydər Əlirza oğlu Əliyevin bəlkə də ən böyük vəsiyyəti həyata keçdi. Ənənəyə uyğun olaraq, bu gün Moskvaya uçmazdan əvvəl mütləq onun məzarını ziyarət edəcəyəm, - burada mən Qarabağın qaytarılmasını nəzərdə tuturam. Bu məsələdə Azərbaycandan, Azərbaycan rəhbərliyindən, Azərbaycan xalqından, Azərbaycan Silahlı Qüvvələrindən başqa heç bir ölkənin hər hansı bir xidməti yoxdur. Bu, mühüm milli məsələ olmaqla yanaşı, Cənubi Qafqazda sabitlik, uğurla həll edilən tarixi vəzifədir.

Bu gün Azərbaycanın Qarabağ bölgəsində sürətli templərlə yeni iş yerlərinin yaradılması, o cümlədən elmi əsaslı klasterlərin həyata keçirilməsi prosesi gedir. Bəzilərinin Qarabağın tezliklə azad ediləcəyinə inanmadığı kimi, bu gün də kimsə bir neçə ildən sonra Qarabağda nələrin yaradılacağını təsəvvür etmir. Amma mən öz gözlərimlə gördüm ki, bu bölgə yenidən çiçəklənəcək, bərəkətli torpaqlara çevriləcək və Rusiya ilə Azərbaycanın mühüm infrastruktur şirkətləri də daxil olmaqla, əziz İlham Heydər oğlu, Sizin də müasir Azərbaycanın rəhbəri vəzifəsində çoxillik fəaliyyətinizi həsr etdiyiniz insanların rifahı naminə Qarabağda yeni infrastruktur layihələri həyata keçiriləcək.

Dünən hamımızın dərindən hörmət etdiyi, sevimli Polad Bülbüloğlunun mənimlə birlikdə olması da əlamətdar idi. O, 18 il Azərbaycanın mədəniyyət naziri olub. Həmçinin o, Azərbaycanın xarici siyasət xəttinin Rusiya istiqamətini səfir qismində layiqincə təmsil edərək Moskvada diplomatik korpusun duayeni qismində çalışıb. İndi isə Milli Məclisdə onun atasının da dünyaya gəldiyi Qarabağ bölgəsini layiqincə təmsil edir. Dünən biz Bülbülün tarixi ev-muzeyində olduq, bu vaxta qədər Özbəkistan, Qazaxıstan, Belarus prezidentləri, həmçinin digər müasir siyasi və ictimai xadimlər də burada olublar. Beləliklə, dünən mənim üçün ikiqat əlamətdar səfər oldu. Ona görə də indi aktual, ikitərəfli gündəliyimizdə olan, o cümlədən, əlbəttə ki, Milli Məclislə ən uğurlu şəkildə inkişaf edən parlament diplomatiyası müstəvisində məsələləri müzakirə edəcəyik.

Möhtərəm əziz İlham Heydər oğlu, dünən Şuşada olandan sonra bir daha Sizin qonağınız olaraq qəlbi Azərbaycanla döyünən, o cümlədən Azərbaycanın hüdudlarından kənarda olanları Qarabağın qaytarılması münasibətilə təbrik etmək istəyirəm. Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakı şəhərində keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağında səmimi-qəlbdən salamlayıram.

Yüzə yaxın ölkənin, eləcə də BMT-nin ixtisaslaşmış qurumlarının da daxil olduğu beynəlxalq təşkilatların təmsilçilərini, habelə prokurorlar, hakimlər, hüquqşünaslar, ekspertlər və digər nüfuzlu şəxsləri bir araya gətirən belə bir mötəbər tədbirə evsahibliyi etmək bizim üçün əlamətdar hadisə, eyni zamanda ölkəmizə olan ehtiramın təzahürüdür.

Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərə evsahibliyi etməsi artıq ənənə halını almışdır. Məlum olduğu kimi, ötən ilin sonunda Azərbaycan Respublikası dünya dövlətlərinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək şərəfinə layiq görülmüşdür.

Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlər, həmçinin aidiyyəti beynəlxalq təşkilatlarla birgə dünyanın ekoloji sisteminin yaxşılaşmasına töhfələr verməyə çalışacaqdır. Təsadüfi deyildir ki, COP29 çərçivəsində beynəlxalq tərəfdaşlarla birlikdə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda tədbirin keçirilməsi planlaşdırılır.

Azərbaycan uzun müddət qonşu Ermənistan Respublikası tərəfindən işğal və hərbi təcavüzə məruz qalmışdır. Bu işğal dövründə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, çoxsaylı hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədilmişdir. Nəhayət, 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi.

İşğal dövründə 4 minə yaxın azərbaycanlı itkin düşmüşdür. Onlar Ermənistan tərəfindən işgəncələrə məruz qalaraq qətlə yetirilmiş və kütləvi məzarlıqlarda basdırılmışdır. Ermənistan hazırda itkin düşmüş bu şəxslərin sonrakı aqibəti, habelə onların basdırıldığı kütləvi məzarlıqların yeri barədə məlumatları bizə təqdim etməkdən imtina edir.

Həmçinin işğal dövründə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələri, eləcə də dini ibadət yerləri, bütövlükdə 9 şəhər və yüzlərlə kənd və qəsəbə tamamilə məhv edilmişdir. Bu cinayət əməllərinə görə Ermənistan işğalçı və təcavüzkar ölkə olaraq, dövlət səviyyəsində məsuliyyət daşıyır. Bütün bu cinayətləri törətmiş Ermənistan tərəfi Azərbaycan xalqından üzr istəmək əvəzinə, ölkəmizə qarşı əsassız ittihamlar irəli sürür. Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan bölgədə davamlı sülh və sabitliyə nail olmaq üçün səylərini davam etdirir.

Hörmətli qonaqlar!

Biz Beynəlxalq Prokurorlar Assosiasiyası ilə uzunmüddətli əlaqələrimizi yüksək qiymətləndirir və bu tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsini vacib hesab edirik.

Azərbaycanda prokurorluq orqanlarında mütərəqqi islahatlar həyata keçirilmiş, ölkədə qanunun aliliyi, fundamental hüquq və azadlıqlar tam təmin olunmuşdur. Ölkəmizin hüquq-mühafizə orqanları beynəlxalq səviyyədə transmilli cinayətkarlıq, terrorizm, separatizm, qaçaqmalçılıq, çirkli pulların yuyulması, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qanunsuz miqrasiya və s. qarşı mübarizəyə öz mühüm töhfəsini verir və bu istiqamətdə beynəlxalq əməkdaşlığı dəstəkləyir.

Transsərhəd cinayətkarlığının yeni forma və təzahürlərinin, o cümlədən kibercinayətkarlığın yeni növlərinin meydana gəlməsi, sosial media platformaları, süni intellektin yaratdığı imkanlardan cinayətkarlıq, terrorizm məqsədilə istifadə edilməsi prokurorluq orqanlarının qarşısında yeni və mürəkkəb çağırışlar qoyur. Eyni zamanda dünyada etnik-dini zəmində artmaqda olan nifrət və irqçilik meyilləri hamımızı narahat edir.

Əminəm ki, "Qanunun aliliyinin təmin edilməsində prokurorun rolu" mövzusuna həsr olunmuş dördgünlük konfrans ortaq məqsədlərə töhfə verəcək və daha böyük əməkdaşlığa yol açacaqdır.

Mən sizləri bir daha Azərbaycanda salamlayır, ən xoş arzularımı yetirir, konfransın işinə isə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

# Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Yəhudi xalqının milli yeni il bayramı - Roş ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Şərqlə Qərbin qovuşuğunda körpü rolunu oynayan Azərbaycan uzun əsrlərdən bəri xalqlar arasında dostluq, qardaşlıq münasibətlərinin mövcud olduğu və etnik-mədəni rəngarəngliyin, yüksək multikultural dəyərlərin qorunub saxlandığı nadir məkanlardandır. Burada tarix boyu ən müxtəlif mədəniyyətlərin və etiqadların nümayəndələri ayrı-seçkiliyə məruz qalmadan həmişə sülh, mehriban qonşuluq, qarşılıqlı etimad və hörmət şəraitində bir ailə kimi yaşamışlar. Bu gün də nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü ölkəmizdə etnik və dini azlıqların, o cümlədən yəhudi icmasının öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanaraq adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaları üçün geniş imkanlar mövcuddur.

Xüsusi vurğulamaq istəyirəm ki, cəmiyyətimizin ayrılmaz hissəsi və bərabərhüquqlu üzvü olaraq yəhudiəsilli vətəndaşlarımız Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması işinə töhfələr verir, hazırda böyük tərəqqi və sürətli inkişaf mərhələsini yaşayan respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Əziz dostlar!

Yeniliyin, mənəvi saflığın, həmrəyliyin və xeyirxahlığın təcəssümünə çevrilən Roş ha-Şana münasibətilə hamınızı bir daha təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bolluq və bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

# Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Ələskərov Aydın Abdulla oğlu
Həmzə Eldar Əkbər oğlu
Rəşidov Nazim Xudaşirin oğlu

**"Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə**

Acalov Ağakişi Zakir oğlu
Bağırov Camal Firudin oğlu
Əhmədov Toğrul Rahab oğlu
Əliyev Ramiz Kamal oğlu
Hacıyev İsfəndiyar Ruslan oğlu
Hümmət-zadə Tural Ramazan oğlu
İbrahimli Rahim Adif oğlu
Məmmədli Sahil Rəfail oğlu
Məmmədova Təranə Yavər qızı
Mirkişiyev Anar Nurəddin oğlu
Tağıyev Emil Zülfüqar oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

# "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1340 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1340 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 554 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.2-ci yarımbənddə "dayanacaq bazalarının (qurğularının)" sözləri "və onların dayanacağı üçün bazaların (qurğuların)" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.24-cü yarımbəndində "dayanacaq bazalarının" sözləri "və onların dayanacağı üçün bazaların (qurğuların)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

# VII çağırış Milli Məclisin ilk sessiyası başladı



Sentyabrın 30-da VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasında ilk plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib və sessiya dövründə fəaliyyətlərinin səmərəli olmasını arzulayıb.

## Parlament üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək

Parlamentin Sədri VII çağırış Milli Məclisin birinci sessiyasına başlayarkən ilk növbədə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirib. "Sentyabrın 23-də Milli Məclisin birinci iclasında söylədiyi dərin məzmunlu nitqində dövlət başçısı yaxın illərdə ölkəmizin inkişaf istiqamətlərini müəyyən etməli olan strateji hədəfləri və milli prioritetləri elan etdi.

Parlament üzvləri olaraq, biz möhtərəm Prezidentin irəli sürdüyü vəzifələrin konkret qanunvericilik tədbirlərində təcəssümünü tapması üçün məsuliyyət daşıyırıq. Biz təmin etməliyik ki, dövlətimizin qanunvericilik bazası həm milli prioritetlərimizə uyğun olsun, həm də xalqımızın və dövlətimizin inkişafı üçün möhkəm təməl yaratsın", - deyə Milli Məclisin Sədri bildirib.

Milli Məclisin Sədri bildirib ki, biz ölkəmizin tarixinin tamamilə yeni bir mərhələsinə qədəm qoymuşuq. Xalqın təmsilçiləri kimi biz sürətlə dəyişən dünyada Azərbaycanın xoşbəxt gələcəyini təmin edə bilən dəyərləri rəhbər tutmalıyıq: "Parlamentin gücü onun kollektiv zəkasındadır. Bizim birgə ahəngdar fəaliyyətimiz ən mürəkkəb problemlərin həllinə yol aça bilər. Eyni zamanda Milli Məclisin ayrılıqda hər bir üzvünün fəaliyyəti bu gün çox böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, müasir dünyanın mürəkkəb şəraiti bizdən hər bir məsələyə milli və beynəlxalq reallıqları dərindən başa düşməklə və onları nəzərə almaqla yanaşmağı tələb edir".

Spiker Sahibə Qafarova Prezident İlham Əliyevin daxili və xarici siyasətinin qanunvericilik bazasını möhkəmləndirmək üçün Milli Məclisin öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

O da qeyd olunub ki, payız sessiyası Azərbaycan tarixinin ən şərəfli dövrləri ilə üst-üstə düşür. Dörd il bundan əvvəl, 2020-ci ilin payızında, eləcə də ötən ilin sentyabr ayında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Silahlı Qüvvələri düşmənə sarsıdıcı zərbələr endirmiş, torpaqlarımızın 30 illik işğalına son qoymuşdur. Sentyabrın 27-də dövlət başçısının iştirakı ilə keçirilən Anım Günündə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizin, qətlə yetirilmiş mülki vətəndaşlarımızın və itkin düşmüş soydaşlarımızın xatirəsi dərin ehtiramla yad edilmişdi.

Azərbaycan düşmən üzərində tarixi qələbələri xalqımıza bəxş edən müzəffər sərkərdəmiz İlham Əliyevə, cəsur əsgər və zabitlərimizə əbədi olaraq minnətdardır.

## Deputat vəsiqələri təqdim olundu

Spiker Sahibə Qafarova daha sonra bildirib ki, Milli Məclisdə gözəl bir ənənə yaranıb. O da ondan ibarətdir ki, hər çağırışın birinci sessiyasının əvvəlində millət vəkillərinə deputat vəsiqələri təqdim edilir.

Daha sonra çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ölkəmizdə sentyabrın 1-də Milli Məclisə keçirilmiş növbədənkənar seçkilərdə qələbə qazanan millət vəkillərini təbrik edib. O, bu seçkilərin Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. Bildirilib ki, cari ilin fevral ayında keçirilmiş Prezident seçkilərindən sonra, parlament seçkiləri də müasir Azərbaycanın bütün suveren ərazisində yüksək səviyyədə təşkil olunmuşdur.

MSK sədri seçkilərə hazırlıq dövründə seçki komissiyalarının səmərəli fəaliyyəti, namizədlərin təbliğat-təşviqat kampaniyası üçün yaradılmış şərait, seçki dairələrində və məntəqələrdə səsvermə prosesinin izlənilməsi üçün veb-kameraların quraşdırılması, digər görülmüş işlər barədə ətraflı məlumat verib. O, seçkiləri izləmək üçün beynəlxalq müşahidəçilərin dəvət olunduğunu, bununla yanaşı yerli müşahidəçilərin də seçkilərdə fəal iştirak etdiyini söyləyib. Milli Məclisə növbədənkənar seçkilərin azad, ədalətli və şəffaf şəkildə keçirildiyini qeyd edən Məzahir Pənahov seçkilərdən sonra Mərkəzi Seçki Komissiyasına daxil olan müraciətlərə ətraflı baxıldığını, müvafiq qərarların qəbul edildiyini deyib.

Sonra Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisin Sədri Sahibə Qafarovaya, parlament Sədrinin birinci müavini Əli Əhmədova, Sədr müavinləri Ziyafət Əsgərova, Musa Qasımlıya, Rafael Hüseynova və millət vəkillərinə deputat vəsiqələrini təqdim edib.

Vəsiqələrin təqdimatından sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

## Komitələrin üzvləri seçildi, qanunvericilik işləri planı təsdiq edildi

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün 17 məsələ müzakirə olunacaq. O qeyd edib ki, gündəliyin ilk 15 məsələsi Milli Məclisin komitələrinin üzvlərinin seçilməsi ilə bağlıdır.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Aqrar siyasət, Əmək və sosial siyasət, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri, Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Regional məsələlər, Elm və təhsil, Mədəniyyət, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin üzvlərinin seçilməsi haqqında qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, parlamentin qanunvericilik qovluğunda ölkə Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında göndərdiyi bir sıra layihələr var. O, komitələrin bu layihələri müzakirə edib Milli Məclisə təqdim etmələrini, habelə payız sessiyası üçün özlərinin iş planlarını tərtib etmələrini xahiş edib.

Qeyd olunub ki, parlamentin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur və həmin plan hər növbəti sessiyanın birinci iclasında qəbul edilir. Spiker növbəti - 16-cı məsələnin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında olduğunu söyləyib.

İclasda məsələ ətrafında müzakirələr aparılıb. Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Əli Hüseynli, Fazil Mustafa, deputatlar Jalə Əliyeva, Aydın Mirzəzadə, Hikmət Məmmədov çıxış edərək fikirlərini açıqlayıblar, təkliflərini səsləndiriblər.

Çıxışlardan sonra Milli Məclisin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı təsdiq olunub.

## Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya yaradıldı

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin sonuncu məsələsi Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqındadır. Məsələ ilə bağlı çıxışında spiker xatırladıb ki, Prezident İlham Əliyev Milli Məclisin ilk iclasında etdiyi çıxışın önəmli bir hissəsini müəyyən xarici dairələrin ölkəmizə qarşı hazırladığı planlara, onların apardığı qarayaxma, iftira, böhtan kampaniyalarına, ideoloji təxribatlara həsr etmişdi.

Bildirilib ki, dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra xalqımızın tarixi qələbəsi ilə barışa bilməyən qüvvələr Cənubi Qafqaza daxil olmaq və burada möhkəmlənmək, Azərbaycanın işlərinə qarışmaq cəhdlərindən əl çəkmirlər. Ölkəmiz mürəkkəb xarakterli təhlükələrlə üzləşir, ənənəvi çağırışların qalmaqda davam etdiyi bir şəraitdə yeni, daha məkrli müdaxilə formaları da ortaya çıxır. Bu səbəbdən də son dövrlər ideoloji təhlükəsizlik məsələləri xüsusi aktuallıq kəsb etməyə başlayıb.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycana qarşı məkrli siyasət aparanlar dövlətimizi daxildən zəiflətməyə, ictimaiyyətin dövlət institutlarına etimadını sarsıtmağa və nəticə etibarilə milli maraqlarımıza xələl gətirməyə, müstəqilliyimizi və ictimai-siyasi sabitliyimizi təhlükə altına almağa çalışırlar. O deyib ki, bir sıra hallarda biz üstüörtülü təhdidlər və müdaxilələr ilə qarşılaşırıq, cəmiyyətimiz və dövlətimiz ilə manipulyasiya etmək cəhdləri, çoxgedişli təbliğat kampaniyaları, saxta şüarlar ilə pərdələnir. Spiker diqqətə çatdırıb ki, bu baxımdan komissiyanın fəaliyyəti çevik, aktiv və preventiv xarakter daşımalıdır.

Milli Məclisin Sədri müvəqqəti komissiyanın yaradılması ilə bağlı parlamentin qərar layihəsinin deputatlara paylandığını, layihədə komissiyanın vəzifə və səlahiyyətlərinin, tərkibinin müəyyən edildiyini deyib.

Məsələnin müzakirəsində Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, komitə sədrləri Arzu Nağıyev, Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Ramid Namazov, Kamran Bayramov, Nizami Səfərov, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev və Mübariz Qurbanlı çıxış ediblər.

Çıxış edənlər vurğulayıblar ki, biz qarşımızda duran bütün təhdid və çağırışlara hazır olmalıyıq. Millət vəkilləri parlamentdə Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılmasını dövlətimizin inkişafı və təhlükəsizliyi sahəsində möhtərəm Prezidentimizin həyata keçirdiyi uzaqgörən və müdrik siyasətə Milli Məclisin daimi dəstəyi baxımından mühüm bir addım kimi dəyərləndiriblər.

Müzakirələrin sonunda qərar layihəsi səsə qoyularaq qəbul edilib. Qərara əsasən, deputat Ramid Namazov müvəqqəti komissiyanın sədri seçilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# YAP İdarə Heyətinin iclası keçirilib





**Sentyabrın 30-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclası açıq elan edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov cari il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərdə deputat mandatı qazanmış partiya üzvlərini təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzuladı. O vurğuladı ki, parlament seçkiləri müstəqillik tariximizdə ilk dəfə olaraq suveren Azərbaycanın bütün ərazilərində keçirildi: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi nailiyyətlər və şanlı zəfərlərdən sonra bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyası parlamentdə 68 mandat əldə edərək növbəti dəfə inamlı qələbə qazandı. Seçkilərin nəticələri xalqın Ulu Öndər Heydər Əliyevin siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasına sarsılmaz inam və etimadının, birmənalı dəstəyinin növbəti təsdiqi oldu".

YAP Sədrinin müavini bildirdi ki, sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında konseptual və proqram xarakterli çıxışı zamanı qazanılan uğurlarla yanaşı, qarşıda dayanan mühüm vəzifələrə də toxundu: "Xüsusilə cənab İlham Əliyevin ideoloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikir və tövsiyələri Yeni Azərbaycan Partiyasının üzvləri olaraq daha məsuliyyətlə çalışmağımızı zəruri edir. Heç şübhəsiz, milli-strateji hədəflərdən irəli gələn bu vəzifələrin yerinə yetirilməsi yeni mərhələdə Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirəcək. İnanırıq ki, indiyə qədər olduğu kimi, bundan sonra da xalqımızın iradəsi, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti sayəsində ölkəmizə qarşı məkrli planların və təhdidlərin qarşısı qətiyyətlə alınacaq, Azərbaycan mühüm uğurlara imza ataraq bütün strateji hədəflərini inamla reallaşdıracaqdır".

Daha sonra iclasın gündəliyində duran məsələlərə baxılıb. İclasda ilk olaraq Vüqar Gəncəli oğlu Rəhimzadənin YAP Xətai rayon təşkilatının, Samir Əhməd oğlu Vəliyevin isə YAP Nərimanov rayon təşkilatının sədri vəzifəsindən azad olunması məsələsinə baxılıb. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu məsələ partiyanın VII Qurultayında qəbul olunmuş Nizamnamənin tələblərindən irəli gəlir. Hər iki şəxs Milli Məclisin deputatı seçildiyi üçün rayon təşkilatının sədri vəzifəsindən azad olunmalıdırlar. Onların partiya işində xidmətlərini yüksək dəyərləndirən Tahir Budaqov hər iki şəxsə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilmək üçün YAP yerli təşkilatlarının təqdimatlarına baxılıb. Məsələ haqqında YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri - Azər Badamov, Mübariz Qurbanlı, Eldar İbrahimov, Musa Quliyev, Bahar Muradova, Hikmət Məmmədov, Bayram Aslanov və Arif Rəhimzadə çıxış etdikdən sonra müvafiq qərar qəbul olunub.

Sonra iclasda YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti"ndə dəyişiklik edilməsi məsələsinə dair təqdimatla çıxış edib, İdarə Heyətinin üzvlərini maraqlandıran sualları cavablandırıb.

Məsələ ətrafında müzakirələrdən sonra sözügedən sənədə dəyişikliklər təsdiq edilib.

İclasın sonunda cari məsələlər müzakirə edilib. Ölkəmizin növbəti mühüm siyasi proseslər ərəfəsində olduğunu deyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıdan bələdiyyə seçkilərinin gəldiyini və partiyamızın bu seçkilərə də yüksək səviyyədə hazırlaşdığını diqqətə çatdırıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ali Məclisin payız sessiyası fəaliyyətə başlayıb

Sentyabrın 30-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası keçirilib.

Ali Məclisin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclası açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. İclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi, Ali Məclisin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, Ali Məclisin İntizam komissiyasının yaradılması məsələləri daxil edilib. Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə bağlı Ali Məclis Sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Ali Məclisin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur. Daxili Nizamnaməyə əsasən, növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və Ali Məclisin iclasları bu plana uyğun keçirilməlidir.

Sonra "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

İclasda növbəti məsələ - Ali Məclisin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi ilə əlaqədar komitələrin təklif olunan tərkibi oxunub, qərar səsə qoyularaq qəbul edilib. Ali Məclis Sədrinin birinci müavini Bəxtiyar Məmmədov gündəlikdə duran sonuncu məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında olduğunu bildirib. Komissiyanın təklif olunan tərkibi oxunub, qərar səsə qoyularaq qəbul edilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası başa çatıb.

# Qərbi Azərbaycan İcması bəyanat yayıb

COP29 yaxınlaşdıqca məlum anti-Azərbaycan qüvvələr, "insan hüquqları" bəhanəsi ilə Azərbaycana qarşı hücumlarını intensivləşdiriblər.

Erməni lobbisi ilə sıx əlaqəli olan "Freedom House", "Human Rights Watch" və digərləri əvvəllər ermənipərəst motivlərini gizlətməyə çalışırdılarsa da, artıq bunu açıq şəkildə edirlər.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd olunub ki, artıq bu hücumları həmin təşkilatların erməni mənşəli əməkdaşlarının özləri həyata keçirir. Eyni zamanda bu təşkilatlar irqçi düşüncəyə malik digər erməni aktivistlərin bütün hücumlarını dəstəkləyirlər. Buna son nümunə isə "Freedom House"un erməni millətçisi Şeyla Paylan tərəfindən "Newsweek"də yayımlanan böhtan dolu məqaləni dəstəkləməsidir.

"Biz bu hücumları qətiyyətlə pisləyir və Paylanın işlədiyi BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsini (UNODC) onun haqqında zəruri ölçü götürməyə çağırırıq", - deyə bəyanatda vurğulanıb.

# Qətiyyətin təntənəsi

## Bizim arxayınlaşmağa heç bir haqqımız yoxdur!




**Bir dövlət başçısı olaraq cənab İlham Əliyev Azərbaycana rəhbərliyi dövründə bütün uğur və nailiyyətlərinə təkcə siyasəti, uzaqgörənliyi, dünyada gedən prosesləri dərindən bilərək düzgün təhlil bacarığı, ən doğru qərarlar qəbul etməsi ilə deyil, həm də möhkəm iradəsi, cəsarət və qətiyyəti sayəsində nail olmuşdur!**

**İlham Əliyev nə dediyini bilən, hər sözünün arxasında konkret iş duran, söylədiklərinin hamısına əməl edən, başqa cür desək, sözünün sahibi olan dövlət başçısıdır!**

**Deyibsə, hökmən yerinə yetirəcəkdir!**

*Bu gün bütün dünya Azərbaycan Prezidentini həm də belə tanıyır: sözünün yiyəsi, dediyini edən!*

*Cənab İlham Əliyev həm də sözünü təkcə təmasda olduğu insanlara ünvanlamır...*

*Nitq və çıxışlarının KİV və telekanallar vasitəsilə yayılacağını bildiyindən yaxınlara və uzaqlara da mesajlar göndərir.*

*"Qızım, sənə deyirəm, gəlinim sən də eşit!" prinsipi ilə.*

**Azərbaycan Prezidentinin VII çağırış Milli Məclisin ilk iclasındakı nitqi də bu qəbildən idi.**

- İlham Əliyev qətiyyətlə danışdı!
- İlham Əliyev inam və əminliklə danışdı!
- İlham Əliyev özünə və ordusuna, dövlətinin gücünə güvənərək danışdı!
- İlham Əliyev milli birliyi gündən-günə möhkəmlənən xalqına arxalanaraq danışdı!
- İlham Əliyev təkcə danışmadı, qətiyyətli mövqeyini bildirdi, qəti xəbərdarlıqlarını da etdi!

*Şübhə yoxdur ki, eşidənlər paylarını götürəcək, hələ vaxt varkən lazımi nəticələr çıxaracaqlar.*

❖ ❖ ❖

Azərbaycan mümkün olmayanı mümkün etdi: otuzillik işğala son qoyaraq möhtəşəm Zəfərə imza atdı!

Ərazi bütövlüyünü, dövlət suverenliyini bərpa etdi!

Buna öz gücü ilə, öz imkanları sayəsində nail oldu!

**Dünya xalqımızın əzminə, ordumuzun qüdrətinə, Baş Sərkərdəmizin qətiyyət və məharətinə şahid oldu!**

Sevinənlər, qələbəmizi yüksək qiymətləndirənlərlə yanaşı, narazı qalanlar, hadisələrin belə gedişatını qəbul etmək istəməyənlər də tapıldı.

Bunlar ermənilərin müdafiəçiləri və dəstəkçiləri, dünya erməniliyinin maliyyəsindən bəhrələnərək ağa qara deyən, vicdanı ilə alver edən siyasət adamları, senator və konqresmenlər, hətta prezidentlər idi.

Onlar gəlir mənbələrindən məhrum olmaq, "erməni maşası"nı əldən buraxmaq, Azərbaycana "təsir vasitəsi"ni itirmək istəmirlər.

*Utanmadan, açıq-aşkar beynəlxalq hüququ tapdalayır, yenidən Ermənistanı silahlandıraraq revanşizmə hazırlayıb, onu maliyyələşdirir və Cənubi Qafqazı Ukraynaya çevirmək istəyirlər.*

Belə bir məqamda qalib Azərbaycan nə etməlidir?

**Prezident İlham Əliyev Milli Məclisdəki çıxışında ən əvvəl bu suala cavab verdi:**

*"Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik".*

Bəli, Azərbaycan ərazi bütövlüyünün bərpasından sonra sülh istəsə də, qalib dövlət olmasına baxmayaraq sülh təşəbbüsünü birinci irəli sürsə də, arxayınlaşa bilməz!

**Necə deyərlər, möhkəm sülh istəyirsənsə, daha da güclənməli, daim müharibəyə hazır olmalısan!**

❖ ❖ ❖

Hazırda dünyanın iki yerində qanlı müharibə gedir.

Hər gün yüzlərlə insan öldürülür, yaralanır, şikəst olur, evlər dağıdılır, qaçqın düşənlərin sayı durmadan artır.

*Artıq üçüncü dünya müharibəsinin başlandığını söyləyənlər də var: NATO-nun simasında Rusiya-Ukrayna müharibəsində iştirak edən ölkələrin sayı çoxdur.*

Eyni zamanda dünya silah bazarında aparıcı yer alan dövlətlərin çoxu bu müharibələri öz "məhsulları" ilə təmin edir.

Bu vəziyyətdə hərə özünə güvənməlidir!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycan vaxtında qabaqlayıcı addımlarını atmış, hərbi sənaye kompleksini yaratmışdır!**

Vətən müharibəsindən sonra ordunun daha da gücləndirilməsi üçün iki mühüm istiqamətdə iş aparılır.

BİRİNCİSİ:

- Yeni silahlı birləşmələr yaradılıb.
- Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırılıb.
- Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradılıb və inkişaf etdirilməkdədir.
- Gecə-gündüz dayanmadan hərbi təlimlər keçirilir, əsgər və zabitlərin peşəkarlıq səviyyəsi daim artırılır.
- Ordumuz texnika və yeni silahlarla, zəruri vasitələrlə təmin olunur.

İKİNCİSİ:

- Azərbaycan nəinki özü hərbi sənaye məhsulları istehsalını artırır, həm də onun ixrac coğrafiyasını genişləndirir.
- Bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşdirmə işləri aparılır.
- Xarici tərəfdaşlarla yeni istehsalat sahələri yaradılır, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur.
- Məhsulların həm çeşidləri, həm həcmi, həm də keyfiyyəti durmadan yüksəldilir.

*Məqsəd xarici mənbələrdən daha az asılı olmaq, üstəlik, yaxın gələcəkdə dünya silah bazarında önəmli yer qazanmaqdır!*

**Azərbaycan Prezidenti İlham Əliyev hərbi sahədə görülən işlərə və yaradılan potensiala güvənərək qəti xəbərdarlıq etdi:**

*"Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".*

❖ ❖ ❖

**Cənab İlham Əliyev sərhədlərin etibarlı qorunmasını önəmli vəzifələrdən biri kimi qeyd etdi.**

Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədlərimizin uzunluğu 500 kilometrdən çoxdur.

Üstəlik, bu şərti sərhədin relyefi, coğrafiyası, iqlim şəraiti çox ağırdır və xidmət aparmaq bir o qədər də asan deyil.

*Bütün çətinliklərə baxmayaraq, sərhədboyu yerlərdə hərbi mövqelər möhkəmləndirilir, mühəndis işləri aparılır, müasir infrastrukturla təchiz edilir, bütövlükdə sərhədlərin mühafizəsi həm vizual, həm infrastruktur, həm də texnoloji vasitələrlə təmin olunur.*

**Ermənistan bir neçə dövlət tərəfindən sürətlə silahlandırılır, hərbi təlimlər keçirilir, maliyyə vəsaitləri ayrılır.**

*Əsl məqsəd Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Cənubi Qafqazın digər ölkələri üçün təhdid mənbəyi yaratmaq, öz maraqlarını təmin etməkdir, çünki bu işi görənləri erməni xalqının maraqları düşündürmür.*

Bütün bunlar Ermənistanın revanşizm iddiasında olan rəhbərliyinin problemidir.

**Azərbaycan rəhbəri İlham Əliyev isə bütün qabaqlayıcı addımlarını vədəsində atmaqla dəfələrlə etdiyi xəbərdarlığını bir daha təkrarladı:**

*"Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin".*

❖ ❖ ❖

Müharibə vəziyyətində yaşamaq, məkrli və düşmən münasibətlərinin hədəfinə çevrilmək önləyici tədbirlər görülməsini, ehtiyat tədbirlərinə üstünlük verilməsini tələb edir.

COVID-19-la bağlı quru sərhədlərimiz bağlanmışdı və bu, həmin dövrün zəruri tədbirlərindən biri sayılırdı.

**Sərhədlərin hələ də açılmaması müəyyən narahatlıqlar və suallar doğururdu.**

**Cənab İlham Əliyev bu məsələyə də zəruri aydınlıq gətirdi:**

*"Son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi bir çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlərin qarşısı alınır".*

Azərbaycan xüsusi xidmət orqanları yüksək səviyyədə, peşəkarlıqla çalışmağı, ölkə daxilində vətəndaşların təhlükəsizliyini təmin etməyi məharətlə bacarırlar.

Məhz bunun sayəsində Azərbaycan həm də dünyanın ən sabit, ən əmin-aman ölkələrindən biri sayılır.

**Belə sabitlik, dövlətin daxili və xarici risklərdən qorunması onun möhkəmliyini və gücünü göstərən şərtlərdən biridir.**

❖ ❖ ❖

**Prezident İlham Əliyevin diqqət çəkdiyi vacib vəzifələrdən biri də ideoloji təxribatların qarşısının alınması və ideoloji təhlükəsizlik oldu:**

*"İdeoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların".*

Göründüyü kimi, dövlət başçısı bu məqamı qabardarkən onun həllində əlbir və əlaqəli fəaliyyəti ön plana çəkir.

Bəli, ölkəmizə qarşı dayanmadan ideoloji təxribatlar baş verir.

**Əsas hədəf isə gənclər sayılır, çünki onları yoldan çıxarmaq, məkrli planların iştirakçısına çevirmək daha asan olur.**

*ABŞ-nin və Qərbin ən qəddar və qaniçən planlarından sayılan "ərəb baharları" və "rəngli inqilablar" məhz təcrübəsiz, asanlıqla düz yoldan çıxarılan, emosiyalara üstünlük verən gənclərin sayəsində "uğur" qazanmışdı.*

Lakin sonradan bəlli oldu ki, bu "uğurlar" çoxsaylı qurbanlara, dövlətin təbii sərvətlərinin talanmasına, onun inkişafının on illərlə geri atılmasına səbəb olmuşdur.

**Bütövlükdə son dövrdə Prezident İlham Əliyev gənclərin ideya-siyasi, vətənpərvərlik tərbiyəsinə daha çox diqqət yetirir, Qarabağ Universitetindəki çıxışında da bu haqda danışmışdı.**

Torpaqların işğaldan azad edilməsinə hazırlıq, 44 günlük Zəfər müharibəsi və daha sonralar baş verənlər Azərbaycan gəncinin milli şüuruna, ənənəvi keyfiyyətlərinə güclü təsir göstərərək onun vətənpərvərlik duyğularının, Vətən, xalq və dövlət qarşısındakı məsuliyyət hissinin daha da yüksəlməsinə ciddi təsir göstərmişdir.

*Bu gün Azərbaycan gənci dünyada baş verən proseslərdən, ölkəmizə yönələn xain planlardan asanlıqla baş çıxarır, vətəndaşlıq borcunu dərindən dərk edərək doğru mövqedə dayanır.*

*Lakin heç zaman arxayınlaşmaq olmaz!*

Ailə, məktəb, ideoloji sahədə çalışanlar əl-ələ verərək düşmənlərimizin bütün xəyanətkar əməllərini puça çıxarmağı, milli birliyimizi qorumağı təmin etməlidirlər.

**İdeoloji mübarizə, gənclərin milli ruhda tərbiyəsi vəhdətdə götürülməli, müvafiq qurumların gündəlik fəaliyyətinin mərkəzində saxlanılmalıdır.**

**Prezidentimizin də tövsiyəsi belədir:**

*"Gənc nəslin milli ruhda böyüməsi, sadəcə olaraq, sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır".*

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin ikiəsrlik Qarabağ münaqişəsinə 44 gündə son qoymasını bizdən başqa kimsə gözləmirdi.**

*Ermənistanın dostları və havadarları qısa vaxtda qazanılan möhtəşəm qələbədən əvvəlcə çaşdılar, sonra özlərini itirdilər, ən nəhayət Ermənistanı əlimizdən almaq, hərbi əməliyyatları dərhal dayandırmaq üçün əl-ayağa düşdülər.*

Azərbaycanın zəfərin davamı olaraq ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etməsi düşmənlərimizin niyyət və planlarını puça çıxardı.

**Artıq bütün maskalar cırılmış, əsl sifətlər üzə çıxmışdır.**

**Ermənistanın biabırçı məğlubiyyətindən məyus olanlar, Azərbaycanın möhtəşəm qələbəsini gözü götürməyənlər, ərazilərini separatçı və terrorçu törtöküntülərindən təmizləməsindən narazı qalanlar müxtəlif planlar və oyunlar qurmağa, hansısa formada ölkəmizə təsir və təzyiqlər etməyə müxtəlif cabalar göstərirlər.**

*Lakin əbəs yerə!*

*Sürətlə şütüyən qatarın dalınca baxmaq olar, ona çatmaq, yolundan döndərmək isə mümkün deyil!*

**İlham Əliyev dövlətlərarası münasibətlərin baş meyarını da müəyyənləşdirib:**

*"Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürəkdirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər?"*

❖ ❖ ❖

**Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyanın sayılıb-seçilən liderlərindəndir.**

İxtisasca diplomatdır.

Ən əsası, Heydər Əliyev məktəbinin yeganə əyani tələbəsi olmuş siyasətçidir!

*İlham Əliyev həm də yerini bilməyənlərə yerini göstərməyi, cızığından çıxanları yerində oturtmağı məharətlə bacarır!*

*Bunu ustalıqla, diplomatik şəkildə edir.*

Milli Məclisin VII çağırış ilk iclasındakı nitqində beynəlxalq arenaya ünvanlanan mesajlarından biri bu məsələyə həsr olunmuşdur.

Artıq Azərbaycan öz gücünə öz problemini həll etmiş, ölkənin ərazi bütövlüyünə və dövlət suverenliyinə nail olmuşdur. Qarabağı və Şərqi Zəngəzuru öz imkanları hesabına sürətlə bərpa edərək keçmiş məcburi köçkünləri dədə-baba torpaqlarına uğurla qaytarmaqdadır.

**Azərbaycan heç kəsdən minnət götürmür və kimsənin ona minnət qoymasına yer yoxdur!**

Odur ki, hamı ilə münasibətləri bərabər hüquq və qarşılıqlı hörmət əsasında qurur.

*Başqa sözlə desək, Azərbaycan heç zaman heç kəsin daxili işinə qarışmır, onun işinə qarışmaq istəyənlərin isə dərsini dərhal verir!*

**İlham Əliyev xarici siyasətimizdə baş verən yenilikləri nəzərdə tutaraq ikitərəfli və çoxtərəfli münasibətlərin mühüm prinsiplərini də bir daha xatırladı:**

*"Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq!*

❖ ❖ ❖

Hazırda ən önəmli vəzifə Qarabağın və Şərqi Zəngəzurun bərpası sayılır.

**Dövlət başçısı cənab İlham Əliyevin ən çox diqqət yetirdiyi, vəsait ayırdığı, çoxsaylı səfərlər, təməlqoyma və açılışlar etdiyi ünvan da işğaldan azad olunan ərazilərimizdir.**

Faktlar və rəqəmlər də deyilənləri sübut edir:

- Müharibədən sonra ayrılan və ilin sonunadək xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manatdır.
- Artıq 8 mindən çox keçmiş məcburi köçkün geriyə dönərək doğma torpaqlarda yaşayır.
- İndiyədək azad edilən ərazilərdə 3 min kilometr avtomobil yolu çəkilib.
- Uzunluğu 70 kilometr olan 45 tunel qazılması nəzərdə tutulub və onların bir qismində işlər başa çatdırılıb.
- 450 körpü qurulacaqdır.
- İndiyədək iki beynəlxalq hava limanı və dəmir yolları istifadəyə verilmişdir.
- Üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istismara buraxılmışdır və bu proses davam edir.
- Smart yaşayış məntəqələri, məktəblər, xəstəxanalar, uşaq bağçaları, digər sosial obyektlər bir-birinin ardınca istifadəyə verilir.
- Dağıdılmış məscidlər yenidən qurulur, tarixi abidələr bərpa edilir.
- Zəfər muzeyləri, işğal muzeyləri yaradılır.

*Təəssüf doğuran haldır ki, dünyanın heç bir donor təşkilatı bu prosesdə iştirak etmir, biganəlik və laqeydlik göstərir.*

**Qürurdoğuran haldır ki, bütün bu işləri özümüz edə bilirik, gücümüz və maliyyəmiz yetərincədir!**

Növbəti ilin dövlət büdcəsində möhtəşəm quruculuq işlərinin sürətli davamı, şübhəsiz, nəzərə alınacaqdır.

❖ ❖ ❖

Paşinyan sülh danışıqları imitasiyası yaradır, "sülh oyunu" oynayır.

Bütün bu hoqqabazlıqla vaxtı uzatmağa, yenidən güclənməyə can atır.

**Dostları və havadarları isə Ermənistana hərbi potensial yaratmağa çalışırlar:**

- Təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri də hayların ordusunda işə başlayıblar.
- Sərhədimizdə qanunsuz olaraq "müşahidəçi" missiyası, əslində, "durbinli" casuslar dəstəsi yaradıblar.
- ABŞ ilə birgə hərbi təlimlər keçirirlər.
- ABŞ təyyarələri davamlı şəkildə hərbi yüklər daşıyır.
- ABŞ mütəxəssisləri Ermənistanın Müdafiə Nazirliyində işə götürülürlər və s.

*Otuz il ərzində Ermənistan silahlandı, səngərlər qazdı, bunkerlər düzəltdi, ATƏT-in köməyi ilə "sülh oyunu" oynadı.*

*Sonrası nə oldu?*

**Əl-ayağımıza düşərək, Prezidentimizə minnətçilər salaraq kapitulyasiya aktını imzaladı.**

**Güclü, iddialı, indiki müdafiəçilərinin arxasında durduğu bir vaxtda darmadağın edildi.**

*İndi Azərbaycan qüdrətli dövlətə çevrilib, qısa müddətdə düşmən ordusunu məhv edərək torpaqlarını azad edib, Silahlı Qüvvələrini əvvəlkindən güclü vəziyyətə gətirib!*

Sülh müqaviləsinin şərtlərini də irəlicədən bəyan edib!

**Üstündə israr etdiyi iki məqamı da açıq şəkildə bildirir:**

**ATƏT-in Minsk qrupu gərəksiz və faydasız olduğuna görə ləğv edilməli, Ermənistanın Konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır!**

Və heç kəs unutmamalıdır: ŞƏRTLƏRİ QALİB TƏRƏF QOYUR!

*"Danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın. Ümumiyyətlə, heç kimə bel bağlamasın. Onlar əgər bu coğrafiyada yaşamaq istəyirlərsə və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, öz qonşularına qarşı siyasətlərində ciddi düzəlişlər etməlidirlər".*

*İKİNCİSİ: "Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır".*

**Hər iki sitat cənab İlham Əliyevin parlamentdəki nitqindəndir!**

**Aydın və konkret.**

❖ ❖ ❖

"Dəmir yumruq" Azərbaycanın "Qarabağ problemi"ni birdəfəlik həll etdi!

Ermənistana da böyük faydası dəydi!

*"Xalq içindən çıxmış" "sorosçu" baş nazir Paşinyan dərk etdi ki, "tarixi Ermənistan"la "real Ermənistan" arasında mühüm fərqlər var!*

Reallığı dərk etmək və real düşünmək lazımdır!

Ermənistanı qızışdıraraq Cənubi Qafqazı müharibə meydanına çevirmək, öz istəklərini gerçəkləşdirmək istəyənlər isə sülh müqaviləsinin imzalanmasına əngəl törədirlər.

*Üçüncü dünya müharibəsi başlaya bilər və belə olan halda "təhrikçilərin" və "qızışdırıcıların" başı özlərinə qarışacaqdır.*

*Onda Ermənistana sülh müqaviləsi hava-su kimi lazım olacaqdır.*

**Bütün hallarda İlham Əliyev növbəti dəfə öz xəbərdarlığını etdi:**

*"Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir".*

**Ağıllı və uzaqgörən olmaq lazımdır, cənablar!**

**Bəxtiyar SADIQOV**

**1 Oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür**

# Azərbaycan prokurorluğu dövlətçiliyin və qanunun aliliyinin etibarlı təminatçısıdır

## Milli maraqlara əsaslanan müdrik və qətiyyətli dövlət siyasəti

**Müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətçiliyimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf strategiyasının tarixi zəfərimizin böyük memarı cənab İlham Əliyev tərəfindən milli maraqlara, dünyanın çevik dəyişən reallıqlarına adekvat olaraq inamla davam etdirilməsi üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasına zəmin yaratmışdır.**

Hər bir azərbaycanlının qəlbində yüksək qürur və iftixar hissi yaradan şanlı qələbəmizin məntiqi davamı olaraq 24 saatdan da az müddətdə yekunlaşan lokal xarakterli antiterror tədbirləri ilə suverenliyimizin tam bərpa edilməsi yüz ildən bəri bizə "miras" qalan ağrılı-acılı problemi kökündən həll etməklə gələcək nəsillərə alnıaçıq, qürurlu və məğrur dövlət bəxş etmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, şəhidlərimizin qanı hesabına əldə edilmiş xalqımızın ən böyük milli sərvəti olan ərazi bütövlüyümüz və suverenliyimiz çərçivəsində cari ilin fevral ayında növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri, sentyabrın əvvəlində isə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi qlobal arenada özünün ən qüdrətli dövrünə qədəm qoyan dövlətimizin ictimai-siyasi həyatında əlamətdar hadisə kimi xüsusi olaraq qeyd edilməlidir.

Yeni inkişaf dövrünün astanasında keçirilmiş Zəfər seçkilərində millətimizin yenidən öz əvəzsiz lideri cənab İlham Əliyevə sonsuz inamını və ümummilli etimadını bildirməklə ölkəmizin ardıcıl tərəqqisinə və firavan gələcəyinə səs verməsi bütün dünyaya daha güclü Azərbaycan naminə yeni hədəflərə doğru irəliləyən dövlət başçısı ilə xalqının sarsılmaz birliyini nümayiş etdirmişdir.

Ulu Öndərin ən mühüm vəsiyyətini və xalqına verdiyi sözü yerinə yetirməklə müqəddəs tarixi missiyasını reallaşdıran Ali Baş Komandana dönməz xarakter alan islahatlar prosesində onunla çiyin-çiyinə Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edən, ən yaxın silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı bu baxımdan xüsusi diqqət çəkir.

Dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş böyük miqyaslı və uzaq məqsədli hədəflərin uğurla gerçəkləşməsinin nəticəsidir ki, bu gün beynəlxalq ictimaiyyətin yekdil qərarı ilə ölkəmizin tarix kitabına qızıl hərflərlə yazılacaq dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməsi Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru, Azərbaycana qarşı iflasa məhkum çirkin kampaniya aparan bəzi dairələrə isə tutarlı cavabdır.

Dünyada Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olan bu mötəbər tədbir eyni zamanda regionumuzun yeni geosiyasi reallıqlarını dünyaya təqdim edərək beynəlxalq müstəvidə ölkəmizə əhəmiyyətli dividendlər qazandıracaqdır.

80 minə yaxın xarici nümayəndənin iştirak edəcəyi möhtəşəm konfrans növbəti dəfə ölkəmizin qüdrətinin bütün dünyaya nümayişi olmaqla dövlətimizin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq səylərinə zəmin yaradacaq, ekoloji problemlərlə mübarizəni yeni müstəviyə qaldıracaqdır.

### Prokurorluq orqanları dövlətin əsas sütunlarından biridir

Bu gün Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı və milli prokurorluq orqanlarının yaranmasının 106-cı ili qeyd olunur. 1 oktyabr 1918-ci il tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq orqanları bir əsrdən artıq tarixi ərzində çətin və mürəkkəb, eyni zamanda şərəfli bir inkişaf yolu keçərək, bugünkü şəkildə formalaşmış, fəaliyyət göstərdiyi bütün dövrlərdə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq etmişdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan prokurorluğunun qanunçuluğun etibarlı təminatçısı kimi cinayətkarlığa qarşı barışmaz mübarizəsinin və qanunun aliliyinin bərqərar olunmasında sarsılmaz mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquq islahatları, görkəmli dövlət xadiminin quruma olan xüsusi qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarının ictimai-siyasi sabitliyin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini hər zaman önə çəkən müstəsna dühası və misilsiz fədakarlığı ilə əbədilik qazanan Ulu Öndərin *"Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"* sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Ölkənin dayanıqlı və davamlı inkişafının təminatında dövlətin hüquq-mühafizə orqanlarının peşəkarcasına fəaliyyət göstərməsini daim diqqət mərkəzində saxlayan dahi rəhbərin oktyabr ayının 1-ni respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan etməsi, şəxsi təşəbbüsü və rəhbərliyi altında qurumun yaradılmasının 80 illik yubileyinin təntənəli şəkildə qeyd edilməklə həmin tədbirdə *"Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"* sözləri bu gün də hər bir prokurorluq işçisi tərəfindən böyük iftixar hissi ilə yad edilir.

Əlbəttə, bir çox dövlət təsisatı kimi prokurorluq orqanlarının da təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Heydər Əliyev irsinə layiqli varislik nümunəsini göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çağdaş dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları ilə mümkün olmuşdur.

Bu baxımdan dövlət başçısının rəhbərliyi ilə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyində innovativ yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Prokurorluq orqanlarında yeni dövrün tələblərinə uyğun islahatlara təkanın əsasını cənab Prezident İlham Əliyev tərəfindən 2020-ci il mayın 1-də baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul zamanı verilən tapşırıq və tövsiyələr təşkil etmişdir.

Azərbaycan Prezidentinin *"Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq"* sözlərinin əyani şəkildə reallaşması istiqamətində qısa zaman kəsiyində prokurorluqda müasir məzmunlu islahatlar aparılmış, səmərəliliyin və işin keyfiyyətinin artırılmasına yönəlmiş tədbirlər sistemli xarakter almaqla bu gün də ardıcıl şəkildə davam etməkdədir.

Xüsusi vurğulanmalıdır ki, dövlət başçısının dəstəyi ilə hüquq sistemində aparıcı rola malik prokurorluğun fəaliyyətində şəffaflığın və aşkarlığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Cari ildə eyni zamanda prokurorluq orqanlarının xidməti fəaliyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, Xankəndi şəhər, Şəki rayonunun və Bakı şəhərinin Nərimanov rayon prokurorluqlarının yeni inzibati binalarının istifadəyə verilməsi ölkə rəhbərliyinin quruma olan növbəti diqqət və qayğısının təcəssümü kimi qəbul edilmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, eləcə də prokurorluğa ictimai etimadın gücləndirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi və müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması ilə bağlı tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

### Azərbaycan prokurorluğu hər zaman qanunçuluğun keşiyindədir

*İctimai-siyasi sabitliyin qorunması*

Bütün dövrlərdə olduğu kimi, ötən dövrdə də - bu ilin əvvəlindən indiyədək - prokurorluq orqanları qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə qarşısında duran vəzifələri layiqincə icra etmişlər.

Daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq ölkədə dayanıqlı ictimai-siyasi sabitlik qorunaraq dövlət maraqlarının müdafiəsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmaqla kriminogen durumun stabilliyi və bütün mənfi təzahürlərin qarşısının alınması təmin edilir.

Son bir il ərzində prokurorluq orqanları tərəfindən əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş ümumilikdə 7 qəsdən adamöldürmə cinayətinin daxili işlər və dövlət təhlükəsizliyi orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilmiş, onlardan 4 işin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir.

Eyni zamanda ötən bir il ərzində qeyri-aşkar şəraitdə törədilmiş 24 qəsdən adamöldürmə cinayətinin isti izlərlə açılmasının təmin olunması xüsusi qeyd edilməlidir.

Cari il ərzində prokurorluq orqanlarında aparılmış istintaq tədbirləri ilə ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə 134 milyon 944 min manat məbləğində vurulmuş maddi ziyandan 52 milyon 40 min manat, həmçinin qanunvericiliyin tələblərinə əsasən cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 861 min manat vəsaitin ödənilməsinə nail olunmuş, eləcə də 21 milyon 42 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmuşdur.

Görülmüş işlərlə yanaşı, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi üçün ötən illərdən bağlı qalan cinayət işləri üzrə təqsirli şəxslərin müəyyənləşdirilməsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi, istintaq taktikası və metodikasının, kriminalistikanın müasir elmi-texniki nailiyyətlərindən daha səmərəli istifadə olunmasının təmin edilməsi, eləcə də artım tendensiyası qeydə alınmış cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi qarşıda duran vəzifələrdəndir.

### Korrupsiyaya qarşı mübarizə ardıcıl xarakter kəsb edir

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinə və strateji inkişaf konsepsiyasına, o cümlədən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq korrupsiyaya qarşı mübarizəyə xüsusi diqqət yetirilməklə işin effektivliyinin yüksəldilməsi prokurorluqda prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan bu sosial bəlaya qarşı əks-təsir mexanizmlərindən daha geniş istifadə edilməklə onun baş verməsinə səbəb olan və şərait yaradan halların aradan qaldırılması, təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər cari ildə də uğurla davam etdirilmişdir.

Bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində bu müddətdə vətəndaşların 7808, o cümlədən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 4324 müraciətinə baxılaraq, prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi, həmçinin cinayət işlərinin başlanması təmin edilmişdir.

Bu müddət ərzində baş idarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən 36 əməliyyat tədbiri nəticəsində 29 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 36 cinayət işi başlanmışdır.

Qeyd edilən dövrdə baş idarə tərəfindən 143 şəxs barəsində baxılması üçün məhkəmələrə göndərilmiş 108 cinayət işi üzrə vurulmuş maddi ziyan -102 milyon 400 min manat təşkil etməklə ibtidai istintaq dövründə 25 milyon 545 min manatın ödənilməsi, həmçinin 20 milyon 760 min manat məbləğində əmlak üzərinə həbs qoyulmaqla ümumilikdə 46 milyon 305 min manat (45,2 faiz) məbləğində ziyanın bərpası təmin olunmuşdur.

Bundan başqa, icraatına xitam verilmiş işlər üzrə 16 milyon 629 min manat məbləğində maddi ziyan ödənilməklə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 68 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin *"Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır... biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq"* sözlərinə uyğun olaraq prokurorluq orqanları tərəfindən korrupsiya hüquqpozmalarına qarşı mübarizə bundan sonra da qətiyyətlə davam etdiriləcəkdir.

### Prokurorluğun fəaliyyətində rəqəmsal texnologiyalar uğurla tətbiq edilir

Müasir Azərbaycan prokurorluğunun fəaliyyətində ən vacib istiqamətlərdən biri də dövrün tələblərinə uyğun olaraq cinayət mühakimə icraatında rəqəmsallaşma prosesinin həyata keçirilməsidir ki, bu sahədə son dövrlər nəzərəçarpan irəliləyişlər əldə edilmişdir.

Qeyd olunmalıdır ki, dövlət başçısının 7 may 2021-ci il tarixli fərmanı ilə yaradılmış "Elektron Prokurorluq" İnformasiya Sisteminin keçən ilin mart ayından etibarən tam şəkildə bütün prokurorluq orqanlarında fəaliyyətə başlaması ilə yanaşı, cinayət təqibinin rəqəmsallaşdırılmasına dair ilk addımlar atılaraq "Müraciətlər", "İnzibati xəta icraatı", "Cinayət xarakterli materiallar" və "İstintaq" modulları da istifadəyə verilmişdir.

Bununla da hazırda prokurorluq orqanlarında icraatda olan bütün cinayət işlərinin və cinayət xarakterli məlumatların araşdırılmasına dair materialların bu modullar vasitəsilə "kağızsız" qaydada aparılması təmin edilir.

Eyni zamanda "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 1 avqust 2023-cü il tarixli fərmanla yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə ilk qoşulan qurumlardan biri olan Azərbaycan prokurorluğu tərəfindən də istər ölkədaxili, istərsə də beynəlxalq səviyyədə fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl tədbirlər görülmüşdür.

Bu baxımdan Baş Prokurorluğun təşəbbüsü ilə cari ilin aprel ayında ümumilikdə 20-dək müxtəlif dövlət qurumu və hüquq-mühafizə orqanlarının rəhbər vəzifəli şəxsləri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ali təhsil ocaqlarının nümayəndələri və vətəndaş cəmiyyəti üzvlərinin iştirakı ilə "Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilmiş geniş konfrans, həmçinin cari ilin iyun ayında Baş Prokurorluq və Ədliyyə Nazirliyi tərəfindən Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində "Türk dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilmiş beynəlxalq konfrans müasir informasiya texnologiyalarının hüquqi sahədə tətbiqi və istifadəsinin genişləndirilməsinə öz töhfəsini vermişdir.

Aprel ayında keçirilmiş konfransın yekununda qəbul edilmiş birgə qərar əsasında yaradılmış İşçi qrupu tərəfindən cinayət prosesinin rəqəmsallaşdırılması ilə bağlı cinayət-prosessual və digər qanunvericiliklərə dəyişikliklərin edilməsini nəzərdə tutan qanun layihələri hazırlanmaqla razılaşdırılması üçün aidiyyəti qurumların müzakirəsinə təqdim edilmişdir.

### Gənc kadrların potensialının reallaşdırılmasına xüsusi önəm verilir

Cari il ərzində də Azərbaycan prokurorluğunun müasir dövrün tələblərinə uyğun fəaliyyətinin təşkili baxımından kadr korpusunun yenilənməsi və komplektləşdirilməsi ən mühüm istiqamətlərdən birini təşkil etmişdir.

Prokurorluq orqanlarında mövcud vakant ştat vahidləri nəzərə alınmaqla yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə və sağlam mənəviyyata malik 52 gənc hüquqşünas bu ilin yanvar ayında sayca 25-ci müsabiqənin nəticələri üzrə qulluğa qəbul edilmişdir.

Xüsusi qeyd edilməlidir ki, 2020-ci ildən bəri keçirilən müsabiqələr üzrə uğur qazanmış namizədlərdən 21-i Vətən müharibəsinin iştirakçısı olmaqla prokurorluq orqanlarında şərəfli xidmətlərini davam etdirir.

### Qanunvericiliyin təkmilləşdirilməsi və vətəndaş məmnunluğunun təmini də diqqət mərkəzindədir

Prokurorluq orqanlarında normayaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə də cari il ərzində səmərəli işlər görülmüş, Baş Prokurorluq tərəfindən Konstitusiya Məhkəməsinə 4 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 4 yazılı rəyin verilməsi təmin edilməklə konstitusiya icraatında iştirak edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq 2024-cü ilin yanvar-sentyabr ayları ərzində Baş Prokurorluqda, eləcə də 28 rayon və şəhərdə ümumilikdə 1365 vətəndaş tərəfimizdən qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmişdir.

### Ətraf mühitin qorunması prioritet istiqamətlərdən biri kimi

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində prokurorluq orqanları tərəfindən qanunla üzərinə qoyulmuş vəzifələrin icrası ilə əlaqədar Baş Prokurorluq üzrə Tədbirlər Planı hazırlanaraq ətraf mühitin mühafizəsi sahəsində mövcud problemlərin və onların həlli yollarının müəyyən edilməsi, bu sahədə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Tədbirlər planının icrası çərçivəsində Bakı şəhərində və bölgələrdə ekoloji cinayətlər və inzibati xətalar nəticəsində kəsilmiş ağacların və ya yararsız vəziyyətə salınmış ərazilərin bərpası məqsədilə "Cərimə Parkı" adlı yaşıllaşdırılmış ərazilərin qurulması konsepsiyasının hazırlanmaqla reallaşdırılması, Bakı Dövlət Universiteti ilə birlikdə Baş Prokurorluğun nəzdində "Ekoloji Hüquq Klinikası"nın formalaşdırılması, bu sahədə könüllü gənc mütəxəssislərin aktual mövzular üzrə tədqiqat aparmalarının təşviq edilməsi istiqamətində bir sıra zəruri tədbirlərin icrası təmin olunmuşdur.

Məlumat üçün bildirmək istərdik ki, "Cərimə Parkı - Təbiətin qisası" adlı konsepsiya və onun reallaşdırılması istiqamətində işlərin icrası prokurorluq orqanlarının təcrübəsində ilkin bir addımdır və konsepsiyanın mahiyyəti əsasən qanunvericiliyin tələbləri, mövcud təcrübə və imkanlar nəzərə alınmaqla sosial ədalətin təmin edilməsi, cəmiyyət qarşısında qurumların və fərdlərin sosial cavabdehlik prinsipinin təbliğinə yönəlmişdir.

Belə ki, ağacların qanunsuz kəsilməsi faktı ilə əlaqədar toplanmış materiallar üzrə vurulmuş ziyanın ödənilməsi ilə yanaşı, hazırkı vaxta qədər Bakı şəhəri ərazisində üç cərimə parkı təsis edilməklə məhv edilmiş yaşıllıqların sayına uyğun sayda ağacların əkilməsi təmin olunmuşdur.

Prokurorluq orqanlarında aparılan müasir məzmunlu islahatların mühüm istiqamətlərindən birini də məhz ekoloji hüquqpozmaların müəyyən edilməklə zəruri qabaqlayıcı və qanunamüvafiq cəza tədbirlərinin görülməsi təşkil edir.

Ümumilikdə 2020-ci ildən ətraf mühitin mühafizəsi qaydalarının pozulması faktları ilə əlaqədar 203 inzibati xəta haqqında iş üzrə icraat və 547 cinayət işi başlanmaqla təqsirli şəxslər barəsində zəruri məsuliyyət tədbirləri görülmüş, həmçinin 5 milyon 967 min manat məbləğində ziyanın ödənilməsi təmin edilmişdir.

Eyni zamanda ekoloji təhlükəsizliyin təmin edilməsinin xüsusiliyi və vacibliyi nəzərə alınmaqla ötən müddət ərzində prokurorluq orqanları tərəfindən digər dövlət qurumlarının, elm-təhsil müəssisələrinin, vətəndaş cəmiyyəti institutlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri də cəlb olunmaqla sağlam və təmiz ətraf mühit naminə mövcud risklərin minimuma endirilməsi qarşıda duran vəzifələrdən biri hesab edilmişdir.

Bu baxımdan cari ilin iyun ayının 24-də Xankəndi şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə "Ətraf mühitin gücləndirilməsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda keçirilmiş elmi-praktiki konfransda imzalanmış memorandumla Azərbaycan Respublikası Baş Prokurorluğu, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti ilə birlikdə "Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq-mühafizə tədbirləri-ECOLEAD" layihəsinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Vahid istiqamətdə fəaliyyət göstərəcək peşəkarlar üçün formalaşan ECOLEAD platforması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında münaqişədən sonrakı ekoloji problemlərin daha yaxşı həlli üçün tədqiqat ehtiyaclarını, ekoloji pozuntuların qarşısının alınması və həllinə maraqlı tərəflərin cəlb edilməsini, ekoloji sahədə peşəkarlararası dialoqun təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Hesab edirik ki, bu cür layihələrin həyata keçirilməsi davamlı olmaqla yaşıllıqların qorunmasına, qeyd edilən sahədə vətəndaşlarımızın maarifləndirilməsinə və ətraf mühitin mühafizəsi sahəsində mövcud olan problemlərin həlli istiqamətində öz müsbət töhfəsini vermiş olacaqdır.



### Beynəlxalq əməkdaşlığın genişləndirilməsi böyük önəm daşıyır

*Mötəbər konfrans çərçivəsində prokurorluq tərəfindən xüsusi sessiyanın təşkili planlaşdırılır*

Tarixi hədəflərimizi reallığa çevirən yeni dövrün yeni lideri cənab İlham Əliyevin praqmatik xarakteri ilə səciyyələnən xarici siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmlənməsinə, milli dövlətçilik maraqlarının ləyaqətlə qorunması mənafeyinə xidmət göstərir.

Sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq iti fəhmi və sistemli analiz qabiliyyəti ilə ölkəmizin beynəlxalq gündəliyini peşəkarlıqla müəyyən edən dövlət başçısının zərgər dəqiqliyi ilə hesablanmış uzaqgörən addımlarının nəticəsidir ki, ölkəmiz yekdilliklə bəşəriyyəti narahat edən ən vacib məsələlərdən biri olan qlobal iqlim siyasətində yeni dönüş nöqtəsini hədəfləyən COP sammitinə evsahibliyi edəcək ölkə seçilmişdir.

Qürurverici haldır ki, COP-29 sədrliyinin dövlət qurumlarına münasibətdə təsdiq etdiyi yan tədbirlər çərçivəsində 15 noyabr tarixində Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə birgə beynəlxalq təşkilatların, eləcə də xarici ölkələrin prokurorluq orqanlarının rəhbər vəzifəli şəxslərinin, o cümlədən ölkəmizin aidiyyəti dövlət orqanları, aparıcı ali təhsil, elm ocaqları və geniş hüquq ictimaiyyətinin iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda tədbir təşkil ediləcəkdir.

İnanırıq ki, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələlərinin həllində prokurorluq orqanlarının əməkdaşlığına töhfə verəcək tədbir iqlim dəyişikliyi ilə mübarizə sahəsində beynəlxalq təşəbbüslərə təkan verəcəkdir.

Bu xüsusda qeyd olunmalıdır ki, regionumuzun ekosisteminə təhdid sayılan halların, o cümlədən Araz və onun qolu olan Oxçuçayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi qarşısının alınması istiqamətində Ermənistan ərazisində qanunsuz fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin dayandırılması məqsədilə Baş Prokurorluq tərəfindən beynəlxalq təşkilatlarla, habelə xarici ölkələrin ekoloji nəzarət qurumları ilə əməkdaşlıq aparılmaqla zəruri tədbirlər həyata keçirilməkdədir.

Əlavə olaraq bildirək ki, iqlim dəyişikliyinin qlobal xarakterli təhlükəsi nəzərə alınmaqla Azərbaycan prokurorluğu Xəzər dənizinin hövzəsində də ekoloji stabilliyin qorunması naminə Xəzəryanı ölkələrin prokurorluq orqanları ilə əməkdaşlığın yeni platformasını təşviq etmişdir.

Belə ki, cari il aprel ayının 4-də "Xəzər dənizinin akvatoriyasında ekoloji təhdidlər və hüquqpozmalar: dəniz mühitinin qorunması üçün prokurorluq orqanlarının strategiyaları" mövzusunda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının yüksəksəviyyəli nümayəndə heyətlərinin beştərəfli görüşü bu sahədə regional əməkdaşlığın inkişafına rəvac vermişdir.

Ətraf mühitin mühafizəsini təmin etmək, təbiəti qorumaq, onun keşiyində durmaq, Prezident cənab İlham Əliyevin "Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar" şüarının reallaşdırılması hər bir prokurorluq əməkdaşının həm vəzifə, həm də gələcək nəsillər naminə vətəndaşlıq borcudur və əminəm ki, hər bir prokurorluq əməkdaşı bu istiqamətdə üzərinə düşən vəzifələri layiqincə icra edəcəkdir.

### Ölkəmiz dünya prokurorlarının ən böyük tədbirlərindən birinə evsahibliyi edir

Cinayətkarlığın yeni formalarının qarşısının dövlətlərin birgə səyi nəticəsində alınması istiqamətində beynəlxalq tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilərək ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə əməkdaşlıq cari ildə də diqqətdə saxlanılmış, qarşılıqlı münasibətlərin qurulması və inkişafı prokurorluğun insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinin əsasını təşkil etmişdir.

Bu müddətdə rəhbərlik etdiyim nümayəndə heyətləri Avstriya, Çin, Rusiya, Türkiyə, Tacikistan, Qırğız Respublikalarında işgüzar səfərlərdə olmuş, həmçinin İtaliya, Latviya və Keniyanın baş prokurorlarının, Səudiyyə Ərəbistanı Krallığının, Qazaxıstan və Tacikistan Respublikasının müstəqil antikorrupsiya qurumlarının rəhbərlərinin ölkəmizə işgüzar səfərləri ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratmışdır.

Həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, bu günlərdə Bakı şəhərində Azərbaycan prokurorluğunun inkişaf tarixində ən əlamətdar hadisələrdən biri kimi qeyd olunacaq dünya prokurorlarının yeganə təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və ümumi yığıncağı keçirilir.

İştirakçıların sayına görə əvvəlki konfransları geridə qoyaraq rekord sayda iştirakçının qeydiyyat üçün müraciət etdiyi tədbirə 500-dən artıq iştirakçı qatılmaqla ümumilikdə 91 ölkədən, 10 beynəlxalq təşkilatdan nümayəndələrin, o cümlədən 30-a yaxın ölkənin baş prokurorunun və 30-a yaxın ixtisaslaşmış qurumların rəhbər şəxslərinin bilavasitə tədbirdə iştirak etmələri nəinki prokurorluq, o cümlədən ölkəmizin hüquq-mühafizə orqanlarının tarixində mühüm tədbir kimi xatırlanacaqdır.

Cari ilin 29 sentyabr tarixindən başlayaraq bir neçə gündür davam edən tədbirdə prokurorluq üçün mühüm əhəmiyyət kəsb edən məsələlər, o cümlədən ekoloji və rəqəmsal cinayətlər barədə müxtəlif dövlətlərin prokurorluq orqanlarının əməkdaşlarının, hüquqşünasların birgə iştirakı ilə müzakirələr aparılır.

Bu tədbir həm də hüquq sahəsində müsbət nəticələrin əldə edilməsi, ölkəmizlə digər ölkələrin prokurorluq orqanları arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, habelə paytaxt və regionlarımızın tanıdılması Azərbaycanın təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edilməlidir ki, konfransın sonuncu günündə - 2 oktyabr tarixdə ekoloji cinayətlərlə mübarizəyə həsr olunmuş "Planetimizi qorumaq: ekoloji cinayətlərə prokuror yanaşmaları" mövzusunda da xüsusi sessiyanın keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirdə ətraf mühitin qorunması sahəsində hüquq-mühafizə orqanlarının fəaliyyəti, ekoloji cinayətlərə qarşı həm daxili, həm də beynəlxalq səviyyədə birgə mübarizənin aparılması, bu istiqamətdə regional və qlobal əməkdaşlığa təşəbbüsün göstərilməsi, milli və beynəlxalq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində geniş və səmərəli müzakirələr aparılacaqdır.

Bu gün yaranmasının 106-cı ilini qeyd etdiyimiz Azərbaycan prokurorluğu hər bir dövlət təsisatı kimi ölkəmizin yeni inkişaf mərhələsində, irimiqyaslı və qlobal əhəmiyyətə malik hədəflərin həyata keçirilməsi istiqamətində böyük məsuliyyət və peşəkarlıqla fəaliyyətini qurmaq üçün bütün qüvvələrini səfərbər edir.

*Prokurorluq işçiləri vətəninə və xalqına sədaqətlə xidmət etməyə, respublikamızın dayanıqlı və davamlı inkişafı naminə öz üzərlərinə düşən vəzifələrin həyata keçirilməsində fəal iştirak etməklə prokurorluğun fəaliyyətinin daha da müasirləşdirilməsinə, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılmasına, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin daha da möhkəmlənməsində yeni nailiyyətlər üçün çalışacaqlar.*

**Kamran ƏLİYEV,**
***Azərbaycan Respublikasının baş prokuroru,***
***I dərəcəli dövlət ədliyyə müşaviri,***
***Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti,***
***hüquq elmləri üzrə fəlsəfə doktoru***

# Bakıda Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimi keçirilib

Sentyabrın 29-da Bakı Konqres Mərkəzində dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimi keçirilib.



Mərasimdə müxtəlif ölkələrin baş prokurorları və digər yüksəkvəzifəli şəxsləri də daxil olmaqla, 95 ölkədən 465-dən artıq şəxs iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti oxuyub.

Baş prokuror K.Əliyev iclasda çıxış edərək böyük coğrafiyanı əhatə edən Beynəlxalq Prokurorlar Assosiasiyasına üzv dövlətlərin hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. O, dostluq təməlləri əsasında keçiriləcək assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının regional təhlükəsizliyə, cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizəyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Azərbaycan prokurorluğunun keçdiyi inkişaf yolu barədə tədbir iştirakçılarına məlumat verən K.Əliyev diqqətə çatdırıb ki, ölkə prokurorluğunun müstəqil dövlətçiliyimizin bərpasından sonrakı fəaliyyətinin ən mühüm xüsusiyyəti onun müstəqil dövlət təsisatı kimi formalaşması, öz funksiyalarını tamamilə yeni - siyasi plüralizm və bazar iqtisadiyyatı, insan və vətəndaş azadlığı prinsipləri əsasında qurulan hüquqi dövlətin, demokratik cəmiyyətin tələbləri ilə uzlaşdırması olub.

Qeyd edilib ki, Azərbaycan prokurorluğunun hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə prinsipləri ilə fəaliyyət göstərməklə beynəlxalq standartlara uyğun dövlət təsisatı kimi formalaşması Ulu Öndər Heydər Əliyev və onun siyasi kursunun layiqli varisi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olub. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan baş prokuror tədbirin Azərbaycanda təşkil edilməsi böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Həmçinin COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksəksəviyyəli plenar iclas təşkil olunacağını qeyd edib.

Daha sonra çıxış edən Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin baş prokuroru Juan Bautista Mahiques 29-cu İllik Konfransın və Ümumi Yığıncağın fəaliyyətə başlaması münasibətilə iştirakçıları təbrik edib, uğurlar arzulayıb.

Juan Bautista Mahiques qonaqpərvərliyə, assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə baş prokuror K.Əliyevə təşəkkür edib və Beynəlxalq Prokurorlar Assosiasiyasının gələcək strategiyası, hədəfləri barədə məlumat verib.

Qeyd edək ki, tədbir zamanı müxtəlif plenar və xüsusi maraq sessiyaları, işçi qrup və şəbəkə iclasları, habelə ikitərəfli və çoxtərəfli görüşlər təşkil olunacaq. Həmçinin müxtəlif ölkələri təmsil edən prokurorlar və hüquqşünaslar arasında peşəkar əlaqələrin qurulması üçün bir sıra sosial tədbirlər də nəzərdə tutulub.

Əsas mövzusu "Hüququn aliliyinin qorunmasında prokurorun rolu" olacaq konfransda cinayət təqibində rəqəmsal sübutlar və süni intellektin cinayət prosesində istifadəsi, cinayət mühakimə sistemində şəffaflığın artırılması və ictimai etimadın gücləndirilməsi, gender əsaslı zorakılıq cinayətlərinin istintaqı, iqtisadi cinayətkarlıq və əmlakın bərpası və bu kimi digər altmövzular üzrə çıxışlar olacaq.

Tədbir çərçivəsində Beynəlxalq Prokurorlar Assosiasiyasının strategiyası və gələcək fəaliyyəti ilə bağlı bir sıra mühüm əhəmiyyətli qərarların qəbulu nəzərdə tutulub.

BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağı oktyabrın 2-dək davam edəcək.

# Prezidentin tarixi çıxışı qayıdışımızın carçısıdır

Qərbi Azərbaycan İcması bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının mərkəzində böyük el sənətkarı, Azərbaycan poeziyasının dühası və Göyçə aşıq məktəbinin parlaq siması olan Aşıq Ələsgərin (1821-1926) abidəsinin açılışını edib və mərasimdə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların qayıdış məsələsi ilə bağlı tarixi çıxış edib.

Qeyd edək ki, Aşıq Ələsgər Qərbi Azərbaycanda - Azərbaycan aşıq sənətinin tarixi mərkəzlərindən olan Göyçə mahalında yaşayıb-yaradıb, misilsiz bədii-estetik ustalığı ilə xalqımızın ruhunu əks etdirən əsərlər yaradıb və ozan-aşıq sənətinin minillik ənənələrinə yeni nəfəs verib.

1918-ci ildə Ermənistan daşnak hökuməti tərəfindən bütün Göyçə əhalisinin qovulması və onların 1921-ci ilə qədər qaçqın olaraq yaşamaq məcburiyyətində qalmalarına və sonralar Ermənistan SSR hökumətinin güclü təzyiqlərinə rəğmən, Göyçə aşıq məktəbi sovet dövründə inkişaf edirdi. Bu işlərdə Ümummilli Lider Heydər Əliyevin əvəzedilməz xidmətləri olub. Məhz onun şəxsi səyləri ilə Aşıq Ələsgərin 150 illik yubileyi SSRİ-də dövlət səviyyəsində keçirilib və aşığın doğma Ağkilsə kəndində qəbirüstü abidəsi ucaldılıb. Təəssüf ki, Ermənistan hökuməti oradakı əksər Azərbaycan mədəni irs nümunələri kimi, bu abidəni də dağıdıb.

Vaxtilə azərbaycanlıların çoxluq təşkil etdikləri, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin mərkəzlərindən olan Qərbi Azərbaycan mahallarında etnik təmizləmə nəticəsində bir nəfər də azərbaycanlı qalmayıb, oradakı Azərbaycan mədəni irsi ciddi zərər görüb.

Prezident İlham Əliyevin Aşıq Ələsgər irsini yaxından himayə etməsi həm də Qərbi Azərbaycana qayıdış məsələsinə, Ermənistanın işğal, etnik təmizləmə və irqi ayrı-seçkilik siyasətindən zərər görmüş Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə diqqətinin göstəricisidir. Prezidentin çıxışından da göründüyü kimi, Aşıq Ələsgərin qaçqınlıqla keçmiş ağrılı həyat yoluna dərindən bələd olması onun qərbi azərbaycanlıların taleyinə nə qədər yaxından qayğı göstərdiyinin təzahürüdür.

Prezident İlham Əliyevin sərəncamı ilə Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə aşıq sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsi Aşıq Ələsgər yaradıcılığının ümumbəşəri dəyər kimi əbədiləşdirilməsində əvəzsiz rol oynayıb.

Dövlətimizin başçısının qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdacağına olan inamını ifadə etməsi bizim üçün böyük motivasiya mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurun azad edilməsi, orada Böyük qayıdış proqramının həyata keçirilməsi bizim də doğma yurdlarımıza qayıdacağımız günün uzaqda olmadığını göstərir.

Biz Qərbi Azərbaycan İcması olaraq Prezident İlham Əliyevin ədalətin bərpasına, xalqımızın birliyinə və əyilməz ruhuna yönəlmiş çağırışlarını tam dəstəkləyirik. Doğma torpaqlarımıza sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə qayıdışımızın təmin edilməsi üçün dövlətimizin atacağı bütün addımlarda bundan sonra fəal şəkildə iştirak edəcəyik.

Prezidentin ifadə etdiyi kimi, Aşıq Ələsgərin həyat yolu bütün qərbi azərbaycanlıların taleyini təcəssüm edir. Sözə, sənətə, humanist dəyərlərə bağlı olan, vətənpərvər şair öz doğma yurdundan qaçqın düşsə də, ruhdan düşməmiş, 100 yaşında öz yurduna qayıdaraq yandırılmış evini bərpa etmiş və ömrünün son günlərinə qədər orada yaşamışdır. Biz ruhdan düşmürük, necə ki, 1921-ci ildə qayıtdıq, yenə də qayıdacağıq.

Aşıq Ələsgərin irsinə və bütövlükdə Azərbaycan aşıq sənətinə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bir daha dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, milli birlik və iradəmiz ilə tarixin ədalətsiz səhifələrini çevirərək doğma yurdlarımıza qayıdacağıq.

Prezidentin çıxışını yekunlaşdırdığı sözlər bizim qayıdışımızın carçısı olan tarixi ifadələrdir: "Bu gün qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq eyni zamanda bu abidə bütün qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Biz qərbi azərbaycanlılar qayıdışımıza inanırıq!"

# Laçın və İrpen şəhərləri qardaşlaşıb

Ukraynanın nümayəndə heyəti Laçın şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi Azərbaycanın Laçın və Ukraynanın İrpen şəhərlərinin qardaşlaşması haqqında memorandumun imzalanması olub.

Görüşdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və nümayəndəliyin məsul şəxsləri, Ukrayna nümayəndə heyətinin üzvləri - İrpen şəhərinin meri Oleksandr Markuşin və Ukraynanın ölkəmizdəki səfirinin birinci katibi Andrey Onişenko iştirak ediblər.

Memorandum Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və İrpen şəhərinin meri Oleksandr Markuşin tərəfindən imzalanıb. Memoranduma əsasən, tərəflər tarixi-mədəni irsin qorunması, şəhərsalma, ətraf mühitin mühafizəsi, abadlıq, ictimai nəqliyyat, informasiya texnologiyaları, enerji səmərəliliyi, tullantıların idarə edilməsi, gənclər və idman sahələrində məlumat və təcrübə mübadiləsi üzrə əməkdaşlıq edəcəklər.

Daha sonra Laçın şəhəri ilə tanışlıq olub. Qonaqlar kitabxananı, Laçın şəhər 2 saylı tam orta məktəbi, "Hoçazfilm"in çəkiliş pavilyonunu, "Gilabi" yaradıcılıq mərkəzini və Sus kənd uşaq bağçasını ziyarət ediblər.

İrpen şəhərinin meri Oleksandr Markuşin açıqlamasında deyib: "Bu gün xüsusi gündür. Ukrayna ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələrimizi rəsmi olaraq möhkəmləndiririk. Bu gün biz münasibətlərimizin inkişafında yeni səhifə açırıq. Qarşıda mədəni mübadilələr, uşaqlarımızın sağlamlığının yaxşılaşdırılması, iqtisadi təşəbbüslər və s. kimi çoxlu birgə layihələr olacaq. Biz bir-birimizdən öyrənib, gələcək təcrübə mübadiləsinə, o cümlədən icmalar üçün birgə səmərəli işlərin qurulmasına töhfə verəcəyik".

O həmçinin qeyd edib ki, Azərbaycan xalqının dəstəyi Ukrayna üçün əvəzsizdir: "Azərbaycanın mövqeyinə və qardaş köməyinə görə hər zaman minnətdar olacağıq".

Markuşin xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi tapşırığına əsasən, Azərbaycan hökuməti SOCAR ilə birlikdə İrpenin mühüm binalarını, xüsusən akademik Zərifə Əliyeva adına 12 saylı orta məktəbi, şəhər klinikasını qısa müddətdə bərpa edib.

Bugünkü görüşün böyük əhəmiyyət daşıdığını bildirən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov isə deyib: "Bu gün Laçın və İrpen şəhərləri arasında qardaşlaşma əlaqələri üzrə memorandum imzalandı. Memorandum şəhərlərimizin tarixi, mədəniyyəti və həyatı ilə yaxından tanışlıq, həm də dostluq əlaqəsinin yaradılması üçün nəzərdə tutulub. Bu münasibətlər nəinki beynəlxalq müstəvidə, həmçinin şəhərlərin icmaları arasında iqtisadi, mədəni, turizm və təhsil sahələrində də əlaqələrin inkişafına töhfə verəcək. Şəhərlərarası münasibətlərin həyata keçirilməsi çərçivəsində nümayəndə heyətlərinin idman və bədii kollektivlərinin səfərləri, şəhərlərin həyatını əks etdirən fotosərgilərin nümayiş etdirilməsi nəzərdə tutulur. Həmçinin şəhər idarəetməsi təcrübəsi sahəsində fikir mübadiləsi aparılacaq. İrpen şəhəri Ukraynanın paytaxtı Kiyevdən 5 kilometr aralıda yerləşən, 100 min əhalisi olan bir şəhərdir. Mer bildirdi ki, 100 minlik əhalinin 3 mindən çoxu Azərbaycan icmasının üzvüdür. Əlbəttə ki, gələcəkdə qardaşlıq əlaqələrinin inkişafında bizim icmanın rolu da müstəsna əhəmiyyətə malik olacaq".

Laçın şəhərinin Böyük qayıdış proqramı əsasında yenidən qurulduğunu diqqətə çatdıran Məsim Məmmədov əlavə edib: "Laçında bərpa işləri sürətlə həyata keçirilir. Burada əhalinin köçürülməsi və şəhərlərin qurulması zamanı perspektivlər öyrənilir. Eyni zamanda Laçının və işğaldan azad olunan digər ərazilərin tanınması, burada görülən işlərin təbliği üçün məlumatlandırmanın beynəlxalq səviyyədə aparılması çox vacibdir. Biz bunu ardıcıl şəkildə həyata keçirəcəyik".

# Azərbaycan Respublikasının baş prokuroru bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Gürcüstanın baş prokuroru Giorgi Qabitaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kamran Əliyev ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən mehriban dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu vurğulamaqla, bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyini qeyd edib.

Baş prokuror Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Tbilisidə təşkil olunan 27-ci İllik Konfransı və Ümumi Yığıncağında iştirakı zamanı keçirilmiş görüşlərin iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına müsbət təsir etdiyini söyləyib. Bildirib ki, BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakıda keçirilməsi mövcud münasibətləri daha da gücləndirəcək.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan baş prokuror həmin konfransın dünyanın qorunmasına, qlobal problemlərin müzakirəsi və həlli yollarının araşdırılmasına böyük töhfə verəcəyini bildirib.

Gürcüstanın baş prokuroru Giorgi Qabitaşvili prokurorluq orqanlarında həyata keçirilən islahatları və iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Daha sonra Kamran Əliyev Gürcüstanın baş prokurorunu cari il noyabrın 15-də BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi ilə birlikdə (UNODC) Bakıda keçiriləcək yüksəksəviyyəli plenar iclasına dəvət edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

❖ ❖ ❖

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının baş prokuroru Şeyx Səud bin Abdullah Əl-Mucibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Kamran Əliyev xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğunu vurğulayıb. O, bu sahədə dövlət başçıları İlham Əliyevin və Kral Salman bin Əbdül-Əziz Əl Səudun misilsiz xidmətlərini qeyd edib.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışan Kamran Əliyev həmin konfransın dövlətlərarası yeni əməkdaşlıq formatlarının yaradılmasında mühüm rol oynayacağını diqqətə çatdırıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağında Səudiyyə Ərəbistanı Krallığının iştirakından məmnunluğunu ifadə edən Kamran Əliyev bunun əlaqələrimizin inkişafına böyük töhfə verəcəyini bildirib.

Daha sonra baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının baş prokurorunu noyabrın 15-də Baş Prokurorluq və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən Bakıda təşkil olunacaq "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusundakı yüksəksəviyyəli plenar sessiyaya dəvət edib.

Şeyx Səud bin Abdullah Əl-Mucib rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Sonda ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə əməkdaşlığın inkişaf etdirilməsi haqqında anlaşma memorandumu imzalanıb.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

❖ ❖ ❖

Bu gün Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, baş prokuror Kamran Əliyev Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının xalqlarımızın ortaq milli, mənəvi dəyərlərindən və ənənələrindən güc almaqla dünya ölkələrinə bir nümunə olduğunu vurğulayıb, ölkə başçılarının ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Türk Dövlətləri Təşkilatina üzv Dövlətlərin Baş Prokurorları Şurasının ölkələrimiz arasında möhkəm təməllər üzərində qurulmuş, dərin tarixi köklərə əsaslanan yüksəksəviyyəli dostluq və qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verməklə əməkdaşlığın keyfiyyətcə yeni, qarşılıqlı əlverişli olan səviyyəyə yüksəlməsinə xidmət etdiyinə, müasir çağırışlara adekvat şəkildə, sistemli yanaşmalar əsasında cavab verməklə cinayətkarlığa qarşı mübarizənin, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə mühüm töhfə olduğuna diqqət çəkən Kamran Əliyev təşkilatın fəaliyyətində Türkiyənin önəmli yer aldığını vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan baş prokuror Kamran Əliyev COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksəksəviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Türkiyənin prokurorluq orqanları ilə möhkəm əlaqələrin qurulduğuna nəzər salan Kamran Əliyev təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Türkiyə Ali Məhkəməsinin baş prokuroru dostluq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyindən əminliyini ifadə edib, iki qardaş ölkənin prokurorluq orqanlarında mövcud əlaqələri yüksək qiymətləndirib.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

❖ ❖ ❖

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) paytaxtda keçirilən 29-cu İllik Konfransında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Bu gün Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kral Prokurorluq Xidmətinin rəhbəri cənab Stifen Parkinsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Birləşmiş Krallığın Azərbaycanın strateji tərəfdaşı olduğunu qeyd edən Kamran Əliyev ölkələrarası tarixi ticarət və mədəni əlaqələrin mövcudluğuna nəzər salıb.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi -UNODC ilə birgə noyabrın 15-də "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksəksəviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Kral Prokurorluq Xidmətinin rəhbəri səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Sülh razılaşmasının təxminən 80 faizə qədəri hazırdır

## Ermənistan Azərbaycanın bütün şərtləri ilə hesablaşmalıdır

"2020-ci ildə torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra sülh gündəliyini başladan da, bu gün irəli aparan da Azərbaycandır. Bu, təkcə keçmiş münaqişə subyektləri arasında münasibətlərin normallaşdırılması deyil, bütövlükdə Cənubi Qafqaz regionunda dayanıqlı sülhün, təhlükəsizliyin təmin olunması, səmərəli əməkdaşlıq sisteminin qurulması kontekstində formalaşdırılıb və irəli aparılır".



Bu sözləri "Azərbaycan" qəzetinə Sosial Tədqiqatlar Mərkəzinin direktor müavini Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, Azərbaycan regionda kommunikasiyaların açılması, iqtisadi layihələrin həyata keçirilməsi, regional təhlükəsizlik sisteminin qurulması istiqamətində səmimi mövqe nümayiş etdirib və praktiki addımlar atır. Ermənistanla Azərbaycan arasında sülh sənədinin mübadiləsi həyata keçirilir. Bir sıra maddələr üzrə razılaşma var, tərəflərin məlumatına əsasən, bu, təxminən 80 faiz təşkil edir. Amma nəzərə almaq lazımdır ki, Azərbaycanın prinsipial olaraq təqdim etdiyi şərtlərin təmin edilməsi dayanıqlı sülh üçün çox vacibdir. "Sonuncu təmaslardan, yəni BMT Baş Assambleyasının 79-cu toplantısı çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ Dövlət katibi Blinkenin vasitəçiliyi ilə görüşündən sonra sərgilənən mövqe ondan ibarət oldu ki, Ermənistan Konstitusiyasında dəyişiklik edilməli, Azərbaycana olan ərazi iddiaları ortadan qaldırılmalıdır. Paşinyan da bildirdi ki, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi Konstitusiya ilə uyğunsuzluq təşkil edəcəksə, o zaman Konstitusiyaya dəyişiklik ola bilər. Bunun konstruktiv yanaşma olduğunu deyə bilərik, amma Ermənistanın praktiki addımları sülh gündəliyində nə qədər səmimi olduğunu göstərəcək. Bir çox halda Paşinyanın mövqeyində sərt transformasiyalara yol verdiyini müşahidə etmişik".

Nyu Yorkda XİN rəhbərləri arasında baş tutan görüş zamanı ölkələr arasında münasibətlərin qurulmasının və sülh gündəliyinin irəli aparılmasının vacibliyinin bir daha vurğulandığını xatırladan politoloq bildirib ki, indiki şərtlər çərçivəsində bu deklorativ bəyanat kimi qalmayacaq. Çünki sülh gündəliyini irəli aparan Azərbaycanın iradəsi və güc mövqeyidir. Ermənistan bu gün sülh ritorikasına bir çox halda istinad edirsə, bu da Azərbaycanın gücü ilə yaranmış siyasi reallığın təsiri altında baş verir. Çünki 2020-ci ildən ötən müddətdə gördük ki, Ermənistan imitasiyalarla məşğuldur, proseslər üzərindən manipulyasiyalara üstünlük verir, amma Azərbaycanın iradəsi ilə bir çox məsələlərlə razılaşmaq məcburiyyətində qalır. Ortada artıq əldə olunmuş nəticə var. Azərbaycan və Ermənistan sərhədlərinin 12 kilometrə qədərinin delimitasiya və demarkasiyası həyata keçirilib. Bu prosesin də Ermənistan Konstitusiyasına uyğunluğu Ermənistan tərəfindən təsdiqlənib.

E.Mirbəşiroğlu hesab edir ki, bu da sülh gündəliyinin vacib elementlərindən biridir: "Ən vacib məqamlardan biri də beynəlxalq müstəvidə formalaşan mövqelərdir, yəni bu gün Azərbaycanın vacib bildiyi prinsipial şərtlər əsasında sülh sazişinin imzalanması Cənubi Qafqazda gələcək vəziyyəti təyin edəcək. Hazırda Ermənistandan istifadə edərək regionda vəziyyətin gərginləşdirilməsi istiqamətində aşkar cəhdlər müşahidə olunur. Ermənistan sistemli olaraq silahlandırılır, bu proses dayanmayıb. Bəzi dövlətlər Ermənistanı revanşa həvəsləndirirlər, ona görə sülh məsələsinə olduqca ehtiyatlı yanaşmaq, "Ermənistanın sülh ritorikası nəyə xidmət edir?" sualına cavab tapmaq lazımdır. Bu, Ermənistana zaman qazandırmaq üçün əldə olunacaq sülh sazişi olacaqsa, bütövlükdə region üçün çox təhlükəlidir. Bütün hallarda Azərbaycanın irəli sürdüyü prinsipial, ədalətli şərtlər əsasında sülh müqaviləsi imzalanacaqsa, bütövlükdə Cənubi Qafqaz regionu bundan qazanacaq. Açıq məsələlərin qalacağı halda Ermənistan müəyyən müddət sonra aldığı dəstəklə vəziyyəti dəyişməyə çalışacaq".

Ekspert qeyd edib ki, hazırda qlobal güclərin kəskin qarşıdurması fonunda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi gedir. Cənubi Qafqaz regionu ABŞ-nin rəhbərliyi altında Qərbin geosiyasi rəqibi Rusiyaya qarşı plasdarm kimi nəzərdən keçirilir. Ermənistan da alət rolunda özünü təsdiq edir. Gürcüstanda oktyabrın 26-da keçiriləcək parlament seçkilərinə Qərb də ciddi hazırlaşır. Bu seçkinin nəticəsində Gürcüstanda rejim dəyişikliyi etmək istəyirlər. Belə olacağı təqdirdə regionda güc balansı tamamilə Qərbin xeyrinə dəyişər, proseslərə onların təsir imkanları arta bilər. Ona görə region ölkələri proseslərə diqqətli və həssas yanaşmalıdırlar ki, kənar müdaxilələr zəif olsun. Belə olan halda imzalanacaq sülh müqaviləsi regionun gələcəyi üçün yaxşı nəticələr vəd edə bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Şəhidlərin xanımlarının təhsilinə dəstək proqramı ilə bağlı görüş keçirilib

Sentyabrın 30-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Azərbaycan Banklar Assosiasiyası ilə birgə həyata keçirdiyi "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramının icrası məqsədilə Vətən müharibəsi şəhidlərinin cari ildə ali məktəblərə qəbul olmuş həyat yoldaşları ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətin şəhid ailələrinə diqqət və qayğısından bəhs edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova tədbirin layihə çərçivəsində artıq 2-ci dəfə keçirildiyini bildirib. "Komitənin təşkilatçılığı, Azərbaycan Banklar Assosiasiyasının dəstəyi ilə baş tutan tədbir şəhid ailələrinin cəmiyyətdəki iştirakçılığının daha da artırılması məqsədi daşıyır", - deyə komitə sədri əlavə edib. Sonra layihənin ilk tədbirindən fraqmentlərin əks olunduğu videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Banklar Assosiasiyasının Prezidenti Zakir Nuriyev bildirib ki, bütün bankların yekdil qərarı ilə təsdiqlənən və dəstəklənən bu layihə assosiasiyanın ən uğurlu işlərindən biri hesab olunur. "İnanırıq ki, bundan sonra da bu uğurlu layihə silsiləli



xarakter alacaq və biz bu nəcib işin davamlılığından irəli gələn bütün digər məsələlərdə də öz dəstəyimizi davam etdirəcəyik", - deyə assosiasiyanın prezidenti vurğulayıb. Daha sonra şəhidlərin xanımları çıxış edərək göstərilən diqqətə və qayğıya görə dövlətimizin başçısına, bu cür şəraiti yaratdığı üçün təşkilatçılara təşəkkürlərini bildiriblər.

Sonda xanımlara sertifikat və mükafatlar təqdim edilib.

# Qərb Ermənistanı yenə maliyyələşdirdi

Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdədir. Bütün bunların fonunda Moskva ilə İrəvan arasında vəziyyət daha da kritik həddə alıb. Yəni Ermənistanda anti-Rusiya ab-havası zaman keçdikcə daha da güclənir.

İrəvan düşdüyü vəziyyətə görə bir çox xarici dövləti, o cümlədən də əsas müttəfiqi olan Rusiyanı ittiham edir. Elə buna görədir ki, bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən daha da sərt addımlar atır.

Göründüyü qədərilə rəsmi İrəvan hərbi müttəfiqi Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvənir. Hər halda Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyi görünür.

Bunun nəticəsi olaraq ötən gün rəsmi şəkildə məlum olub ki, ABŞ hökuməti Ermənistana 20 milyon dollar verəcək. "Joğovurd" nəşrinin yazdığına görə, bu, böyük məbləğ kimi görünsə də, Nikol Paşinyan hakimiyyətinin uğursuzluqları fonunda azalmaqdadır. Qeyd edilib ki, ABŞ Dövlət katibi Entoni Blinken və USAID-in rəhbəri Samanta Pauer ABŞ-nin Ermənistana 20 milyon 600 min dollar yardım edəcəyini açıqlayıblar. 20 milyon 600 min dollar təqribən 7 milyard 981 milyon drama ekvivalentdir.

Nəşr yazıb ki, ABŞ-nin Ermənistana bu qədər yardım göndərməsi yaxşı haldır, lakin hökumətin bu pulları necə istifadə edəcəyi çox şübhəlidir: "Ermənistan hökumətinin qərarına əsasən, 2019-cu ilin may ayında "Ermənistanın Dövlət Maraqları Fondu" QSC (ANİF) yaradılıb, onun



layihələri üçün Ermənistanın dövlət büdcəsindən 4 milyard 734 milyon dram, təxminən 13 milyon dollar investisiya qoyulub. Yəni dövlət külli miqdarda sərmayə qoyub, bu, uğursuz olub və 5 ildən sonra dövlət öhdəliklərini ödəmək üçün ANİF-ə təmənnasız olaraq daha 1 milyard 700 milyon dram ayırıb. Başqa sözlə, ANİF 13 milyon dollar sərmayə ilə açıldıqdan sonra 5 il faydasız fəaliyyət göstərib və daha 5 milyon dollar ayrılıb ki, ləğv olunsun".

Politoloq Suren Surenyants isə qeyd edib ki, Paşinyan hər sözü ilə həyasızlığın hədd-hüdudunun olmadığını təsdiq edir. O, 44 günlük müharibənin 4-cü ildönümünün yalnız ertəsi günü Yerablurda olub. Lakin o, susmaq əvəzinə yenidən danışıb. "Ölən erməni əsgərləri bizim üçün yeni imkan yaratdı", - deyə Paşinyan burada belə bir cümlə işlədib.

Deyəsən, revanşist politoloqu özündən çıxaran elə bu sözlər olub. "Bu səfehin (Paşinyanı nəzərdə tutur - red.) xəstə təxəyyülünə görə, fəlakət gətirən müharibə ermənilərə dövlətlərinə sahib olmaq üçün yeni imkan verib. Eyni məntiqlə Paşinyan 27 sentyabrı, 9 noyabrı Ermənistan dövlətçiliyinin bərpası günləri elan etməlidir. Reallıq isə tamamilə bunun əksidir: Paşinyan müharibədən əvvəlki siyasəti ilə savaşı bizim qapıya gətirdi və Ermənistanın subyektivliyinin ləğvinə səbəb oldu", - deyə Surenyants qeyd edib.

Bu arada erməni analitik Karen Naumyan deyib ki, Paşinyan hakimiyyəti Rusiyaya qarşı atdığı addımlarla Moskvaya qara bir "quş" qoydu, digər tərəfdən də dünyaya Ermənistanı Qərbə doğru çevirdiklərini göstərdi. Ermənistan vasitəsilə regiona nüfuz edən Qərb Rusiyanı sıxışdırıb çıxarmaq kimi geosiyasi məqsədlərini həyata keçirir: "Bəs İrəvanın xarici siyasətini Moskvadan Brüsselə dəyişməsində günahkar kimdir? 44 günlük müharibədə və ondan sonrakı dövrdə Ermənistana xəyanət edən yalnız Rusiyanın özüdür. Kreml Azərbaycan və Türkiyəni razı salmaq üçün regionda yeganə müttəfiqinin maraqlarını heçə saydı. Doğrudanmı, Moskva bu qədər sadəlövh idi ki, İrəvanda heç bir əks tədbir görülməyəcəyini düşünürdü? Hətta küncə sıxışdırılmış siçan vəhşi heyvana çevrilir. Təbii ki, Rusiyanın hələ də Ermənistana qarşı çoxlu təzyiq rıçaqları var".

Beləliklə, Ermənistanda hazırda baş verənlər bu ölkəni daha sürətlə hərtərəfli iflasa doğru aparır. Çünki İrəvan xarici himayədarları olmadan yaşaya bilmək iqtidarında deyil.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## 1 ZƏFƏR gündəliyi

## 1 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını həyata keçirir"

### Düşmənin 200 tankı, 228 artilleriyası sıradan çıxarılıb

Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21:30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib.

Bu müddət ərzində düşmənin ümumi itkiləri belə olub:

* 200-dək tank və digər zirehli texnika;
* 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri;
* 30 ədəd hava hücumundan müdafiə vasitələri;
* 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
* 5 silah-sursat anbarı;
* 110-dan artıq avtomobil texnikası;
* 1 ədəd "S-300" zenit-raket kompleksi.

### Qarşı tərəfin hərbi kolonları darmadağın edilib

Oktyabrın 1-də Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları uğurla davam edib.

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən darmadağın olunub.

Səhər saatlarından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulub.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfindən tələb edib ki, ölkəmizin ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Əks təqdirdə adekvat cavab tədbirləri görüləcək.

### Erməni əsgəri ön xəttə təminat aparmaqdan boyun qaçırıb



Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verib.

İşğal olunmuş ərazilərimizdə yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşib. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhədəki hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina ediblər.

### Düşmənin bir neçə alayına atəş zərbələri endirilib

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut qəsəbəsindəki Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayın infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilib.

Azərbaycan Ordusunun bölmələri düşmənin daha bir neçə hava hücumundan müdafiə vasitələrini və yaylım atəşli reaktiv sistemlərini məhv edib.

### İlham Əliyev Aleksandr Lukaşenkoya həqiqətləri açıqlayıb



Belarus Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə telefonla zəng edərək təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb.

İlham Əliyev belaruslu həmkarına məlumat verərək bildirib ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını həyata keçirir.

Dövlət başçısı əlavə edib ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulub ki, bu da qəti şəkildə yolverilməzdir. Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




# Azərbaycanın enerji keçidinin regional xarakterli növbəti mərhələsi

**Xəzər-Qara dəniz-Avropa, Naxçıvan üzərindən Azərbaycan-Türkiyə-Avropa, həmçinin Mərkəzi Asiya-Azərbaycan-Avropa "yaşıl enerji" dəhlizləri ilkin mərhələdə 5 giqavat bərpaolunan enerjinin ixracını təmin edəcək. Regional əhəmiyyətli bu strateji layihələrlə ölkəmizin "yaşıl enerji" tədarükçüsünə transformasiyası həyata keçiriləcək.**

Azərbaycandan Avropaya uzanacaq "yaşıl enerji" dəhlizləri barədə indi tez-tez bəhs olunur. Məlumdur ki, hələ 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin isə, üstəlik, özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Dənizin dibi ilə uzanacaq 1100 kilometrlik "yaşıl dəhliz" belə layihələrdən biridir.

Adətən bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Layihənin icrasına doğru mühüm addımlar atılır. Keçən ay Rumıniya paytaxtında sözügedən sazişin icrası məqsədilə 8-ci Nazirlər-Rəhbər Komitənin iclasının keçirilməsi də deyilənləri təsdiqləyir. Buxarestdə keçirilən tədbirdə layihənin CESI şirkəti tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmasının (TİƏ) cari vəziyyəti, birgə müəssisənin təsis edilməsi ilə bağlı görülən işlər, "yaşıl enerji" dəhlizinin fiber-optik komponenti, həmçinin Bolqarıstanın layihəyə inteqrasiyası imkanlarına və digər istiqamətlərə dair məsələlər müzakirə edilib. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatı isə cari ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində nəzərdə tutulur.

Qazaxıstan və Özbəkistan da özlərinin istehsal etdikləri bərpaolunan enerjini Azərbaycan üzərindən bu dəhlizə qoşmaq qərarındadırlar. Xatırladaq ki, keçən ilin noyabr ayında Bakıda, İqtisadiyyat Nazirliyində keçirilən üçtərəfli görüşdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivləri müzakirə edilmişdi. Tədbirdə tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıq üzrə razılığa gəlmişlər.

Azərbaycanın, Özbəkistanın və Qazaxıstanın iqtisadiyyat və energetika nazirlərinin iştirakı ilə keçirilən həmin görüşdə qeyd edilmişdi ki, üç ölkənin bərpaolunan enerjinin inkişafı və ixracı ilə bağlı yürütdüyü siyasət Azərbaycana Mərkəzi Asiya ölkələrindən Avropaya elektrik enerjisinin təchizi üzrə körpü rolunu oynamağa imkan verir. Görüşün nəticəsi kimi Birgə Kommünike imzalanmışdı.

Hazırda Mərkəzi Asiya ölkələri arasında enerji sahəsində əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli formatda səmərəli şəkildə davam edir. İki ay əvvəl



Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin Astanadakı görüşü buna aydın misaldır. Bu, Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüş idi. Həmin tədbirdə bildirilib ki, enerji resurslarının dünya bazarlarına çatdırılmasını şaxələndirən alternativ nəqliyyat dəhlizlərinin və marşrutlarının artan əhəmiyyəti Azərbaycanın Mərkəzi Asiya və Avropa arasında birləşdirici rolunu gücləndirib, enerji dəhlizlərinin potensialının bölüşdürülməsi imkanlarını aktual edib. "Yaşıl enerji"nin Mərkəzi Asiyadan Azərbaycana və daha sonra Avropaya ixracı məqsədilə Azərbaycan, Qazaxıstan və Özbəkistanın energetika sistemlərinin birləşdirilməsi layihəsinin həyata keçirilməsi çərçivəsində yaxşı dinamika və tərəqqi var. Tərəflər layihənin həyata keçirilməsi üçün ilkin texniki-iqtisadi əsaslandırmanın aparılması üzrə texniki tapşırığı təsdiq ediblər. Birgə işçi qrupu Bakıda tərəflərin milli enerji şirkətlərinin iştirakı ilə birgə müəssisənin yaradılması barədə razılığa gəlib.

Nazirlər bu dəfə də ölkələrin bərpaolunan enerji sahəsində potensialını vurğulayaraq, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı layihəsinə qoşulmağa hazır olduqlarını bir daha qeyd ediblər. Bu kontekstdə Azərbaycanın enerji sisteminə inteqrasiya edəndən sonra Qara dənizin dibi ilə yüksəkgərginlikli xətlərin çəkilməsi imkanlarının araşdırılmasına maraq ifadə olunub. Onlar həmçinin təsdiqləyiblər ki, "yaşıl enerji"nin ötürülməsi layihəsinin inkişafı iştirakçı ölkələrin iqtisadiyyatları və enerji sistemləri arasında əlaqələri daha da gücləndirəcək, milli enerji sənayelərinə yeni təkan verəcək.

Naxçıvan MR-in özünün "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib. Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir.

İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan Azərbaycan-Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün nəzərdə tutulmuşdu. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyir. 2022-ci ildə Türkiyədə keçirilən ikinci foruma növbəti dəfə Naxçıvan evsahibliyi etdi.

2023-cü ilin sentyabr ayında keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumunda vurğulandı ki, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq Naxçıvanı "yaşıl enerji"nin istehsalçısı, ixracatçısı mənbəyinə və tranzit məkanına çevirəcək. Bu xüsusda "yaşıl enerji" layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırıldı.

Hazırda davam edən Bakı İqlim Fəaliyyəti Həftəsinin də əsas mövzularından biri "yaşıl enerji" dəhlizləridir. Tədbirdə vurğulanıb ki, Azərbaycanın enerji keçidinin regional xarakterli növbəti mərhələsi Xəzər dənizinin nəhəng enerji potensialının işlənməsinə və yeni enerji dəhlizlərinin qurulmasına əsaslanır. Energetika naziri Pərviz Şahbazov bununla bağlı deyib: "Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizinin texniki iqtisadi əsaslandırmasının ilkin nəticələri COP29 çərçivəsində elan ediləcək. Həmçinin "Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş"in tezliklə imzalanması nəzərdə tutulur. Həmin dəhlizlər regional və qitələrarası bağlantılar qurmaqla təchizatın təhlükəsizliyinə və təmiz enerjiyə keçidə müsbət təsirlərini göstərəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qazaxıstan Milli Bankı ilə əməkdaşlığın dərinləşdirilməsi imkanları nəzərdən keçirilib

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Kazımov Qazaxıstan Milli Bankının sədri Timur Süleymenovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüş zamanı hər iki qurum tərəfindən pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi və rəqəmsal ödəniş ekosisteminin genişləndirilməsi istiqamətində həyata keçirilən təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılıb.

Maliyyə sektoru üçün aktual olan məsələlərin müzakirəsindən sonra qurumlar arasında mövcud qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi imkanları nəzərdən keçirilib.

# Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığın perspektivləri müzakirə olunub

**Bakıda təşkil olunan Karbon Qiymətqoyma üzrə Beynəlxalq Forum çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli Beynəlxalq Valyuta Fondunun (BVF) Gəlirlər Administrasiyası Baş İdarəsinin müavini Margaret Kotton ilə görüşüb.**

DVX-dən AZƏRTAC-a verilən məlumata görə, görüşdə ölkəmiz tərəfindən BVF ilə əlaqələrin genişləndirilməsinə önəm verildiyi və təşkilatın biznes mühitinin təkmilləşdirilməsi, dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi istiqamətində reallaşdırılan layihələrə dəstəyinin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) birgə təşkilatçılığı ilə keçirilən forumun əhəmiyyəti və mövzunun aktuallığı xüsusi vurğulanıb. Bildirilib ki, "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi, aşağı karbonlu biznes həllərinə keçidin sürətləndirilməsi ölkələrin əsas fəaliyyət istiqamətini təşkil edir. Bu xüsusda iqtisadi aktivliyin sabit saxlanılması, ədalətli yanaşmanın tətbiqi və biznes mühitinin dəstəklənməsi şəraitində dekarbonizasiyanın həyata keçirilməsi beynəlxalq ictimaiyyəti maraqlandıran məsələlərdəndir.

Qeyd edilib ki, karbon qiymətqoyması və karbon vergisinin tətbiqi mexanizmləri ciddi araşdırılmalıdır. DVX rəisi Azərbaycanın vergi orqanları tərəfindən bu istiqamətdə təhlillər aparıldığını və beynəlxalq təcrübənin öyrənildiyini söyləyib. Tərəflər karbonsuzlaşma prosesində fiskal alətlərin rolunu dəyərləndirməklə bağlı fikirlərini bölüşüblər.

Görüşdə dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı, biznes mühitinin təkmilləşdirilməsi, dövlət-özəl tərəfdaşlığının təşviqi istiqamətində vergi alətlərinin tətbiqi üzrə BVF ilə tərəfdaşlığın gücləndirilməsi imkanları müzakirə edilib. Tərəflər əməkdaşlığın prioritet istiqamətləri, vergi orqanlarının beynəlxalq əlaqələrinin təşviqi sahəsində görülən işlər və perspektiv layihələr barədə fikirlərini bölüşüblər.

# "Azəristiliktəchizat" qazanxanaları modernləşdirir

**"Azəristiliktəchizat" ASC istismar müddəti başa çatmış qazanxanaların yenidən qurulması işlərinə başlayıb.**

İlkin mərhələdə 4 qazanxananın - Yasamal rayonunun Tağı Şahbazi küçəsində 141 saylı, Səbail rayonunun Badamdar qəsəbəsi, T.Məmmadov, 8 küçəsində 505 saylı, Nizami rayonunun Ə.Vəliyev, 3 küçəsində 537 saylı, Nərimanov rayonunun Kaveroçkin, 34 küçəsində 72 saylı qazanxananın bərpası, o cümlədən, 1 qazanxananın Səbail rayonu Azərbaycan prospekti, 3 ünvanında qazanxananın zirzəmidən çıxarılaraq layihə əsasında yenidən qurulması nəzərdə tutulur.

Layihə çərçivəsində köhnə tipli qazanxanaların tam sökülməsi, istismar müddətini başa vuran avadanlıqların çıxarılması, habelə yeni qazanxana binasının inşası və müasir tipli avadanlıqlarla təchizatı işləri icra ediləcək.

Yeni tikiləcək qazanxanalar ən müasir standartlara cavab verəcək və enerji səmərəliliyinin artırılmasına, etibarlı və ekoloji cəhətdən təmiz enerjinin istehsalına, istehlakçıların keyfiyyətli istilik və isti su xidmətləri ilə təmin edilməsinə imkan verəcək. Artıq işlərin icrasına başlanılıb və 2024-2025-ci illər istilik mövsümündə istismara verilməsi nəzərdə tutulur.

Bu qazanxanalardan ümumilikdə 52 yaşayış binası, 2392 mənzil, 4 məktəb, 1 uşaq bağçası və 26 digər sosial obyekt istiliklə təmin ediləcək.

# M2 magistralın 130 km-lik hissəsinin genişləndirilməsi işləri yekunlaşır

**"Böyük İpək yolu"nun tərkib hissəsi olan Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 130 km-lik Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 hərəkət zolağına genişləndirilməsi layihəsinin icrası yekunlaşır.**

Layihəyə əsasən, torpaq yatağının ümumi eni 27,5 metrdir. Yol hər birinin eni 3,75 metr olmaqla 4 hərəkət zolağından ibarətdir.

Hazırda tikinti işləri magistralın 28 km-lik Qazaxbəyli-Gürcüstan sərhədi hissəsində davam edir.

Ümumilikdə layihəyə əsasən, torpaq yatağının tikintisi yekunlaşıb. Hazırda alt keçidlərin və körpülərin inşası işləri aparılır. Buna paralel olaraq asfalt-beton örtüyünün döşənməsi işləri də icra olunur.

Ümumi tikinti işlərinin 95 faizi yekunlaşıb.

Uzunluğu 130,15 kilometr olan Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunun dörd hərəkət zolağına genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Bundan başqa, yolun iri yaşayış məntəqələrindən kənar keçməsi əhalinin və yoldan istifadə edən sürücülərin təhlükəsizliyi baxımından önəmlidir. Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır.



Layihə tam reallaşdırıldıqdan sonra Şərqdən Qərbə və əks istiqamətdə "Böyük İpək yolu"nun Azərbaycandan keçən hissəsi olan bu yol Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq.




# Bakı İqlim Fəaliyyəti Həftəsi başlayıb









Sentyabrın 30-da ilk Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW) başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirin açılış mərasimində COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev, COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, iqtisadiyyat naziri Mikayıl Cabbarov, energetika naziri Pərviz Şahbazov çıxış ediblər. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun (IPCC) sədri Cim Skinin və Almaniyanın Bonn şəhərinin meri Katya Dyornerin videomüraciəti dinlənilib.

Tədbir panel sessiyalarla davam edib, müxtəlif mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

Həmçinin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında "Azərbaycanda "yaşıl bina"ların inkişaf konsepsiyasına dair yol xəritəsinin hazırlanması üçün əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanıb.

Memorandumu Dövlət Komitəsinin sədri Anar Quliyev və Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı nümayəndəsi Aliyə Əzimova imzalayıblar.

Qeyd edək ki, oktyabrın 4-dək davam edəcək tədbir adaptasiya olunan iqlim həllərini araşdırmaq və bu həll variantlarının tətbiqini sürətləndirmək üçün bütün dünyadan 700 nəfər insanı, o cümlədən dayanıqlılıq üzrə müxtəlif ekspert və siyasətçiləri, eləcə də özəl sektor və vətəndaş cəmiyyətinin liderlərini bir araya gətirir. Dünya ictimaiyyəti cari ilin noyabrında Bakıda keçiriləcək COP29 tədbirinə hazırlaşarkən, Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW) iqlim təqvimində mühüm an kimi tarixə düşəcək.

BMT Baş Assambleyasının 79-cu sessiyasından və Nyu York İqlim Həftəsindən sonra keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi COP Sədrliklərinin Üçlüyü tərəfindən elan edilmiş 1,5°C hədəfinə aparan yol xəritəsi çərçivəsində həyata keçirilən işlərin daha geniş vüsət almasını təmin edəcək və COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə dəstək olacaq.

London İqlim Fəaliyyəti Həftəsi ilə tərəfdaşlıq çərçivəsində keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi iqlim həllərinin inkişaf etdirilməsi məsələsində beynəlxalq əməkdaşlıq və sinerjini daha da gücləndirəcək.

Tədbir hazırda aktual olan iqlim probleminə qabaqlayıcı yanaşmanı ehtiva edir.

Bakı İqlim Fəaliyyəti Həftəsi COP29 ərəfəsində Azərbaycanın regional liderliyini nümayiş etdirir və milli "yaşıl keçid" təşəbbüslərində aparıcı rol oynamaq öhdəliyini vurğulayır. Həmin toplantı yerli və regional kontekstlərə əsaslanan "yaşıl keçid"lə bağlı müzakirələrin təşviqi üçün mühüm dönüş nöqtəsi olacaq. Bundan əlavə, Bakı İqlim Fəaliyyəti Həftəsi dayanıqlı inkişaf və iqlim fəaliyyəti öhdəliyinə sadiq olan təşkilatlarla yeni əməkdaşlıq əlaqələri, eləcə də investisiya və tərəfdaşlıqlar çərçivəsində Azərbaycanın keçid dövrünü dəstəkləməyə çalışacaq.

Bakı İqlim Fəaliyyəti Həftəsi əsas diqqəti yerli, milli və beynəlxalq həmkarlarla tərəfdaşlıq çərçivəsində təqdim olunan mühüm mövzulara yönəldəcək. Builki tədbirin əsas mövzuları "Enerji keçidi", "Şəhərlər/Urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və Orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar"dır. Həftənin birinci yarısında (sentyabrın 30-dan oktyabrın 2-dək) dövlət qurumları, elmi dairələr və özəl sektor nümayəndələrinin iştirakı ilə iqlim həlləri nümayiş etdiriləcək və yüksəksəviyyəli beynəlxalq konfrans keçiriləcək. Həftənin ikinci yarısında (oktyabrın 3-4-də) Bakının zəngin mədəni irsinə müraciət etməklə ölkənin keçid prosesi ilə yaxından tanış olmaq üçün elm, təhsil, incəsənət və mədəniyyət töhfələrinə diqqət yetiriləcək və gəzinti, müzakirə, eləcə də sərgilər kimi maraqlı tədbirlər keçiriləcək. Bundan əlavə, həftənin ikinci yarısı əsas öhdəliklərin hazırlanması və imzalanması, eləcə də iqlim fəaliyyəti və əməkdaşlıqla bağlı öhdəliklərin daha da gücləndirilməsi üçün platforma rolunu oynayacaq. Bakı İqlim Fəaliyyəti Həftəsi həm də ümummilli iqlim dialoqunun başlanğıcı olacaq və tədricən rəsmi qurumları və vətəndaş cəmiyyətini səfərbər etməyə çalışacaq. Həftə ərzində şəhərin bir sıra məkanlarında həm ictimai, həm də fərdi tədbirlərin keçirilməsi nəzərdə tutulur. Rəsmi proqramın əsas məkanlarına Heydər Əliyev Mərkəzi, Daş Salnamə Muzeyi, ADA Universiteti və digər yerlər daxildirlər.

# COP29 - müzakirə üçün 5 təklif

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın sədrliyi ilə noyabr ayında Bakıda keçiriləcək. Bu faktın ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərin təşkilində zəngin təcrübəsinin qlobal səviyyədə qəbul edilməsinin göstəricisidir. Planetin gələcəyi üçün əhəmiyyətli qlobal problemlərin müzakirəsi və həlli baxımından COP29-un tarixə düşəcəyinə inanırıq.



Ətraf mühitə atılan tullantıların miqdarının olduqca çox olması və ətraf mühitə dəyən zərərin təhlükəli həddə çatması, demək olar ki, hamı tərəfindən qəbul edilir. Amma problemin hamı tərəfindən qəbul edilməsi həmin problemin həlli üçün kifayət deyil.

Eləcə də hamı tərəfindən qəbul edilir ki, ətraf mühitlə bağlı mövcud problemlərin həlli böyük həcmdə investisiyalar tələb edir. Amma həqiqət həm də odur ki, ətraf mühit problemlərinin yalnız investisiya alətləri ilə həlli mümkünsüzdür. Bu baxımdan bir sıra məsələlərə yeni baxış tələb olunur. Bakıda keçiriləcək COP29 ciddi müzakirələrlə zəngin olacaq və inanıram ki, yeni baxışlar ortaya qoyacaq.

COP29-da müzakirə üçün əhəmiyyət kəsb edəcəyini nəzərə alaraq bəzi düşüncələri paylaşmağı faydalı hesab etdik.

Əvvəla, ətraf mühit problemlərinin həlli və "yaşıl iqtisadiyyat"a keçid iqtisadiyyatda dövlətin rolunun azaldılması yox, artırılmasını tələb edir. Başqa sözlə, liberal dəyərlə əsaslanan mövcud iqtisadi inkişaf modeli əvvəllər müşahidə olunmayan ciddi çağırışlarla üz-üzədir. Liberal iqtisadi inkişaf modelinin öz ömrünü başa vurduğunu da söyləmək hələlik tezdir. Amma alternativ yanaşmalara artıq ciddi zərurət görünür. Alternativ yanaşmada dövlətin rolunun artacağı daha çox gözləniləndir. Ona görə də qlobal iqtisadiyyatda rəqabətə də yeni baxışın formalaşması tələb olunur. Çünki qlobal iqtisadiyyatda rəqabətdə dövlət rolu daha da güclənəcək. Ona görə də qlobal iqtisadiyyatda güclü dövlətlərin daha da güclənməsinə və zəif dövlətlərin daha da zəifləməsinə yol verməmək üçün yeni şəraitdə dövlətlərin "yaşıl iqtisadiyyat"da, o cümlədən "yaşıl rəqabət"də roluna dair çərçivəni, yeni vahid oyun qaydalarını müəyyən etmək üçün COP29 çərçivəsində Bakı bu müzakirələrə təşəbbüs göstərə və evsahibliyi edə bilər.

İkincisi, bəli, "yaşıl iqtisadiyyat"ı stimullaşdırmaq və yeni "yaşıl iş" yerləri yaratmaq üçün dövlətlər daha çox öz sərhədləri çərçivəsində dəstək verməyə çalışırlar. Problem ondadır ki, bir sıra hallarda beynəlxalq ticarət qaydaları belə milli dəstəyi, yumşaq desək, "alqışlamır". Həmin beynəlxalq ticarət qaydaları da liberal iqtisadi inkişaf modelinin məhsulu olduğu səbəbindən başqa cür də ola bilməz. Bu fikirləri təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, həm də digər qlobal təşkilatlara (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı) şamil etmək olar. Bu gün qlobal təşkilatların "yaşıl iqtisadiyyat" konsepsiyasının tələblərinə tam cavab vermədiyi görünür və həmin təşkilatların transformasiya edilməsi və yaxud tamamilə yenilərinin yaradılması zəruri görünür. İstər transformasiya, istərsə də tamamilə yeni qlobal təşkilatların yaradılması inkişaf etməkdə olan ölkələrin maraqları nəzərə alınmaqla həyata keçirilməlidir. Bu baxımdan Qoşulmama Hərəkatı Ölkələrinin rolu artırıla və COP29 çərçivəsində onların adından təşəbbüslər irəli sürülə bilər.

Üçüncüsü, "yaşıl iqtisadiyyat"a keçid və bununla bağlı təklif edilən ətraf mühit siyasətinin iqtisadi artıma təsiri də müzakirə predmetidir. Ən azından ilkin dövrdə bu təsirin daha çox mənfi olacağını ehtimal etmək olar. Beləliklə "yaşıl iqtisadiyyat"a keçidin təmin edilməsi və nəticədə azalan iqtisadi artım arasında da çətin seçim edilməsi ciddi müzakirələr tələb edir. İqtisadi artım tempinin azaldılması nəticəsində inkişaf etməkdə olan ölkələrin üzləşdiyi ziyanın inkişaf etmiş ölkələr tərəfindən kompensasiya edilməsi məsələsi də müzakirə oluna bilər.

Dördüncüsü, əsas problemlərdən biri ətraf mühitə atıla bilən tullantıların maksimal həcminin müəyyən edilməməsidir. Başqa sözlə, söhbət planetin gələcəyinə təhlükə yaradan tullantıların maksimal həcmindən gedir. Yəni ətraf mühitə atılan tullantıların hansı həcmindən sonra planetin gələcəyi baxımdan "geriyə saymaq" başlayır. İqtisadiyyatda hər zaman doğru olan yeganə düzgün cavabın olmadığı bəllidir. Amma buna baxmayaraq, ətraf mühitə atılan tullantıların maksimal həcmi nə qədər olmalıdır sualına yeganə düzgün cavabın tapılması vacibdir. Noyabr ayında keçiriləcək COP29-da tullantıların maksimal həcminin müəyyən edilməsi baxımından Bakı həm də qlobal mərkəzə çevrilmək şansına malikdir. Bu məqsədlə COP29-da Bakıda fəaliyyət göstərəcək və dünyanın tanınmış siyasət adamlarından ibarət Qlobal Komissiyanın və elm adamlarından ibarət Qlobal Ətraf Mühit Tədqiqat Mərkəzinin yaradılması məsələsi COP29-un gündəliyinə daxil edilə bilər.

Beşincisi, COP29 "təhsilin yaşıllaşdırılması" ilə bağlı qlobal təşəbbüs üçün də əla fürsətdir və bu baxımdan Yaşıl Təhsil Modelinin də müzakirəsi faydalı olar.

*Ədalət MURADOV,*
*UNEC-in rektoru*

# KOB-ların Rəqəmsallaşması Proqramının açılış mərasimi keçirilib



Bakıda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) iştirakı ilə KOB-ların Rəqəmsallaşması Proqramının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə bir sıra dövlət qurumlarının nümayəndələri, eləcə də KOB sahibkarları iştirak ediblər.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov tədbiri giriş nitqi ilə açaraq iştirakçıları ölkədə rəqəmsallaşma siyasəti çərçivəsində hökumət, cəmiyyət və biznes istiqamətlərində həyata keçirilən fəaliyyətin icmalı ilə tanış edib. KOB-ların Rəqəmsallaşması Proqramının mahiyyəti və əhəmiyyətinə toxunan S.Məmmədov bildirib ki, proqramın başlıca məqsədi rəqəmsallaşmanı təşviq etməklə kiçik və orta biznesləri dəstəkləmək, onların effektivliyini, rəqabət qabiliyyətini və bazar əhatəsini genişləndirməkdir. KOB-ların rəqəmsal alətlər, strategiyalar və qabaqcıl təcrübələr haqqında maarifləndirilməsi məqsədilə seminarlar və təlim proqramları təşkil olunacaq, eyni zamanda "CTO-as-a-Service" vauçerləri kimi təşəbbüslərlə bacarıqların artırılması dəstəklənəcək.

O, həmçinin bu proqramın "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda yer alan kiçik və orta sahibkarlığın inkişafının yeni və daha səmərəli stimullarla təşviq edilməsi məqsədinə xidmət etdiyini də xüsusilə vurğulayıb.

Daha sonra KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edib. O qeyd edib ki, rəqəmsallaşmanın ümumilikdə KOB-ların yeni bazarlara çıxışı, əməliyyat mühitinin səmərəliliyi və işçi heyəti ilə təmas üsullarının inkişafı baxımından böyük potensialı var: "Rəqəmsal həllər KOB-ların daha asanlıqla qlobal dəyər zəncirinə inteqrasiya etməsinə, innovativ fəaliyyətini yüksəltməsinə və məhsuldarlığın artmasına köməklik edə bilər".

Sonra KOB-ların Rəqəmsallaşdırılması Proqramının rəhbəri Elturan Əhmədbəyli əvvəlcə proqramın reallaşdırıldığı 4 mərhələ haqqında təqdimatla çıxış edib "Hal-hazırda proqramın 3-cü mərhələsi icra edilir. Layihə rəhbərinin sözlərinə görə, sözügedən proqram bazar araşdırması, dünya təcrübəsi və yerli KOB-ların təhlili, təchizatçılarla görüşlər və proqrama daxil olan layihələrin icrası mərhələlərindən ibarətdir". Daha sonra o, KOB-ların Rəqəmsallaşma Proqramının "digiMATE" və "DIGI30" kimi layihələri haqqında ətraflı məlumat verib.

Son olaraq, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov çıxış edib. O, öz nitqində rəqəmsal iqtisadiyyatın inkişafına dəstək çərçivəsində həyata keçirilən təşəbbüslərdən danışıb.

Qeyd edək ki, KOB-ların Rəqəmsallaşma Proqramı onların rəqəmsal alətlərdən və qabaqcıl texnologiyalardan faydalanaraq, rəqabət qabiliyyətini artırmaq və bazar imkanlarını genişləndirmək məqsədilə hazırlanıb. Bu proqram çərçivəsində kiçik və orta bizneslər üçün maarifləndirici seminar və təlimlərin təşkil olunması, eyni zamanda "CTO-as-a-Service" kimi təşəbbüslər vasitəsilə bacarıqların artırılmasına dəstək göstərilməsi nəzərdə tutulur. Layihə çərçivəsində KOB-ların rəqəmsal yetkinliyi qiymətləndirilərək ehtiyaclarına uyğun fərdi yol xəritələri hazırlanacaq. Rəqəmsallaşma təşəbbüslərinin qrantlar və digər maliyyə mexanizmləri ilə dəstəklənməsi də nəzərdə tutulur. KOB-ların rəqəmsal inkişafını sürətləndirmək məqsədilə yaradılmış "digiMATE" platforması artıq 2024-cü ilin avqust ayından etibarən istifadəyə verilib.

# "Qara dənizin yaşıl enerji qovşağı və Avropanın enerji təhlükəsizliyi" adlı elmi-praktik seminar keçirilib




Avstraliya İttifaqının Kanberra şəhərində yerləşən və ölkənin ən qabaqcıl universitetlərindən olan Avstraliya Milli Universitetində Avropa Araşdırmaları Mərkəzi, Azərbaycan, Gürcüstan və Macarıstan səfirliklərinin birgə təşkilatçılığı ilə "Qara dənizin yaşıl enerji qovşağı və Avropanın enerji təhlükəsizliyi" adlı elmi-praktik seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, ekspertlərin, siyasətçilərin və diplomatların iştirak etdiyi tədbirdə bərpaolunan enerji mənbələrinin inkişafı, Avropanın enerji təhlükəsizliyi və "Yaşıl dəhliz" layihəsi, həmçinin qlobal əhəmiyyətli COP29 beynəlxalq tədbir seminarın əsas müzakirə mövzularından olub.

Tədbirdə Avstraliya Milli Universitetinin professoru Endryu Bleykers dünyada gedən "yaşıl transformasiya", Avropa qitəsi və Qafqaz regionu ölkələrinin "yaşıl enerji" potensialı mövzularında xüsusi təqdimatla çıxış edib. Ekspert Azərbaycanın Xəzər hövzəsində günəş və külək enerjisi, Gürcüstanın isə su-elektrik stansiyalarının texniki imkanları haqda auditoriyaya ətraflı məlumat verib.

Daha sonra səfirliyin müvəqqəti işlər vəkili Vaqif Cəfərov, Gürcüstan səfiri Beka Dvali və Macarıstan səfiri Zsolt Csenger-Zalan bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr, "yaşıl iqtisadiyyat"a keçid, perspektivlər, habelə "yaşıl enerji" dəhlizinin yaradılmasında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın mühüm rolu barəsində təqdimatlar ediblər.

Panel müzakirələr zamanı auditoriya tərəfindən verilən suallar əsasında tarixi İpək yolu üzərində yerləşən Cənubi Qafqaz və Mərkəzi Asiya regionun mövcud "yaşıl enerji" potensialı və regionda mövcud investisiya imkanları, habelə Xəzər dənizi üzərindən uzanan müasir Yaşıl Enerji Dəhlizi kimi mövzular ətrafında diskussiyalar aparılıb.

Tədbir Avstraliyanın yerli "Vibe Media" xəbər portalında da işıqlandırılıb.

# COP29 ölkəsi kimi Azərbaycanın dayanıqlı rəqəmsal həlləri həyata keçirməsi önəmlidir

Ölkədə rəqəmsallaşmanın dinamik tempi beynəlxalq reytinqlərdə də öz əksini tapıb. Belə ki, ən son açıqlanan BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi hesabatında Azərbaycan rəqəmsal inkişaf reytinqində tarixi rekorda nail olub. Ölkəmiz 9 pillə irəliləyərək 193 ölkə arasında 74-cü yerə yüksəlib.

AZƏRTAC xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov KOB-ların Rəqəmsallaşması Proqramının açılış mərasimində çıxışı zamanı bildirib.

S.Məmmədov bildirib ki, bununla da Azərbaycan indeksin ən yuxarı mövqelərində "very high EGDI", yəni çox yüksək göstəriciyə sahib olan və inkişaf etmiş ölkələrin də yer aldığı kateqoriyaya daxil olub.

"KOB-ların Rəqəmsallaşması Proqramı"nın icrası da növbəti EGDI hesabatında Azərbaycanın müvafiq göstəricilərinin artmasına öz müsbət təsirini göstərəcək. KOB-larda rəqəmsallaşmanın səviyyəsi artdıqca, onlayn dövlət xidmətlərindən daha çox istifadə ediləcək. Onlayn dövlət xidmətləri isə EGDI indeksinin bir komponentidir. KOB-ların rəqəmsallaşması onlayn dövlət xidmətlərindən istifadənin əhatə dairəsini genişləndirəcək və keyfiyyətini təkmilləşdirəcək. KOB-larda texnologiyadan istifadə səviyyəsi artdıqca, infrastruktur provayderlər tərəfindən daha da təkmilləşdiriləcək. Proqramın təlim komponentləri KOB-ların rəqəmsal bacarıqlarını artıracaq", - deyə S.Məmmədov vurğulayıb.

S.Məmmədov həmçinin onu da qeyd edib ki, COP29 ölkəsi kimi Azərbaycanın dayanıqlı rəqəmsal və innovativ həlləri təşviq edərək həyata keçirməsi önəmlidir: "Xüsusilə rəqəmsal hökumət quruculuğunda Rəqəmsal Sənəd Dövriyyəsi (RSD) alt sisteminin verdiyi imkanlar proseslərin səmərəliliyinin artırılması və ətraf mühitə ziyanın minimuma endirilməsini təmin edir. RSD-dən istifadə etməklə dövlət qurumları arasında aparılan sənəd mübadiləsi nəticəsində aylıq 500 mindən çox vərəqə qənaət edilir. Bununla da sənəd mübadilələrinin səmərəliliyinin artırılması ilə yanaşı, kağızdan istifadə sayı da minimuma endirilir. Bu da ildə 2 minə yaxın ağacın qorunması deməkdir. Dövlət orqanları və tabeli alt qurumlar da nəzərə alınmaqla alt sistemə hazırda 1700-dən çox qurum inteqrasiya olunub".

1 Oktyabr Beynəlxalq Ahıllar Günüdür



# Ömür yolu Ahıllar evindən keçənlər...

## İndi onlara dövlət sahib çıxır

**İnsan ömrü də fəsillər kimidir, yazı da var, qışı da...**
**Amma ömür də fəsillər kimi hər dönəmdə həmişə maraqlıdır…**
**Fəsillər kimi, ömrü də yerli-yataqlı, gərəyində yaşayanlar var, onun vaxtını, vədəsini qarışdıranlar da...**
**Elə bizim də bu dəfə təşrif buyurduğumuz məkanda həyatın hər üzünü görmüş, ağrı-acısını dadmış, taleyindən razı və narazı olan insanlar yaşayır. Dərdləri də fərqlidir, baxışları, duruşları da. Həyat hekayələri də bir-birinə bənzəmir. Amma hamısını bir isti yuva, bir təmənnasız qayğı və məhəbbət, bir xeyirxah güvənc birləşdirir...**
**Ahıllar evindəyik...**

















### Hər bir ahıl ayrıca otaq, tibbi yardım və geyimlə təmin olunur

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin nəzdində olan Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin beşmərtəbəli binasında hazırda 215 sakin məskunlaşıb ki, onların 40-ı yataq xəstəsidir. Yeri gəlmişkən, xidmət müəssisəsinə yalnız 70 yaşından yuxarı ahıllar qəbul edilir.

Bizi müəssisə, sakinlər, işçi heyəti ilə tanış edən müəssisənin direktoru Samirə Mehdiyeva bildirir ki, hər bir ahıl ayrıca otaq, tibbi yardım və geyimlə təmin olunur. Kitabxana, ahılların özünüməşğulluğu, müəyyən əl işləri hazırlamaları üçün emalatxanalar, idman zalı onların istifadəsindədir. Müəssisənin sakinləri bağda əkdikləri güllərə, ağaclara qulluq edirlər, geniş, səliqəli həyətdə gəzintiyə çıxırlar, trenajorlardan istifadə edirlər. Onlar meydançada futbol oynayıb, söhbətgahlarda nərd, şahmat yarışları keçirib fəal həyat tərzi sürürlər.

Mərkəzdə ahılların qidalanmasına da xüsusi diqqət yetirilir. Yeməklər hazır şəkildə gündə 3 dəfə olmaqla müəssisəyə gətirilir. Ahılların hər biri təqaüd alır və istədikləri vaxt mağazaya gedib, ürəkləri istəyəni ala bilir. Çox zaman ehtiyac olmadığı üçün bundan heç istifadə də etmirlər.

### Heydər Əliyev Fondu ahıllar üçün müxtəlif tədbirlər, aksiyalar keçirir

Mərkəzdə yaşayan ahılların asudə vaxtlarının səmərəli keçməsi, darıxmamaları, ən əsası da özlərini cəmiyyətdən təcrid olunmuş hiss etməmələri üçün müxtəlif tədbirlər, gəzintilər, əyləncələr təşkil edilir. Sakinlərə aşpazlıq, toxuma və tikiş kursları, yoqa dərsləri, müxtəlif peşə təlimləri keçirilir.

Samirə Mehdiyevanın sözlərinə görə, sakinlər dövlət qayğısını daim hiss edirlər. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tərəfindən həyata keçirilən humanist layihələr ahıl vətəndaşları da əhatə edir. Fondun dəstəyi ilə ahıllara xidmət edən müxtəlif aksiyalar keçirilir. Leyla xanım Əliyeva tez-tez Ahıllar evinə gəlir, buranın sakinləri ilə görüşür, hər birini ayrı-ayrı tanıyır, onları dinləyir. Bu, insanlara çox böyük mənəvi dəstək olur, onlarda sevinc, fərəh hissi yaradır.

Bu yaxınlarda maraqlı bir təşəbbüs də gerçəkləşdirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin 1 saylı Uşaq evi sosial xidmət müəssisəsinin sakinlərindən 7 nəfər uşaq bu il birinci sinfə gedib. Uşaq evinin bu azyaşlı sakinlərini sosial xidmət müəssisəsində yaşayan ahıllar müşayiət edərək məktəbə aparıblar. Bu, valideyn, nənə-baba qayğısından məhrum olan uşaqlara təsəvvüredilməz hədiyyə olub. Həmin gün nəvə, övlad həsrəti çəkən ahıllar üçün unudulmaz ana çevrilib.

### Ahıllar evinin fəalları

Ahıllar evində ilk həmsöhbətimiz müəssisənin sakinlərindən Həbib Qənbərov oldu. 76 yaşlı Həbib kişi 18 ildir ki, burada yaşayır. Beş övladı olsa da, heç biriylə əlaqə saxlamır. Stolüstü oyunları çox sevən, insanlarla rahat ünsiyyət qurmağı bacaran Həbib dayı gözəl səsi ilə də eşidənləri valeh edir.

O, mütəmadi olaraq müəllimləri ilə mərkəzə gələn şagirdlərin sevimli həmsöhbətidir. Onlar Həbib dayının ifa etdiyi mahnıları xüsusi zövqlə dinləyirlər. Mərkəzdəki şəraitdən ağızdolusu danışan ağsaqqal deyir ki, burada qidalanmadan tutmuş asudə vaxtın səmərəli keçirilməsinə qədər hər şey ürəyincədir. İndi də həvəslə Ahıllar gününə hazırlaşırlar. Bu önəmli gün üçün yeni tamaşa səhnələşdiriblər. Elə biz Həbib dayı ilə görüşəndə yenicə məşqdən çıxmışdı.

Yayın əvvəllərində sosial xidmət müəssisəsinin 7 sakini Bakıda keçirilən "Gimnastika hamı üçün" növü üzrə ikinci beynəlxalq "Challenge" turnirində iştirak ediblər. "70-ci illərin gəncləri" komandasının üzvlərindən biri mərkəzin bəlkə də ən fəalı 78 yaşlı Validə Həsənovadır. O, 800-ə yaxın iştirakçı arasında ən yaşlı gimnast mükafatı ilə təltif edilib.

İki oğlu olan Validə xanım deyir ki, övladları Rusiyada yaşayırlar: "Mütəmadi əlaqə saxlayırlar. Deyirlər, gəl yanımıza, bizimlə yaşa. Mən ildə bir neçə dəfə gedib onları görsəm də, Vətənimdən kənarda qala bilmirəm. Üstəlik, burada hər nazımız çəkilir, yaşıdlarımla vaxt keçirirəm, sağlamlığım da qaydasındadır".

Ahıllar evində sakinlərin sayı qədər həyat hekayələri də var. 80 yaşı haqlamış Xanlar Cəmiyev artıq altı ildir mərkəzdə yaşayır. Birinci Qarabağ müharibəsində təcili yardım sürücüsü işləyib: "Füzuli, Şuşa, Laçında xidmət edirdim. O qədər faciələrin şahidi oldum, o qədər cavan əsgərlərin nəşini qucağımda apardım. Həyat yoldaşım rəhmətə gedəndən sonra bura gəldim. Çoxları dedi ki, 4 övladın var, ayıbdır getmə. Dedim mən heç kimə yük ola bilmərəm, üzühörmətli getsəm yaxşıdır". Xanlar dayının adaşı olan nəvəsi ən böyük qürur səbəbidir. O, Zəfər müharibəsində iştirak edib, medala layiq görülüb.

Sakitliyi, təmkini ilə hər kəsdən seçilən Gülarə Axundovanın 83 yaşı var. Həkim ailəsində doğulub, övladı yoxdur. Bir bacısı olub, o, dünyasını dəyişəndən sonra isə tək yaşamaqdan qorxaraq dövlətə sığınıb. Uzun illər Elmlər Akademiyasında işləyən Gülarə xanım deyir ki, onunçün burada ən böyük üstünlüklərdən biri internetə sərbəst çıxışın, hər kəsin mobil telefonunun olmasıdır. Buna görə də dünyanın hər yerindən xəbəri olur, məlumatsız qalmır.

### Onlar daha çox depressiyadan əziyyət çəkirlər

Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində yaşayanların səhhəti daim nəzarətdə saxlanılır, sağlamlıqlarına qayğı göstərilir. Mərkəzdə ilk tibbi yardımın göstərilməsi üçün lazımi imkanlar var. Eyni zamanda dövlət dəstəyi ilə müraciət etdikləri bütün xəstəxanalardan yüksək diqqət görürlər. Müəssisəyə işçilər xüsusi diqqətlə seçilir. Onlar tibbi, psixoloji testlərdən keçəndən sonra işə götürülürlər.

Tibb bacısı Firuzə Eyvazova deyir ki, işinin mahiyyəti həkimin təyinatlarını yerinə yetirmək, hər səhər ümumi yoxlanış etmək, gündə bir neçə dəfə təzyiqlərini ölçməkdən ibarətdir. Sakinlər yaşlı olduğu üçün daha çox ürək-damar və xroniki xəstəliklərdən əziyyət çəkirlər. Sosial xidmətçilər də tibb bacısına kömək edirlər.

Mərkəzdə psixoloq Nərminə Əsədzadənin də üzərinə çox iş düşür. Ahıllar daha çox depressiyadan əziyyət çəkir, özlərini lazımsız, atılmış hiss edirlər. Buna görə də onlarla mütəmadi olaraq fərdi və qrup şəklində söhbətlər aparılır, öz yaşıdları ilə ümumi dil tapması, mərkəzə adaptasiya prosesinin rahat keçməsi üçün psixoloji dəstək göstərilir. Psixoloji terapiyalar yalnız sakinlərlə deyil, həm də işçilərlə aparılır.

Psixoloqun qeyd etdiyi bir məqam xüsusilə diqqətimi çəkdi. Belə ki, müəssisəyə yerləşdirilən ahılların demək olar ki, hamısının qısa bir müddətdən sonra əhvalı düzəlir, sağlamlıqları bərpa olunur. Nərmin xanım bunu ahılların müəssisəyə yerləşdirildikdən sonra artıq gələcəklə bağlı qayğılarının olmaması ilə izah edir. Bu göstərici mərkəzdə humanistlik, insanlıq, inkişaf səviyyəsinin təyini üçün əsas meyardır.

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Bir neçə rayonun sakinləri kardioloji müayinələrdən keçiblər

TƏBİB-in təşəbbüsü, Qarabağ Dirçəliş Fondunun iştirakı ilə Ümumdünya Ürək Gününə həsr olunmuş "Ürəyimiz Qarabağda döyünür" layihəsi çərçivəsində Füzuli Rayon Mərkəzi Xəstəxanasında vətəndaşların kardioloji müayinələri aparılıb.







TƏBİB-dən AZƏRTAC-a bildirilib ki, müayinələr Ağdam-Ağcabədi tibbi ərazi bölməsi üzrə Beyləqan, Füzuli, Ağdam, Ağcabədi, Xocavənd rayonlarının sakinləri üçün təşkil edilib.

"İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi" çərçivəsində təşkil edilən kardioloji müayinələrə ümumilikdə 550-yə yaxın vətəndaş cəlb olunub. Bakı, Sumqayıt və Göyçay şəhərlərində TƏBİB-in tabeli tibb müəssisələrində fəaliyyət göstərən ixtisaslı həkim mütəxəssislər tərəfindən EXO, EKQ, fetal exokardioqrafiya, laborator xidmətlər olmaqla ümumilikdə 5 adda kardioloji xidmət göstərilib.

Müayinələr zamanı daha çox hipertoniya, ekstrasistolik aritmiya, səyirici aritmiya, sinus taxikardiyası, ürək çatışmazlığı, miokard infarktı aşkarlanıb. Müxtəlif sosial qruplardan olan vətəndaşlar arasında həssas əhali qrupuna daxil olan müharibə iştirakçıları və şəhid ailələrinin üzvləri də tibbi müayinələrdə iştirak ediblər.

Müayinələrə cəlb edilənlərdən 17 nəfər şəhid ailəsinin üzvü, 31 nəfər isə qazi olub.

Kardioloji müayinələrdə hamilə qadınlar və yetkinlik yaşına çatmayan şəxslər də iştirak ediblər. Müayinə olunan 40-dan çox uşaqdan 4-də ürək çatışmazlığı aşkarlanıb, 6 hamilə qadın isə dölün ürəyinin inkişafını izləmək üçün fetal exokardioqrafiya müayinələrindən keçib. Xəstəliklərin ağırlaşmış formaları aşkarlanan vətəndaşlar ixtisaslı tibb müəssisələrinə yönləndirilib.

"Ürəyimiz Qarabağda döyünür" layihəsi çərçivəsində həkim-mütəxəssislər tərəfindən vətəndaşlara zəruri tibbi məsləhətlər və maarifləndirici məlumatlar da verilib.

# COVID-19 hələ bitməyib

## Yeni ştam olan XEC-in yoluxduruculuğu sürətlə artır




Ötən il COVID-19 pandemiyasının başa çatdığı elan edilsə də, zaman-zaman virusun müxtəlif subvariantları ortaya çıxır. Onlardan bəziləri qeydə alındığı ölkələrdə müvafiq mübarizə tədbirlərinin başlanmasına rəvac verir, digərləri isə heç bir əhəmiyyət kəsb etmədən yoxa çıxır.

Mütəxəssislər koronavirusun hələ ki, son ştamı olan XEC-in pandemiyanın yeni dalğasına səbəb ola biləcəyindən narahatdırlar. "Omikron" ailəsindən olan subvariant daşıdığı fərqli mutasiyalar sayəsində daha sürətli yayılma qabiliyyətinə malikdir. Bu ştam artıq bəzi Avropa və Asiya ölkələrində, habelə ABŞ-nin 25 ştatında yüzlərlə xəstədə aşkar edilib. Virusun kəskin artımı ilk dəfə iyun ayında Almaniyada müşahidə olunub. Xəstəliyin mövcudluğunu təsdiqləyən ölkələr arasında Sloveniya, Belçika, Niderland, Tayvan, Fransa, İsrail, İtaliya, İsveç, İrlandiya, Böyük Britaniya, Kanada, İspaniya və Danimarka da var. Xəstəliklərə nəzarət və qarşısının alınması mərkəzləri virusun yanvarın ortalarında pik həddə çatacağını proqnozlaşdırırlar.

### Yeni ştamlara yoluxsaq, nə etməliyik?

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-infeksionist Aişə Kərimovanın sözlərinə görə, XEC dünya miqyasında narahatlıq doğuran son subvariantlardan biridir: "Yeni ştama yoluxmuş insanlarda tez-tez boğaz ağrısı, yorğunluq, öskürək, əzələ ağrıları və burun axması kimi simptomlar müşahidə olunur. Digər COVID-19 variantları kimi, XEC də əsasən zəifləmiş immun sisteminə malik şəxslər üçün daha təhlükəlidir. Xüsusilə yaşlılar, şəkərli diabet, ürək-damar, təzyiq, astma kimi xroniki xəstəlikləri olanlar, hamilə qadınlar və peyvənd olunmayanlar bu subvariantdan ciddi təsirlənə bilərlər".

Həkim-infeksionist bildirib ki, insanlar XEC və ya digər ştamlara yoluxduqlarını düşündükdə ən qısa zamanda test olunmalı və nəticəni gözləyərkən özlərini izolyasiya etməlidirlər: "Yoluxma təsdiqləndikdən sonra həkimlə məsləhətləşərək göstərişlərə uyğun müalicə alınmalıdır. Ev şəraitində təcrid olunma qaydalarına əməl etmək lazımdır. Bu dönəmdə kifayət qədər su içmək və istirahət etmək mütləqdir".

### XEC-dən necə qorunaq?

Yeni subvariantların ortaya çıxmasının təbii proses olduğunu söyləyən A.Kərimova deyib ki, əsas qorunma üsulları COVID-19-un ümumi qorunma qaydalarına əsaslanır: "Xüsusən qapalı məkanlarda və sıxlıq olan yerlərdə tibbi maskadan istifadə vacibdir. Əlləri tez-tez yumaq və dezinfeksiya etmək, sosial məsafəni qorumaq, havalandırmanın zəif olduğu qapalı məkanlardan çəkinmək, kütləvi tədbirlərdən mümkün qədər uzaq durmaq lazımdır".

Həkim-infeksionist qeyd edib ki, vaksinasiya COVID-19 və ştamlarına qarşı hələ də ən effektiv üsul olaraq qalır: "Hazırda mövcud koronavirus peyvəndləri XEC variantına qarşı da müəyyən dərəcədə qoruma təmin edir. Bununla yanaşı, peyvəndlər yeni variantlara uyğunlaşdırılır və inkişaf etdirilir. Bu səbəbdən vaksin olunmaq və gücləndirici dozalardan istifadə etmək hər kəs üçün tövsiyə olunur. Yeni ştama yoluxma halına ölkəmizdə rast gəlinməsə də, ehtiyatı əldən vermədən fərdi gigiyena və məsuliyyətli davranış qaydalarına riayət etmək gələcəkdə də mühüm rol oynayacaq".

***Ü.XASPOLADOVA,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 22 aprel (Çərşənbə axşamı günü) tarixli 163-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 21 rəcəbül-mürəccəb sənə 1337.
22 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## BİR PİYALƏ ÇAY

Bakı İctimai Yığıncaq Klubunda nisan (aprel) ayının 24-də "İttihad" firqəsi tərəfindən "Bir piyalə çay" məclisi təşkil olunacaq. Səhnə tamaşası Hacıbəyli Bəradərləri müdiriyyətinin mahir artistləri tərəfindən idarə ediləcək. Məhz bu məclis üçün Qarabağdan məşhur "aşıqlar" daha dəvət olunub. Məclisə yalnız dəvətnaməsi olanlar buraxılacaq. İttifaqən [təsadüfən] dəvətnamə almayan zəvati-möhtərəm [möhtərəm şəxslər] məclisə gəlmək xahişində olsalar, dəvətnaməni Parlaman İdarəsində "İttihad" fraksiyonundan ala bilərlər.

*"İttihad" firqəsi*

## DAĞISTANA İMDAD!

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, "Müsavat" fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

## ELAN

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, aprelin 28-də gündüz saat 1-də Ərzaq Nəzarəti binasında Olqinski küçə "Natsional" mehmanxanasında aşağıda göstərilən miqdar balıqlar hərrac ilə satılacaqdır:

| A) Hissə-hissə: | | |
|---|---|---|
| 1 – Jerex [xəşəm]<br>2 – Sudak [sıf]<br>3 – Şuka [durnabalığı]<br>4 – Leş [çapaq]<br>5 – Sazan [çəki]<br>6 – Som [naqqa]<br>7 – Vobla [külmə] | 2 tara<br>3 tara<br>16 tara<br><br>43 tara<br>169 tara<br>52 tara<br>129 tara | Vəzni təqribən 6,140 put 11 girvənkə |
| B) Seld [siyənək] | 1965 tara | Vəzni təqribən 5413 put |

Göstərilən miqdar balıqlar hamısı bir yerdə və ya seldin hamısı iki partiya və qalanları isə əlahiddə satıla bilər.

Satılan balıqlar Vinner şirkəti zavodunun dondurma anbarlarında (İrəvanski, nömrə 2) saxlanır. Tətil günlərindən başqa hər gün səhər 9-dan 12-yə qədər baxmaq mümkündür.

Hərrac aprelin 28-i gündüz saat birə qədər bağlı paketdə göndərilən bəyannamələrlə olacaqdır. Bəyannamələrdə seldin ayrıca və qalan balıqların da ayrıca put qiyməti göstərilməlidir. Qiymət rəqəmlərlə deyil, hərflərlə yazılmalıdır. Bəyannamə ilə bərabər seld üçün on min manat, qalan balıqlara isə iyirmi min manat zaloq verilməlidir.

Bundan əlavə, bəyannamə verənlər şəxslərini isbat edici sənədlər dəxi təqdim etməlidirlər.

Zaloq nağd pullarla, həmçinin mülki qanunlarda göstərilən qaydalar üzrə əmvali-qeyri-mənqulə də [daşınmaz əmlak da] qəbul olunur. Hərracın təsdiq edilməsi Ticarət, Sənaət və Ərzaq naziri tərəfindən olur.

Tətil günlərindən başqa hər gün saat 11-dən 2-yə qədər Ərzaq Nəzarətində 24 nömrəli otaqdan bu barədə lazım gələn müfəssəl məlumat almaq olar.

*Nazirin baş vəkili: İmza*

## DAĞISTANLI QARDAŞLARIMIZA KÖMƏK!

Hürriyyət və istiqlaliyyət uğrunda qan tökən dağıstanlı qardaşlarımıza kömək etmək üçün Parlamanın Bitərəflər firqəsi tərəfindən könüllü dəstəsi təşkil olunur. Könüllülərə əslihə [silah] və pul veriləcəkdir. Arzu edənlər, Parlaman binasında Bitərəflər fraksiyonu odasında (nömrə 4) şöbə zabiti Saleh bəyə müraciət etməlidirlər.

Gündüz saat 12-dən 2-yə;

Axşam saat 4-dən 6-ya.

## DAĞISTANA İMDAD!

Ey Azərbaycan cavanları! Aylardan bəri hürriyyət və istiqlaliyyəti uğrunda qəhrəmananə çarpışaraq qan tökən dağıstanlı qardaşlarımıza kömək edəlim. Adlarını insan qoyub bir yığın vəhşilər sürüsü təşkil edən canilərin yapmış olduqları zülümlərə bir nəhayət verəlim. Bu gün dağıstanlı qardaşlarımızın hürriyyət və istiqlaliyyətini əllərindən qəsb və onları əsarət zənciri ilə bağlamaq istəyən düşmənlər, yarın da bizim hürriyyət və istiqlaliyyətimizə göz tikərək, bizi də həman aqibətə sövq edəcəkdirlər. Bunun üçün gəlin toplaşalım, silahlanalım dağıstanlı qardaşlarımızın imdadına gedəlim. Ta ki yüz minlərcə şühədamızın [şəhidlərimizin] qanı bahasına istirdad etdiyimiz [qazandığımız] və hənuz tamamı ilə ləzzətyab olammadığımız hürriyyət və istiqlaliyyətimizi əldən qaçırmayaraq, mübarək əcdadımızın əhfadı [nəvələri] olduğumuzu bütün düşmənlərə isbat etdirəlim. Dinini, millətini sevən, vətəninə məhəbbəti olanlar "Bitərəflər" firqəsi tərəfindən təşkil olunan həman könüllü dəstəyə yazılmalıdırlar. Bu firqə tərəfindən könüllülərə tüfəng, patron və pul veriləcəkdir.

*"Bitərəflər" firqəsinin hərbi şöbəsi*

## TELEQRAF XƏBƏRLƏRİ

Böylə bir şayiə vardır ki, Vilson işlərin qurtarmasını Lansinq ilə Hauza və qeyri nümayəndələrə həvalə edərək, iyun ayında Amerikaya gedəcəkdir.

**Cəmiyyəti-Əqvam nizamnaməsi**

İşlər çox olduğundan Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] nizamnaməsinə baxılmamışdır. Bir çox məsələlər hələ qurtarmamışdır. Heç inanılmır ki, işlər aprelin 25-nə qədər qurtarsın. Aprelin 25-nə, alman nümayəndələrinin dəvət ediləcəyi gün təyin edilmişdir.

**Alman nümayəndələri**

Teleqrafla xəbər verirlər ki, Versala Sülh Konfransına gəlmək üçün, Alman nümayəndələrinə rəsmi dəvət göndərilib, aprelin 25-i təyin edilmişdir. Klemanso müahidənamənin [sazişin] məzmununu onlara oxuyacaqdır və müahidənamənin imza edilməsinin axırıncı müddəti mayın 10-u olduğunu yəqin [qəti] söyləyəcəkdir. (1871-ci sənə Frankfurt müahidənaməsi imza edilən günə.) O zaman sülh elan ediləcəkdir. Yaxud, mütarikənin 72 maddəsinin onlar tərəfindən xələldar edilməsi almanlara təqdim ediləcəkdir. Vücuda gətirilməsi təsəvvür olunan məramnamə bu qərar üzrədir.

- Amerika mənabeyindən [mənbələrindən] verilən xəbərlərə nəzərən, bitərəf dövlətlər Rusiyaya hər növ ərzaq işləri yetirmək üçün bir komisyon təşkil etmək istəyirlər. Onlar ümid edirlər ki, Müttəfiqlər buna icazə verərlər.

**Amerikaya imtiyaz**

Rusiyanın Şura hökuməti Şimali Rusiyada böyük dəmiryol inşası imtiyazını bir Amerika kompanyasına vermişdir. Ümumrusiya İqtisadi Cəmiyyətinin üzvü Rıkov bəyan eyləmişdir ki, Rusiya hökuməti bu imtiyazı verməklə ümum dövlətlər kapitallarının rəqabətini oyatmaq istəyir. İsveç sərvətdarları bu yolun imtiyazını qəbuldan imtina eyləmişdir.

**Amerikanın müavinəti**

Nyu-Yorkdan xəbər verilir: Amerika hər ay Avropaya bir milyon 690 min ton taxıl göndərməyi qət eyləmişdir. Bu vaxta qədər Romaniya, Ermənistan, Serbiyaya, Slovakiya[ya] taxıl göndərmək işləri intizama düşmüşdür.

## SÜLH ƏTRAFINDA

**İngilislər bolşeviklər haqqında**

London – Avam Kamerasında Edvards Leninin sülh əqdi [imzalanması] xüsusundakı təklifini elan eyləmişdir. Bu da Kamerada böyük mübahisata səbəb olmuşdur. Bir çoxları qətiyyən bolşeviklərlə danışığa girişmək əleyhinə danışmışlardır. Şort hökumət namından [adından] demişdir ki, biz Rusiya ilə danışığa girişməkdən çəkinməyiriz. Fəqət bütün Rusiyada dəhşətlər törədən quldur dəstələri ilə əlaqədar olmağı da arzu etməyiriz. Biz hər bir anda Rusiya əhalisinə deyirik ki, hərəkətləri bütün mədəniyyəti xətrə [təhlükə] altına salan şimdiki hökuməti ilə bir əlaqədə olmağı arzu etməyiriz. Şort bu rəydədir ki, guya Leninin sülh təklifi Almaniyanın işidir və bununla isbat etmək istəyir ki, həqiqətən də bolşeviklər mədəni və sülhsevən insanlardır. Almaniya mümkün olan yerdə bolşevizmi intişar etdirir [yayır]. Bolşevizm Almaniyanın yeganə ümididir. Çünki bolşevizm haraya keçərsə, orada hökumət zəifləşir.

**Cəmiyyəti-Əqvam müahidənaməsi**

Cəmiyyəti-Əqvam müahidənaməsi [Millətlər Cəmiyyəti sazişi] Cəmiyyəti-Əqvam komissiyası tərəfindən hazır edilib, bu günlərdə Sülh Konfransının müttəhid [birgə] iclasında qiraət ediləcəkdir. Müahidənamənin müzakirə edilmiş qismi Avropa mətbuatında elan edilmişdir.

* London qəzetələrindən birisi yazır: Dünən şəhərdə ciddi surətdə şayiat var idi ki, guya Paris əmələləri [fəhlələri] Sülh Konfransını qovmuşlardır. Bu şayiat rəsmi dairələrdən verilir.

* Nyu-Yorkdan xəbər verilir ki, sosialistlər bildirirlər, hərgah Vilson konfransda ixtilaf nəticəsi olaraq konfransdan çıxarsa, o zaman bütün Avropada inqilab əmələ gələ biləcəkdir.

* Liondan xəbər verilir ki, Sülh Konfransının son iclasından gəlməkdə olan xəbərlər hüsn-təsiri dəxi də artırır. Fransa daimi olaraq Saar (Almaniyadadır) dərəsində olan mədənləri alır. Orada Fransa qanunu yeridilib, hökumət məmurları da fransızlardan olacaqdır. Bu qitənin [regionun] əhalisi xüsus[un]da Almaniya öhdəsinə aldığı məsuliyyətdə baqi qalır [dəyişməz qalır]. Polis məmuriyyəti hakəza [habelə] Fransanın əlində olacaqdır. Ali siyasi işlər Cəmiyyəti-Əqvam ixtiyarında olacaqdır. Bunlar da Cəmiyyəti-Əqvam tərəfində təyin ediləcək. Siyasi məmurların dördü fransızlardan, biri də yerli əhalidən olmalıdır. Əhali hər növ hüquqa malik olacaqdır. Yalnız nemes nümayəndələri göndərməməlidirlər. 15 il bu cür idarə ediləcək, sonra əgər bu qitənin Almaniyaya mülhəq edilməsini [birləşdirilməsini] əhali arzu edərsə, o zaman Almaniya fransız qızılı verərək bu yeri satın almalıdır. 125 milyard xəsarəti [ziyanı; ziyanın əvəzini] Almaniya yaxın 13 il müddətində verməlidir. Bunun 55 %-i Fransaya vüsul olur [çatır]. Qalan məbləğ isə sonra da verilə bilər. Bu şəraitin təmini üçün Reynin sol kənarı işğal edilmişdir. Bu da təbiidir ki, Müttəfiqlər heç bir vaxt Almaniyaya Saar məsələsini müzakirəyə belə müsaidə verməzlər. Nemeslərə 10 gün vaxt veriləcəkdir ki, öz hökumətlərinə Müttəfiqlərin şərtnaməsini bildirsinlər.

## QƏZETƏLƏRDƏN

**Gürcüstanda**

Tiflisdə nəşr olan "F. S." qəzetəsi yazır ki, aprelin 7-də Aşqabaddan çıxıb Tiflisə varid olan [çatan] şəxs bu axır vaxt bolşeviklərlə olan mübarizə haqqında böylə rəvayət edir:

Türküstanda bolşeviklər əleyhinə olan növbədəki məsələ Daşkənddə olan bolşevik əsgərlərini dağıtmaqdır ki, bunların da miqdarı 20 minə qədərdir. Bolşevik əsgərləri arasında çinlilər, sabiq hərbi əsir macarlar və yerli əhalinin bir hissəsidir. Bu dəstənin başında ərkani-hərb [hərbi qərargah] zabitləri durmuşlardır. Aprelin 2-də əmiri-Buxara tərəfindən Aşqabada bir heyət gəlib Kolçak hökumətini etiraf edən [tanıyan] Müdafieyi-Ümumiyyə Komitəsinə demişdir ki, əmiri-Buxara əsgərləri bolşeviklər tərəfindən minalanmış Amudərya körpüsünü işğal etmişlərdir. Bolşevik əsgərləri arxasında külli miqdarda Buxara əsgərləri cəm edilmişdir. Hərgah Aşqabad komitəsinin Könüllü orduları hücuma başlayıb Çarcunu işğal etsə, bolşeviklər mühasirə içrə qalaraq, təslim olmağa məcbur olacaqdırlar. Hal-hazırda cəbhə Çarcunun bir neçə verst məsafəsində Qurbanqala yanındadır. Burada bolşeviklər tərəfindən xəndəklər atılıb istehkamat yapılmışdır. Aprelin 5-ci gecəsi Aşqabad komitəsinin əsgərləri hücuma keçib bir gecə-gündüz müharibədən sonra Qurbanqala yanında bolşevik qüvvələrini pərakəndə etmişlərdir. Bolşevik əsgərləri 165 meyit buraxıb Çarcuya ricət etmişlərdir [geri çəkilmişlər]. Müharibədə iştirak edən bolşevik aeroplanı topla vurulub salınmışdır. Borşeviklər Çarcuya çəkildikdə, Ravnina istasyonundan 10 verst məsafədə dəmiryolu bilkülliyyə xarab edib, relsləri də özləri ilə aparmışlardır. Dəmiryolun bu tövr xarab olması Aşqabad komitəsi əsgərlərinin irəli hərəkət etməsinə mane olmuşdur. Dəmiryol bölüklərindən ikisi dəmiryolu düzəltməyə başlamışlar. Bu əhvalatı nəql edən şəxs Çarcunun müqəddəratı həll edilməmiş oradan azim olmuşdur [getmişdir].

## YƏHUDİ HÖKUMƏTİ

Ərzi-Fələstində [Fələstin torpağında] "Sionizm" denilən məsləyin bir Yəhudistan hökuməti təşkili üçün çalışdığı məlumumuzdur.

Əxirən [son vaxtlarda] Avropa qəzetələrindən bir qismi bu hökumətin təşəkkül edib-edəmməyəcəyini tədqiq edirlər. Türk qəzetələrindən "Yeni qəzetə" bu xüsusda yazdığı baş məqaləsində bu məsələdən bəhslə deyir ki:

Əxirən, "Jurnal de Deba" sionizmə dair nəşr etmiş olduğu bir baş məqalədə də göstərmiş olduğu üzrə məsələ şöylə bir şəkil almışdır:

İngiltərə Xariciyyə naziri müsyö Balfur 2 təşrini-sani [noyabr] 1917 tarixində lord [Layonel] Rotşildə yazdığı məktubda demişdir ki:

*"İngiltərə hökuməti musəvi millətinin Fələstində yerləşməsini müsaid bir nəzərlə görür və Fələstində digər camaatların hüquqi-mədəniyyə və diniyyələrini və digər məmləkətlərdəki musəvilərin də hüquq və vəziyyəti-siyasiyyəsini xələldar etməmək [pozmamaq] qeydi-ehtiyatı [ehtiyat şərhi] ilə təshilati-lazıməni [lazım gələn köməkliyi] göstərəcəkdir."*

Bundan bir ay sonra, Londrada əqd olunan [baş tutan] bir sionist mitinqində xariciyyə müstəşarı [xarici işlər üzrə məsləhətçi] lord Robert Sesil şöylə söyləmişdir:

*"Arzumuz şu mərkəzdədir ki, ərəb məmləkətləri ərəblərin, Ermənistan ermənilərin, saheyi-Yəhuda musəvilərin olsun."*

Fransa Xariciyyə naziri müsyö Pişon da 10 şubat [fevral] 1918-də sionist rüəsasından [başçılarından] müsyö Sokolova demişdir ki:

*"Fələstində musəvi təsisatı məsələsində İngiltərə və Fransa hökumətləri beynində [arasında] etilafi-tam [tam bir uzlaşma] mövcuddur."*

Əxirən, Paris Sülh Konfransı da məsələyi-İsrailiyyə haqqında sionist rüəsasından üç zatın [şəxsin] Fələstin haqqında musəvilərin mətalib və müddəiyyatı [tələbləri və iddiaları] haqqında verdikləri izahatı dinləmişdir. Bu üç zat ingilis musəvilərini təmsil edən Veyzman, Şərqi Avropa musəvilərini təmsil edən Silven Levi idi.

"Jurnal de Deba"nın yuxarıda bəhs etdiyimiz məqaləsində Fələstində bir hökuməti-İsrailiyyə təşkili iltizam olunmayır [lazımlı hesab edilmir], bunun bir taqım məhaziri [mənfi tərəfləri] ortaya qonulur. Əzancümlə [o cümlədən], şu nöqtələrə təmas edilir: Fələstin kimi əhalisinin əksəriyyəti musəvilərdən qeyri əqvam [xalqlar] təşkil edən bir yerdə nasıl bir hökuməti-İsrailiyyə təşkil edilə bilər! Bu fəqir məmləkət nəhayət bir milyon kişini bəsləyə bilərkən, burada dünyanın hər tərəfinə yayılmış on milyon musəvi nasıl iskan oluna [məskunlaşdırıla] bilər? Sülh Konfransında Suriyanın bütün əqsami-cənubiyyəsi [cənub hissələri] ilə Hayfadan Əqəbəyə qədər olan sahəni ehtiva etmək üzrə müvəqqətən Cəmiyyəti-Əqvam tərəfindən təyin olunacaq bir hökumətin himayəsində bir hökuməti-İsrailiyyə təsisi tələb olunmuşdur. Fələstinin şimdiki 500 min nüfusundan [əhalisindən] 120 mini musəvi ikən, Fələstinin digər əqvamı əsrlərdən bəri burada mütəməkkin [sakin] ikən bunlar yerlərindən, yurdlarından nasıl məhcur edilə [didərgin salına] bilər?

"Jurnal de Deba"ya nəzərən, Fələstində bir hökuməti-İsrailiyyə təsisi məsələsi tərbiyi-dairə kimi həlli düşvar [çətin], yaxud qeyri-mümkün bir məsələdir.

Biz bu gün hərbdən əvvəlki vəziyyətdə olmadığımız üçün, Fələstində hökuməti-İsrailiyyə təsisi Paris Sülh Konfransının müqərrəratına [qərarlarına] tabe bulunmaqla bərabər, məsələyə daha bitərəfanə ətfi-nəzər edə [nəzər sala] biləriz. Fələstin milləti-israiliyyə nəzərində müqəddəs olduğu [qədər], miləli-islamiyyə və xristianiyyə [müsəlman və xristian millətlər] üçün də böylədir. İslamın orada müəssisati-müqəddəsəsi [müqəddəs binaları] bulunduğu kimi, xristianlığın da məhdi-zühuru [beşiyi, meydana çıxdığı yer] və bütün ənənat və müqəddəsatının ehtivagahı [bütün ənənələrini və müqəddəs dəyərlərini özündə ehtiva edən yer] orasıdır. Fələstin üzərində milləti-israiliyyənin haqqı təslim olunsa da, bu məsələləri də həll etmək lazımdır. Bundan böylə, Fələstin qitəsində milləti-israiliyyənin feyz və inkişafına, şimdiyə qədər vücuda gətirmiş olduqları müstəmərələrin [istismar etdikləri torpaqların] tövsisinə [genişləndirilməsinə] bir maneə təsəvvür olunammaz. Yer üzündəki bütün musəvilərin Fələstində iskanı isə həman-həman hüsul imkanı [əmələ gəlməsi] maddətən bulunammayacaq bir məsələ şəklində görülür. Məsələ Fələstin şəkli-idarəsinin təyinindədir. Məmaliki-Osmaniyyədə [Osmanlı ölkəsində] qalacaq və Osmanlı [vətəndaşı] sifəti ilə buraya gələcək olan musəvilərin burada hər dürlü sühuləti [rahatlığı, əlverişli şərtləri] görəcəklərindən, haqq və hürriyyətlərindən tamamilə müstəfid olacaqlarından [istifadə edəcəklərindən] əmin ola bilərlər. Vaxtilə dövri-Həmididə [II Əbdülhəmid dövründə] Fələstində bir taqım təhdidat və təzyiqata [təhdidlərə və təzyiqlərə] düçar edilmiş olmaları bir misal təşkil edəmməz. O dövrlər büsbütün qapanmışdır və şimdiyə qədər Türkiyədə yaşamış olan musəvilərin, dünyanın hər tərəfində əza və cəfaya uğradıqları zamanlarda Türkiyədə hüzur və rahat görmüş olduqları zənnindəyiz. Türklər üçün musəvilərin feyz və təalisini [inkişaf etmələrini və ucalmalarını] istəməyə, aralarında bulunanlara dəsti-səfvət və üxüvvəti [səmimiyyət və qardaşlıq əlini] uzatmağa bir mane yoxdur.

## ERMƏNİLƏRİN MÜDAFİƏSİ

"Peti Parizyen" qəzetəsi ermənilər tərəfindən dərmiyan edilən mətalib [irəli sürülən tələblər] üzərinə fransız qəzetələri tərəfindən vaqe olan nəşriyyatın erməni məhafilində [dairələrində] həm heyrət, həm də yəs [məyusluq] oyandırdığını xəbər verdikdən sonra, Fransız Erməni Cəmiyyəti katibi-ümumisi [baş katibi] olub Osmanlı xidmətində mütəsərriflik etdiyini iddia edən Aram ismində bir zatın [şəxsin], mühərrirlərindən birinə vaqe olan bəyanatını nəşr edir. Bu zat deyir ki:

*"Bizim iki tələbimiz vardır: Birincisi, Ermənistanın müttəhid [birləşmiş] və qeyri-qabili-təczi [bölünməz] bir küll təşkil etməsi; ikincisi, bir Avropa məmləkəti ola bilmək üçün Bəhri-Səfid [Aralıq dənizi] sahilində ərazisi bulunması. Talib olduğumuz ərazidə əqəliyyətdə [azlıqda] bulunduğumuzdan bəhs olunur. Qırx sənədir həp bu etirazı eşidiriz. Yunanıstan da elani-istiqlal etdiyi zaman türk paşalarının qitalından [qətliamından] qurtulmuş 400 min kişidən [nəfərdən] ibarət idi.*

*Ermənistan əhalisi içində az zamanda irqi, lisanı, harsı [mədəniyyəti] müştərək bir erməni əksəriyyəti-nisbiyyəsi [nisbi çoxluğu] təşəkkül edə biləcəkdir. Yəni, irq və lisanları ayrı olan türklərin və kürdlərin, çərkəzlərin, tatarların qarşısında ermənilər haizi-əksəriyyət olacaqdır [çoxluğa malik olacaqdır]. Bizim iddialarımıza qarşı istatistikdən bəhs olunur. İstatistik mütəməddin [mədəni] millətlərə təəllüq etdiyi [əlaqədar olduğu] zaman bir qiyməti haiz [qiymətə malik] ola bilər. Məsələn, Cənubi Arnavudluqdakı [Cənubi Albaniyadakı] yunan mətalibini [tələblərini] çürütmək üçün oradakı yarı-vəhşi və ibtidai əhalinin nisbəti-ədədiyyəsini mövzuyi-bəhs etmək [say nisbətindən danışmaq] nə qədər mənasız isə, türklər və kürdlər haqqında istatistikin şəhadətini qəbul etmək həm mənasız, həm də təhlükəlidir. Erməni müddəiyyatı [iddiaları] istatistik ianətilə [yoluyla] çürüdüləmməz. Bir əsrdən bəri Yevropa dövlətləri 6 milyonluq bir türk əqəliyyətinin [azlığının] kəndilərinə hər cəhətlə faiq [üstün] olan 30-40 milyon erməni, makedoniyalı, suriyalı və ərəb üzərində icrayi-təhəkküm etməsinə [hökm etməsinə] meydan buraxmışlardır. Eyni dövlətlərin bu gün silah arxadaşları olan erməniləri əqəliyyəti-ədədiyyə vasiləsilə [saylarının azlığı səbəbindən] əməllərindən [arzularından] məhrum etmələri caiz olammaz.*

*Şurasını əlavə edəyim ki, ermənilərin təvəccöhünü [rəğbətini] cəlbə müvəffəq olan dövlət, Asiyayi-qərbi [Qərbi Asiya] üzərində siyasi və iqtisadi bir hakimiyyət təmin edə biləcəkdir. Bu təvəccöhün əsrlərdən bəri Fransa denilən və qəhrəmanlığın və məhasini-əxlaqiyyənin [müsbət əxlaqi keyfiyyətlərin] vətəni olan gözəl məmləkətə mütəmail [mail, yönəlmiş] olduğunu bəyana hacət varmı?"*

Bu fəqərəni dərc edən "Vakit" qəzetəsi kəndi tərəfindən aşağıdakı sətirləri əlavə edir:

Biçarə istatistik pək fəna siyasi ehtiraslara alət edilmişdir, pək çirkin surətlərdə təğlit olunmuşdur [təhrif edilmişdir]. Fəqət bir tərəfin istatistikin ehkamından [hökmlərindən] istifadə haqqını digər tərəfdən külliyyən nəz' edərək [əlindən alaraq] bu zəmində iddiayi-hüquq etməsi istatistik tarixində hər halda ilk dəfə olaraq vaqe olur.

## ÇAĞIRILACAQ BEYNƏLMİLƏL KONFRANS MÜNASİBƏTİLƏ NAXÇIVAN VƏ ŞƏRUR MAHALLARI

**- 1 -**

Hər bir qafqazlı və baxüsus [xüsusilə] azərbaycanlı, Qafqaziya cümhuriyyətləri miyanında [arasında] mövcud ixtilaflı məsələləri sülh təriqi [yolu] ilə həll etmək üçün çox vaxtdan bəri arzusunda bulunduğumuz beynəlmiləl konfransın artıq bu yaxınlarda iniqad edəcəyini [baş tutacağını] bilərək, Qafqaziya cümhuriyyətlərini gec də olsa nail olduqları bu az müvəffəqiyyətdən dolayı təbrik etməyə bilməz.

Zatən, Zaqafqaziya millətləri yüz illərlə yan-yana yaşadıqlarından milli, iqtisadi və bir çox başqa xüsuslarca bir-birləri ilə ən sıxı irtibatları [əlaqələri] mövcud və həm gələcək iqballarıı [taleləri, xoşbəxtlikləri] bir-biri ilə hüsn-münasibat [yaxşı münasibətlər] vücuda gətirmələri ilə mərbutdur [bağlıdır].

Hüsn-münasibat yalnız tərəfeynin [hər iki tərəfin] bir-birinin hüququnu riayət etməklə və kəndi-kəndinə yaşamaq imkanı verməklə olduğundan, istəriz inanaq ki, keçirilən bunca fəlakətlərdən, axdırılan bu qədər qanlardan və tarümar edilən bu qədər xanimanlardan sonra Qafqaziya millətləri şimdi artıq ümumi dil tapmağa müvəffəq olarlar və gözəl Qafqaziyamızı Balkan yarımadası deyil, İsveçrəyə təbdil etməyə [çevirməyə] sərfi-hümmət [səy] edərlər.

Rusiya inqilabi-kəbiri [Böyük Rusiya inqilabı] ümum bəşəriyyətlə bir yerdə Qafqaziya millətlərinə həm istibdadın bitdiyini, hürriyyət, ədalət, müsavat əsrlərinin yetişdiyini təbşir etdisə [müjdələdisə], məəttəəssüf [təəssüf ki], Qafqaziyanın xırda millətlərinə cahangirlər mərəzi [imperialistlərin xəstəliyi] həm sirayət etdiyindən [yoluxduğundan], onlar müsaid [əlverişli] vaxtlardan istifadə edərək bir-birlərini bəl etmək [udmaq; yemək] iştahasında olduqlarını və kəndi iqballarını qonşularının bədbəxtliyində bildiklərini kərratla [dəfələrlə] nümayiş etdilər.

Bunun nəticəsi olaraq Qafqaziya qan dəryasına döndü. Bu keşməkeşlərdə, bu fəlakətlərdə hamıdan artıq mütəzərrir [zərər çəkən] Qafqaziya islamları olduqlarını isbata ehtiyac yoxdur, zənnindəyəm.

Yetər yalnız ki, bütün Qars və Batum oblastlarında və İrəvan quberniyasında on dənə yanmamış və talan olunmamış islam kəndi belə tapılmaz. İrəvan quberniyasının erməni hökuməti icra olan qitələrinin daxilində yaşamaq məcburiyyətində qalan islamların halları şimdi belə pək fənadır.

Əlbəttə, Sülh Konfransı bu məsələlərə lazımi diqqət edəcək və 20-ci əsrin insanlarına insancasına yaşamaq imkanı veriləcəkdir.

Beynəlmiləl konfransın həll edəcəyi məsələlərdən ən böyük əhəmiyyəti haiz olan [daşıyan] şübhəsiz hüdud məsələsi olacaqdır. İxtilaflı sərhəd məsələlərinin birisi də bilməm hansı prinsip üzərinə İrəvan hökuməti rəyincə sabiq İrəvan quberniyasının Şərur və Naxçıvan uyezdləri olduqlarından, Azərbaycan əfkari-ümumiyyəsini [ictimaiyyətini] məzkur [deyilən] nahiyələrlə aşina etmək və ermənilərin tələblərinin nə qədər əsri-mədəniyyətə və milyonlarla qanlar bahasına alınmış "samooperedeleniye" [öz müqəddəratını təyin etmə haqqı] şüarlarına müğayir [zidd] olduqlarını sübuta çalışmaq hər bir Azərbaycan vətəndaşının və baxüsus naxçıvanlı bir türkün milli borclarındandır.

Məlum olduğu üzrə, sabiq İrəvan quberniyası yeddi uyezdə [qəzaya] təqsim olunurdu [bölünürdü]. Bu uyezdlərin üçündə (Aleksandropol, Novo-Bayəzid, Eçmi-yədzin) ermənilər və başqa üçündə (Naxçıvan, Şərur və Sürməli) yerli türklər əksəriyyət təşkil edirlərdi.

İrəvan uyezdinin dəmiryol xətti ətrafları əksərən ermənilərlə, Vedi çay boyu əksərən islamlarla məskun idilər.

1916-cı ilin təhriri-nüfusu [əhalinin qeydə alınması] ilə İrəvan quberniyasında cəm'ən [cəmi] bir milyon yüz əlli minə yaxın bir camaat yaşayırdı. Sabiq Qafqaziya canişini dəftərxanasının kalendarında göstərilən rəqəmlərə inanılarsa, bu camaatın 50 faizi erməni, 45 faizi türk-islam, mütəbaqi [qalan] 5 faizi isə yezidi, kürdlər, assurilər, malakanlar və ruslardan ibarətdir. Lakin həmişə olduğu kimi, qeyd olunmamış islamlar nəzərdə tutularsa, ermənilərlə yerli türklərin ədədində olan fərq bir qədər həm müsəlmanlar mənfəətinə olaraq təbdil olunar [dəyişər].

Sürməli uyezdi şimdi Qars və Batum oblastları ittifaqına daxil olduğundan, təbii, buranın müqəddəratı həman oblastların müqəddəratı ilə müştərək həll olunacaqdır.

Naxçıvan və Şərur mahallarına gəldikdə, bu mahalların 300 mini mütəcaviz [keçən] camaatının 80 faizi həman 1916-cı ilin siyahısı ilə türk və islamlardır. Bu iki ölkə mart ayının ibtidasından [əvvəllərindən] türklərin işğalına kimi İrəvan Hökumətinin bütün təərrüzatına [hücumlarına] qarşı təni-vahid [vahid bir bədən] kimi müqabilə etmişlər və kəndilərini Azərbaycanın ayrılmaz bir hissəsi bildiklərindən, Ararata [Ermənistana] baş əyməyi heç xatirlərinə belə gətirməmişlərdir.

Naxçıvan uyezdinin ermənilərlə müsəlmanlarının sayılarını müqayisə etdikdə, bunu həm nəzərdə tutmalıdır ki, Naxçıvan ermənilərinin dəyərli bir faizi mühacir sifətilə başqa məmləkətlərdən gəlmişlər və bu gəliş biz naxçıvanlıların kəndi əsrimizdə olub. Məsəl[ən] Təzəkənd, Əliabad və bir çox bunlar kimi erməni kəndlərinin əhalisi yalnız 30-40 sənə əqdəm [qabaq] həmin torpaqlarda iskan etdikləri [məskunlaşdıqları] halda, yerli islamlar neçə yüz illərdir buralarda yaşayırlar.

Naxçıvan mahalına Ermənistan deyə adlandırmalarına böyük bir dəlil olaraq erməni qonşularımız "Qızılvəng" və "Əbrəqunis" monastırlarını göstərirlər və bu monastırların erməni səltənəti dövründən qalma olduqlarını isbata uğraşaraq, buraların tarixi Ermənistan olduğunu iddia edirlər. Lakin ermənilərin bu tarixi dəlillərinin və onların başqa bir çox bu qəbil dəlilləri kimi isbata artıq ehtiyacı var. Çünki islam hökmdarları başqalarının din və məzhəblərinə təzyiq etdiklərinə dair tarixdə bir söz belə olmadığından, bu məbədlərin islam dövri-səltənətində vücuda gəlmələri onların "müstəqil Ermənistan əlamətləri" olduqları şayiələrindən daha həqiqətə müvafiqdir, zənnindəyəm. "Qızılvəng" monastrının üç verstlik məsafəsində bulunan Şah Abbasi-kəbir tərəfindən inşa edilmiş "Abbasabad" qalasının barıları [divarları], "Əbrəqunis" monastırının yaxınlığında bulunan "Əshabi-kəhf" və "Milaq" pirləri, Səlcuqilər əsrindən qalmış olan həşəmətli "Xan minarəsi"nin kufi xətti yazıları, "Qoşaqala" xarabalarının altından islam xətləri ilə yazılmış hürufat [hərflər] və sikkələrin tapılması, "Xan minarəsi"ndən daha qoca olan "Ana-baba" kəndi və bir çox bu qəbil asari-ətiqə [qədim əsər] erməni qonşularımızın tarixi iddialarının əsilsiz olduqlarını və buralarda islam səltənətləri çox qədim vaxtdan bina tapdıqlarını isbat edir.

Lakin Naxçıvan və Şərur mahallarına Azərbaycan dedikdə biz heç vaxt bu tələbimizi tarixə isnad etməyirik. Yalnız tarixi nöqteyi-nəzərdən həm bu ölkələri bizim əlimizdən almağa bir sübut olmadığını əlavə ediriz. Bütün tarixi və arxeoloji sübutlardan artıq Naxçıvan və Şərur nahiyələrinin kürreyi-ərzdə "Azərbaycan" namını [adını] daşıyan ərazinin bir qitəsi [hissəsi] olduğu və bu qitənin sakinlərinin 80 faizi türk və islam olduqları üçün bu iki ölkənin Azərbaycan cismindən ayrılmağının heç bir prinsiplə düz olmadığıdır. Bu torpaqlarda yaşayan türklər təsadüfi olaraq üç-dörd il deyil, belə əsrlərlə bu ərazidə yaşayırlar. Tarixi nişanələr, əlamətlər nə qədər əziz və dəyərli olsalar, yenə qeyri-ziruh [cansız, ruhsuz] daş və torpaqdan başqa bir şey deyildirlər. Bu qeyri-ziruh torpaqlar, daşlar xatirəsi üçün yüz minlərlə və yüz illərlə yaşayıb gələn bir kütlənin ata-baba yurdlarını əlindən almaq heç bir prinsiplə düz olmadığı kimi, heç bir vicdan buna həm təhəmmül etməz [dözməz].

Erməni qonşularımız tərəfindən iniqad edəcək [baş tutacaq] Qafqaziya Beynəlmiləl Konfransına gələn mürəxxəslərin [nümayəndələrin] Paris Sülh Konfransında olduğu kimi ölülərə pay istəyən xülyapərəst, cahangir [imperialist] yox, həqiqi demokrat olmalarını arzu ediriz.

Onların bizim də olmasa, nim-rəsmi [yarı-rəsmi] Fransa qəzetələrinin aqilanə tövsiyəsini dərk edərək yalnız kəndiləri əksəriyyət təşkil etdikləri bir ərazidə məmləkət təsis etməyə sərfi-hümmət [səy] edəcəklərini bəkləyiriz.

Əksinə olaraq, bugünkü "müsaid" ["əlverişli"] fürsətdən bilistifadə [istifadə edərək] qonşu islam ölkələrini bəl etmək [udmaq, yemək] iştahası yenə təcdidi-vücud edərsə [yenidən meydana çıxarsa], yarın "qeyri-müsaid" bir vaxtda həştad milyon türk-islam mühiti daxilində yaşamağa məhkum olan kiçik bir millətə bu heç də sərf etməz, zənnindəyəm.

Dünyanın məhəlli-həvadis [hadisələr yeri; dəyişkən] olduğunu beş sənə zərfində Cahan müharibəsi kərratla [dəfələrlə] isbat etdi. Binaənileyh [ona görə], "müsaid" vaxtlardan heç də istifadə arzusuna düşməyərək, gec də olsa kəndi-kəndimizə bəradəranə [qardaş kimi] əl uzadalım və aralığımızda mübahisəni mövcib [mübahisə yaradan] məsələləri məxfi diplomatiya təriqi [yolu] ilə və yaxud kənardan gəlmiş olan başqa bir qüvvəyə isnad ilə deyil, milyonlarla qanlar bahasına alınmış və Rusiya inqilabi-kəbiri tərəfindən bütün dünyaya təbşir edilmiş [müjdələnmiş] hürriyyət əsası [prinsipi] ilə, "samooperedeleniye" [öz müqəddəratını təyin etmə] şüarı ilə həll edəlim və əhalisinin 80 faizi türk və islam olan bir vilayəti mübahisəli məsələlər zümrəsinə daxil etməyəlim.

Azərbaycan Hökuməti tərəfindən Qafqaziya Beynəlmiləl Konfransında iştirak edən mürəxxəslərimizə [nümayəndələrimizə] verilən düstürüləməldə [təlimatnamədə] "Naxçıvan və Şərur mahalları Azərbaycan vücudunun birər üzvləri olduqlarından, buralar mübahisəli məsələlər zümrəsinə heç də daxil ola bilməzlər" cümləsi havi [cümləsini ehtiva edən] bir fəsil olacağına əminiz. Bizim bu qüvvəti-qəlbimizi [mənəvi gücümüzü] Rəisi-vükəla [Baş nazir] həzrətlərinin Parlaman kürsüsündən oxuduğu deklarasiyası həm təqviyə edir [gücləndirir]. Zatən başqa dürlü olacağını heç bir Azərbaycan vətəndaşı belə təsəvvür edə bilməzdi.

*Tağı Nağdəlizadə*

## DAŞNAKLAR TÖHMƏTİNƏ QARŞI

Gürcüstan ordusunun Axıska qəzasını təkrar istila etdikdə türk əhalisinə etdikləri zülmə qarşı Azərbaycan Hökumətinin protestosu haqqında Daşnaksaqan firqəsi mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Vperyod" qəzetəsinin (27-ci nömrə) "Qərarsızlıq" ünvanı ilə baş məqaləsində *"Cənub-Qərb hökumətinin ordusu Gürcüstan içərisinə yürüdükdə sükutu qəbul edib bəlkə də ürəkdən məsrur olan [sevinən] azərbaycanlılar, Gürcüstan ordusu kəndi qüvvəsini təkmil edib [toplayıb] Axıskaya yürüdükləri əsnada mətbuat və rəsmi protesto vasitəsilə qeylü-qala [səs-küy salmağa] başladılar. Neyçün bu qeylü-qal bundan müqəddəm [əvvəl] də olmayırdı?"* deyir.

Və bunu da əlavə edir ki, Qars, Batum və Axıska kimi Qarabağ da vardır. Bəs neyçün "Azərbaycan xanları" onu da düşünməyirlər ki, Qarabağın da 300 min erməni əhalisi Azərbaycanı qəbul etməyib, Ermənistana mülhəq olmaq [birləşmək] istəyirlər?

Daşnaklar əla bilirlər ki, Axıska qəzası əskidən bu anadək bilkülliyyə [tamamən] islam-türk əhalisi ilə məskun və rus imperializmi dövründə belə idarə başlarında rus məmurları bulunmuşsa da, yenə də qəza ümuratının [işlərinin] üsuli-idarəsində nüfuza islam-türk əhalisi malik olmuşdur. Şimdi hürriyyət zamanında axıskalılar kəndi ixtiyaratını əllərinə alıb, kəndilərini idarəyə başlamışlar. Bunlara qarşı hərəkətdə bulunub, bunları silah gücü ilə kəndilərinə tabe etmək üçün əhaliyə zülümlə onları qətl və qarət etmək istiqlaliyyət dövründə demokratik Gürcüstana şayəstə [layiq, yaraşan] görülmədiyi təbiidir və təbii bir halı qeyri-təbii etmək mümkünat xaricindədir.

Qarabağın əsrlərdən bəri islam məmləkəti olduğunu daşnaklardan başqa azca da olsa sahibi-vicdan olan heç bir fərd inkar edəmməz. Birə-beş dəfə ermənilərdən ziyadə nüfusa malik olan bir məmləkətin müsəlmanlar əlindən alınıb da sonradan gəlmə, künc-bucaqda yaşayan əmniyyətsiz [etibarsız; təhlükəli] bir güruha verilməsini nə insaf və nə də buranın sahibi qəbul edə bilməz və etməz də. Bunu daşnaklar gözəlcə anlayıb sükutla oturmalarını onların mənfəəti yolu ilə onlara tövsiyə ediriz.

*Məhəmməd*

## FİRQƏLƏRİMİZ VƏ KÖNÜLLÜ ƏSGƏRLƏRİMİZ

Bir qaç gündən bəri firqələrimiz Şimali Qafqaziyanın saf sinəsinə ayaq basmaq istəyən qara fikirli denikinlərin qarşısına göndərmək üçün könüllü bölükləri təşkil etməkdə qayət ciddiyyət göstərirlər. Təbii, böylə bir təşəbbüs gözəl bir təşəbbüsdür. Buna bir sözümüz olammaz. Zira əsrlərcə hüquqi-milliyyələri ayaqlar altına alınan və hürriyyətləri sui-istemal edilən Qafqaziya millətləri qanlar tökərək, canlar verərək aldıqları istiqlaliyyəti qara fikirli denikinlərin qanlı pəncələri ilə, kəskin dırnaqları ilə məhv etdirmək və yenidən o mənhus çarizmanın təhti-əsarətinə [əsarəti altına] girmək istəməz və bu yolda lazım gələn tədabiri-əsgəriyyəni [hərbi tədbirləri] görmək məcburiyyətində bulunur.

Fəqət burada bir sual ortaya çıxır ki, əcəba, şu tədabiri-əsgəriyyəni kimlər dəröhdə etməlidir [öhdəsinə götürməlidir]. Bizə qalarsa, biz deyə biləriz ki, hətta təcrübəmiz nəticəsi olaraq qəti bir surətdə cavab verə bilərik. Hər nə qədər siyasi firqələr əsgəri bir müəssisənin və əsgəri bir müəssisə siyasi firqələrin işlərinə müdaxilə etmişsə, vətən daha ziyadə təhlükələrə məruz qalmış və ən nəhayət, inqirazlara yüz çevirərək [çökməyə üz tutaraq] aqibət məhv olub getmişdir.

Bu gün böyük Rusiyanı və onun inqilabını dərxatir etsəniz [yadınıza salsanız], bu yolda uzun-uzadıya dəlillər gətirməyin lüzumu olmadığına qənaət kəsb edərsiniz. Əgər bu gün firqələrimiz denikinlərin çəngalından [caynağından] dindaşlarımızın vətənini qurtarmaq və bu surətlə kəndi vətənimizi də mühafizə etmək təsəvvüründə bulunurlarsa, onda hər bir firqənin topladığı könüllü əsgərlərin o firqəyə görə də bir siyasi fikri olacağını düşünməli. Halbuki vətən imdadına qoşan bir əsgərin isə siyasi bir fikir bəsləməsi hərb nöqteyi-nəzərincə caiz deyildir. Binaənileyh [ona görə], bir əsgərin siyasəti ancaq vətən, vətən olmalıdır. Bundan başqa bir fikir olmamalıdır. Buna görə lazımdır ki, hər bir firqə yalnız kəndi namından [adından] deyil, vətən namından könüllü əsgər toplamalıdır.

Bu da ancaq böylə mühüm zamanlarda ümum firqələrimizin bir araya gəlib beynəlfirəq [partiyalararası] bir əsgəri komisyon [hərbi komissiya] təşkili ilə olar və bu sayədə dindaş və vətəndaş imdadına qoşula bilər.

*R[za] Zaki*

## CƏNUB-QƏRBİ QAFQAZİYA CÜMHURİYYƏTİ

Bu son günlərdə Qərbi-Cənubi Qafqaz Cümhuriyyətində bəzi təbəddülat [dəyişikliklər] əmələ gəlmişdir. Həqiqəti-əhvalı qarelərimizə [oxucularımıza] bildirməkdən ötrü bugünlərdə Qarsdan gəlmiş olan bir doktorla müsahibədə bulunduq. Mümaileyh [deyilən şəxs] bizə həman cümhuriyyət və o cümhuriyyətin təşkilindən bu ana qədər vaqe olan hallar barəsində böylə məlumat verdi:

Keçən il noyabrın axırlarında Qars və Batum oblastlarının türk qoşunlarından təmizlənməsi xəbəri alındıqda, Qarsda Müsəlman Milli Şurası təşkil edilmişdi və Milli Şura Batum və Qars oblastlarının ümuri-idarəsini [idarə işlərini] əllərinə almışdı. Türklər gedəndə bir çox şeyləri aparmışlardı. Ona görə də bu oblastların halı yaxşı deyildi. Milli Şura türklər getdikdən sonra müvəqqəti hökumət təşkil eyləmişdi. Bu hökumətin Baş nazirliyinə İbrahim bəy Cahangirov intixab edilmişdi [seçilmişdi]. Mümaileyh ağıllı və durbin [uzaqgörən] bir zatdır [şəxsdir].

Dekabrın 1-də Qarsda Milli Şuranın qərarı ilə Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti elan edilmişdi. Bu cümhuriyyətə Batum və Qars oblastları, Axıska, Axal-kələk, Sürməli, Şərur və İrəvan mahalının cənub-şərq tərəfi və Naxçıvan uyezdi daxildirlər. Dekabrın ortalarında bir komisyon təşkil edilmişdi ki, Parlaman intixabatına şüru eyləsin [Parlament seçkilərinə başlasın]. Komissiya intixab layihəsi [seçki proqramı] tərtib edib ümumi, məxfi, müstəqim [birbaşa], müsavi üsullarla Parlamana yuxarıda zikr edilən yerlərdən hər 10 min nəfərə bir üzv intixab edilmişdir. Mart ayının 9-da təntənəli surətdə Qarsda Parlamanın rəsmi-güşadı vaqe olmuşdu [açılış mərasimi baş tutmuşdu].

Hələlik Parlamanda 72 üzv var idi. Parlaman sədarətinə doktor Əsəd bəy Hacıyev intixab edilmişdi. Parlaman qayət ciddiyyətlə işləyir. Mart ayının 27-də tənənəli surətdə Parlamanda Cənub-Qərbi Qafqaz Cümhuriyyəti istiqlaliyyəti elan edilmişdi. Parlaman təşkilindən sonra Milli Şura vəkaləti bitmişdi. Şimdi bu Cümhuriyyəti Parlaman və müvəqqəti hökumət idarə edir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 22 aprel (Çərşənbə axşamı günü) tarixli 163-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Məattəəssüf [təəssüf ki], hökumət üzvlərinin bəzisi iqtidarsızdır. Bu Cümhuriyyətin ziyalılara fövqəladə ehtiyacı vardır. Böylələrini Azərbaycanda[n] gözləyir. Parlamana müsəlmanlardan əlavə, 3 rum (qrek) üzvü də daxil olmuşdur. Müvəqqəti hökumət heyətinə isə bir rus, bir rum daxil olmuşdur. O ki qaldı ermənilərə, Parlaman qərar qoymuşdur ki, qanlı müsadimələr [toqquşmalar] vaqe olmamaqdan ötrü və müsəlmanlarla ermənilərin hələlik mütəqabil [qarşılıqlı] əlaqələri anlaşılmadığı üçün ermənilər cümhuriyyət torpağına buraxılmasınlar. Bundan əlavə, bu cümhuriyyətdə öylə kənd və qəsəbə yoxdur ki, orada İrəvan və sair quberniyalardan gəlmiş müsəlman fərariləri [qaçqınları] olmasın. Binaənileyh, boş yer olmadığı üçün ermənilərin bu cümhuriyyətə buraxılmasına imkan qalmamışdır.

İngilis komandanlığının məlumatına nəzərən, İrəvan quberniyasında 482 müsəlman kəndini müsəlmanlar tərk edib qaçmışlar. Bunların əvəzinə isə Qars oblastında yalnız 82 erməni kəndi tutmuşlardır. Cümhuriyyətdə aclıq, tif son nöqtəyə varmışdır.

Xüsusən, Kağızman nahiyəsində tif şiddətlənmişdir. Hər gün orada acından, tifdən yüzlərlə müsəlman həlak olur. Nə həkim, nə dərman... Onlara təcilən müavinət etmək fərzdir. Gərək təbib və gərək dəvacat və ərzaqla onlara müavinət edilməlidir.

İngilislər zahirən müsəlmanların aclığını hiss etməyirlər. Ona görə də Sarıqamışda türklərdən qalmış və əhalidən cəm edilmiş buğdaları Ermənistana daşıyırlar. Tifdən, aclıqdan bəzi yerlərdə o qədər müsəlman tələf olur ki, onları vaxtında dəfn etmək belə qabil deyildir. Müsəlmanlar acından və tifdən divanə halına gəlmişlərdir. Hökumət pulsuz olduğundan, bu bəlaların qarşısına çıxa bilməyir. Bəzi hökumət üzvləri hökumətdə bimuzd [muzdsuz] işləyirlər.

Buğdalar aparılmasından dolayı martın 23-də Qarsda müsadimə vaqe olmuşdur [toqquşma baş vermişdir]. Camaat təvəqqe edir ki, Qars oblastından buğdaları aparmasınlar. Fəqət ingilislər əhalini silah gücü ilə pərişan etmişlərdir. Bu əhvaldan həyəcana düşən camaat silah sakladlarına hücum edib 100 ədəd yaramaz berdanka və 20 ədəd şaşka [qılınc] almışlardır. Cümhuriyyət hökuməti əhvalatı bilib, süvari qoşunlarını göndərib silahları camaatdan alımaq istəmişdir. Sonra ingilis süvariləri də yetişib silahları camaatdan almışlar və böyləliklə bu hadisə bitmişdir. Keşməkeşdə bir müsəlman qətl edilmişdir. Yerli qəzetələr hərçənd bu müsadimədə bir çoxlarının qətl edildiyini yazırlarsa da, bunlar həpsi mübaliğəlidir.

Alınmış olan xüsusi xəbərlərə görə, ingilis komandanlığı Qarsda hökumət üzvlərindən bəzisini həbs eyləmişdir və xüsusi qatarla Batuma göndərmişlərdir. Bir də Bakı qəzetələrində böylə bir xəbər verilirdi ki, guya Cənub-Qərbi Qafqaziya hökumətinin baş naziri Sərvər bəy Atabəyov qətl edilmişdir. Fəqət mərhum hökumət başçısı deyil, Axıska və Axal-kələk müvəqqəti komissariat rəisi müavini idi. Axıska gürcü qoşunları tərəfindən geri alındıqdan sonra Sərvər bəy cümhuriyyət qoşunları baş komandan müavinliyinə təyin edilmişdi.

Bundan əlavə, Əfzəl bəy Musakov qətl edilmişdir. Mərhum, istiqlaliyyət yolunda canfəşanlıq edən və bu yolda yorulmaqsızın çalışan bir zat idi. Şimdi biçarənin əhli-əyalı pərəstarsız [himayəsiz, köməksiz] və parasız qalmışdır. Görünür ki, bu qətllərdə gürcülərin əlləri vardır.

Gürcülər son vaxtlarda müsəlmanlar arasında ciddi təbliğatda bulunub, Batum oblastını Gürcüstana mülhəq etmək [birləşdirmək] istəyirlər. Bir çox molla və xocaları pul gücü ilə öz tərəflərinə çəkib, onlar da gürcülər nəfinə [xeyrinə] müsəlmanlar içində təbliğatda bulunurlar.

*Felyeton*

## RUS TİCARƏTİNİN TARİXİ

## II

## Pyotri-Kəbir dövrü

## - 3 -

Pyotri-Kəbir [Böyük Pyotr] zamanına qədər rus ticarəti yalnız "xammalların" dairəsində dolaşıb durdu. Bu xammallar da Yevropa şəhərlərinə göndərilib, oradan "xas mal" surətiylə yenə Rusiyaya qaytarılırdı. Yəni, əhalinin mətası öz əllərindən alınıb özlərinə də birə-beş, birə-on baha qiymətə satılırdı. Buna təkcə bir çarə var idi ki, o da malların vətən fabrikasında xaslanması idi. Hələ fabrikaları işlətməyə qadir ustaların Rusiyada bulunmadığı səbəbə imperator Pyotr əcnəbi vilayətlərdən kamil və mahir üstad və sənətkarlar dəvət edib, rus cavanlarını öyrətmək üçün hökm və fərmanlar verdi. Sənətkarların ən qabili və ən məşhuru böyük-böyük məvaciblərlə çağırılırdı. Məsələn, firəng mühəndisi Leblon 40 min manat məvacibə dəvət olunmuşdu. Dəvət olunmuşların vəzifəsi rus şagirdlərindən heç bir şey gizləməyərək, bildikləri sənətlərin tamam fənn və üstadlığını təlim etmək idi.

Buna kifayət olunmayaraq, qabiliyyətli rus cavanlarından bir çoxu birbaş Yevropaya göndərilirdi ki, orada adi sənətlərdən başlayaraq sənayeyi-nəfisəyə [incəsənətə] qədər cümləsini öyrənsinlər. Təlimdən qayıdarkən bu cavanların hifz edə bildiklərini tədqiq üçün imtahanlar yapılırdı. Qabiliyyətlilərini iş başına qonduraraq fabrika və zavod idarəçiliyini onlara tapşırırdılar.

Fabrikaçılar hər bir vəsilə [vasitə] ilə təşviq və tərğib olunurdular [həvəsləndirilirdilər]. Hətta xəzinədən bunlara faizsiz pul buraxılaraq dövlət vergiləri də alınmayırdı. Əvvəlinci fabrikaları hökumət özü xəzinə məxarici ilə açaraq işə-başa saldıqdan sonra, xahişmənd [istəyən] tacirlərin ixtiyarına verirdi. Fabrika mallarına birinci müştəri xəzinə olub, aldığı malları da tamamən hökumət və dövlət ehtiyacına sərf edirdi. Odur ki, xəzinə üçün işləyən fabrikaların həm işləri müntəzəm və həm də mətaları möhkəm və davamlı olurdu. Bundan əlavə, artıcaq səy olunurdu ki, fabrika malları rus camaatı arasında da intişar tapsın [yayılsın]. Bunu əncama gətirmək üçün əcnəbi fabrikaçılarına həman mallardan Rusiya məmləkətinə gətirməyə izin verilməyirdi. Bu minval ilə rus malları camaat arasında rəvac və iştihar tapırdı [məşhurlaşırdı].

O vaxtlar Rusiyada azadə zəhmətkeş sinfi bulunmadığı üçün fabrika işləri təng [çətin] keçirdi. Lazım olan qədər əmələ [işçi] tapılmadığına binaən [görə], bir çox vaxt fabrikalar işləməyib yatırdı. Buna xitam vermək üçün dövlət fabrikaları ətrafındakı dəhat [kənd] əhlinin ixtiyarları həman fabrika idarələrinə verilir, ta ki, minbəd [bundan sonra] biyar təriqi ilə [məcburi qaydada] fabrikalarda işləsinlər. Sair fabrikaçılara da ixtiyar verilir ki, ehtiyac əsnasında dəhat əhlindən istədikləri qədər satın alıb fabrikalarda işlətsinlər. Bu fəqərədən [hadisədən] sonra azadə zəhmətkeşlik tərk olub, əvəzində cəbri [məcburi] zəhmətkeşlik üsulu bərpa olur.

**2) Ziraət, orman və maldarlıq islahatı**

O vaxta qədər əkin və biçin işləri ən qədim bir üsul ilə icra olunurdu. Ona binaən [ona görə] məhsulat da çox az olurdu.

Pyotri-Kəbir Ostzey ölkəsindən oraq və çin [dişli oraq növü] qisimlərini [hissələrini] gətirdib qubernatorlara hökm yazır ki, bu alat [alət-avadanlıq] ilə dəhat əhlini aşina qılsınlar. Bunların işlənilməsinə hökumət tərəfindən qərardadi-icbari verildiyi üçün az bir vaxtda əhali arasında yayılıb intişar tapır [məşhurlaşır].

Rus kəndliləri ormanlara "tanrının hazır neməti" adını verərək rəhmsiz, amansız və şədidanə [şiddətli] bir surətdə qırıb çatırdılar. Bunun vətənə gələcəkdə nə növ ağır bir zərbə endirəcəyini bilmiş Pyotr meşələrin daha qırılmayaraq hifz olunması üçün "orman qanunları" icad etmişdir. Cənubda tənbəki əkmək, barama qurdu bəsləmək və üzümdən şərab çəkmək üçün imtiyazatlar [imtiyazlar] verilmişdi ki, bunlar da birinci ildən məhsul verməyə başladı.

Əhalinin heyvanati-beytiyyəsi [ev heyvanları] həm zəif və həm də az məhsuldar olduğundan naşi [ötrü], Hollandiya məmləkətindən qəviheykəl [güclü bədən quruluşuna malik] inəklər gətirilir ki, bugünkü məşhur "xalmaqor" inəkləri onlardan törəmişdir. Fabrikaların qoyun yununa böyük ehtiyacları olduğu üçün imperatorun hökmü ilə Kiyev və Azov quberniyalarında bir çox qoyun sürüləri bəslənilməsinə hökm verilir və bundan əlavə, Voronej quberniyasında at zavodları təsis olunub cins və qüvvətli atlar ortalığa gətirilir.

**3) Mədəniyyat [mədənçilik] islahatı**

Mədən qisimlərini kəşf etmək üçün xahişməndlərə [istəyənlərə] öz yerlərində, özgə yerlərində və xəzinə yerlərində, xülasə harada olursa-olsun yer qazıb mədən çıxarmağa izin verilir. Şəraiti isə 10 faiz "dağ xəracı" adı ilə xəzinəyə və mənfəətdən də 32 faiz yer sahibinə veriləcəkdi. Mədənçilərə mümaniət [maneçilik] göstərən yer sahiblərinə, yaxud gizlədənlərə böyük cəzalar verilir.

Tamam mədən işləri Yevropadan gətirilmiş Geniq adlı bir mühəndisə tapşırılmışdı. Bu şəxs qabaqca Olonets quberniyasındaki nohur və göllərdə dəmir kəşf edib zavodlar təsis etdi. Bu işin sürətlə tərəqqisi həman yerlərdə Petrozavodsk şəhərinin binasına bais olmuşdu. Sonralardan həman mühəndisin təşviq və tərğibi [rəğbətləndirməsi] ilə Ural dağlarında gümüş, mis, dəmir və şora mədənləri kəşf olunmuş idi. Bunları əridib tökmək üçün dövlət zavodları açıldı və bunları idarə etmək üçün Uralda imperatorun qadını namı ilə Yekaterinburq şəhəri təsis olundu.

Demidov familiyalı sadə bir qundaqsaza iş görmək üçün Ural dağlarında yerlər bağışlanır və xəzinədən də pul buraxılır. Az bir vaxtda Demidov məşhur zavodçulardan sayılıb bugünkü milyonçu Demidovlar sərvətinin də müəssisi [təsisçisi] və banisi olmuşdur.

Demidovun şöhrəti sairləri də işə cəlb etdi. Məsələn, o vaxta qədər Ural dağlarında duzçuluq ilə məşğul olmuş bəradərani-Stroqonovlar [Stroqonov qardaşları] özlərinə məxsus Ural torpaqlarında böyük zavodlar açmışlardır. Xülasə, mədəniyyat işləri öylə bir sürətlə tərəqqiyab olur ki, o vaxta qədər əcnəbi dəmirinə möhtac olmuş Rusiya bu dəfə özgələrinə dəmir satmaq məsələsinə müvəffəq olmuşdur. Dəmir zavodları ilə bərabər, dəmirdən məmul əslihə [dəmirdən düzəldilmiş silahlar] zavodları da açılır.

Lakin imperatorun ürəyində bəslədiyi ən böyük arzu və amalı "rus saldatını rus mahudu ilə libaslandırmaq" idi. Bu vaxtda cənub quberniyalarında saxlanılan qoyun sürülərindən daha yun hasil olurdu. Bu yundan imperatorun hökmü ilə təzə açılmış fabrikada boz mahud toxunub saldatlara birinci dəfə olaraq şinel tikildi. Bu vəqə [hadisə] imperatoru o dərəcə şad qıldı ki, hətta həman mahuddan əvvəlcə özünə saldat şineli tikilməsi üçün hökm vermişdi. Hazır olduğu əsnada əyninə geyib şad və xürrəm bir hal ilə küçə və bazarı dolanırdı. Mahud fabrikalarının ədədini artırmaq üçün imperator hökm vermişdi ki, beş ilin müddətində o qədər mahud fabrikası açılsın ki, daha əcnəbi mahuduna ehtiyac qalmasın. Filhəqiqə [doğrudan da], hələ imperatorun sağlığında bir çox rus saldatı rus mahudu ilə mülənbbəs [libas geymiş] və rus zavodlarında qayırılmış əslihələr ilə müsəlləh olmuşdu [silahlanmışdı].

İmperator ömrünün axırıncı günlərinə qədər 233 fabrika və zavod açdırmağa müvəffəq olmuşdu. Buradan hasil malların sürətlə rəvacı üçün 1724-cü ildə gömrük tarifi (таможенный тарифъ) sadir oldu [meydana çıxdı]. Bu tarifin mövcibincə [əsasında] bir çox əcnəbi mallarının Rusiyaya gətirilməsi tamam qadağan, bəzilərinə də 50-75 faizlə ağır bir gömrük qoyuldu ki, binaənileyh [o səbəbdən] bunların gətirilməsi çox baha tamam olduğu üçün əhali yavaş-yavaş vətən əmtəəsini alıb işlətməyə adətkərdə oldu.

**4) Türüq və məabir [nəqliyyat və rabitə] islahatı**

Rusiyanın Yevropa qitəsi ilə ticarət əlaqəsi dənizlərdən ancaq şimalda vaqe [yerləşən] Ağ dəniz vasitəsilə olurdu. Lakin bu dənizin ən böyük bir eybi var idi ki, tamam 9 ay donub, yalnız 3 ay buzdan açılırdı ki, bu da seyri-səfainin (навигація) [naviqasiyanın] müddətini daha da artıq gödəldirdi.

Bundan əlavə, Ağ dənizin mövqeyi-coğrafiyyəsi böylə düşmüşdür ki, həm Rusiyanın mərkəzlərindən kənar şimal tükənəcəyi və həm də Yevropadan uzaq bir iskələ [liman] idi. Hökumət işlərinin hamısından artıq bu məsələ imperatoru təşvişə salmışdı. Yevropaya yaxın bir su yolu açmaq üçün məmləkətin sərhədlərinə diqqət yetirildisə də, əcnəbi əllərində bulunan dənizlərdən birini dər-dəst etməkdən [ələ keçirməkdən] başqa ayrı bir çarə tapılmadı. Odur ki, cənubda Azak [Azov] dənizini türklərdən almaq üçün elani-hərb olundusa da, gözlənilən məqsəd hasil olmadı.

Cənub dənizlərindən naümid olmuş imperator qərbdəki dənizlərdən birini ələ gətirmək fikri ilə bu dəfə İsveç hökumətinə elani-hərb etməyə məcbur oldu. Bu müharibdən müvəffəqiyyət qazanmış imperator dərhal Baltik dənizinin səvahilində [sahillərində] Peterburq şəhəri ilə bərabər mükəmməl bir iskələ təmirinə mübaşir oldu [girişdi]. Daxili və xarici tacirlərin diqqətini yeni iskələyə cəlb etmək üçün bir çox imtiyazat verildisə də, yenə bir şey çıxmadı. Çünki tacirlərin Ağ dəniz kənarındakı vaqe Arxangelsk iskələsində ənvai [müxtəlif] müəssisələri, malları, anbarları, kantorları mövcud olduğu üçün oradan ayrılıb kənara getmək mümkün deyildi. Müntəzəm və ticarəti abad bir iskələni tullayıb, yeni və qeyri-məşhur bir iskələyə köçmək tacirlər üçün qorxulu bir məsələ idi. Odur ki, məşhur rus tacirlərinin oradan Peterburq iskələsinə köçməkləri üçün icbari bir hökm verildi. Kənar şəhərlərdən malların Arxangelskə göndərilməsi qətiyyən qadağan və Peterburqa göndərilməsi üçün də müsaidələr göstərilirdi. Bu minval ilə təzə iskələdən Baltik vasitəsilə Yevropaya yaxın su yolu açılıb, ticarət əlaqəsi get-gedə böyüyürdü. Burada ticarətin tərəqqisi üçün Rusiyada birinci dəfə olaraq 1723-cü ildə borsa (биржа) açılır. Üç ildən sonra təzə iskələnin ticarəti 4 milyona qərib [yaxın] olduğu halda, Arxangelsk tənəzzül edib axırda tacirlər tərəfindən unudulmuş kimi görülür.

Pyotri-Kəbir çox çalışırdı ki, rus malları rus tacirləri əli ilə rus vaporlarında [gəmilərində] göndərilib Yevropada satılsın və bunu icra etmək üçün bir çox əcnəbi vilayətlərində ticarət konsulxanaları açıldı.

İskələ məsələsi bitdikdən sonra daxili su yollarına əhəmiyyət verilir. Böylə ki, imperatorun fərmanı ilə 1703-1709-cu illərdə Vışnevoloç kanalı qazılıb ticarət gəmiləri işləməyə başlayır. Quru yollara sərf ediləcək qədər xəzinənin nəqdiyyəsi [pulu] olmadığı üçün hələlik Peterburq ilə Mosko [Moskva] arasında bir şose yolu çəkilir. Lakin bu yol bataqlıq və göllər arasından keçdiyi üçün tez-tez xarab olur. Odur ki, Moskodan Peterburqa gedən müsafirlər həftələrlə yolda məəttəl qalırdılar.

Poçta işləri o vaxta qədər pozğun bir halda idi. Bunu nizama salmaq üçün poçta işləri tamamən xəzinə ixtiyarına verilir və bundan sonra məşhur rus şəhərləri arasında poçta əlaqəsi yapılır.

O vaxtlar yevropalıların gözlərini xirələndirən [qamaşdıran] Hindistan əmtəəsi Pyotrun da diqqətini cəlb etmişdi. Hindistana gödək bir yol arayıb, ora mallarını Rusiyaya daşıyaraq buradan da Yevropa qitəsinə göndərmək xəyalı imperatoru ciddi düşündürürdü. Binaənileyh, İran məmləkətinə xüsusi elçi göndərildi ki, "Hindistandan Xəzər dənizinə axar bir nəhrin olub olmadığı məsələsi öyrənilsin". Bu vaxtlar rus-İran ticarəti tamamən erməni tacirləri əlində idi. Bunların Hacı-Tərxanda böyük kantorları mövcud idi. Ermənilər buraya gətirilmiş İran mallarını, ələlxüsus ipək qismini Hollandiyaya göndərib müqabilində də mahud gətirərək İrana aparırdılar. İşbu tranzit ticarətini tamamən öz əllərində birikdirmək üçün ermənilər imperatordan buna dair ayrıca icazə alırlar ki, İranda hasil olan baramanı Yevropaya göndərmək üçün Osmanlı sularını və yollarını tərk edib ancaq Rusiya yolları ilə göndərsinlər. Buna razı olaraq imperator erməniləri bəzi gömrük məxaricindən müəf [azad] edib ipək ticarətini də Rusiya dairəsində ermənilərdən başqalarına qadağan edir.

1716-cı ildə Hacı-Tərxana gətirilmiş İran və Buxara malları 446 min manatlıq olmuşdu. Yeni bu Şərq ticarətinin birinci tərəqqisi Şamaxı və İsfahan şəhərlərində ticarət konsulxanaları açmağına imperatoru vadar edir. Bundan sonra rus tacirləri İran ilə əlaqədar olub Rəştdə, Nizabadda və Şamaxıda ticarətə məşğul olurlar. Lakin bu halda İranda iğtişaş başlandığı üçün Dərbənd və Şamaxıda rus tacirlərini soymuşdular. Bundan istifadə edərək rus imperatoru İrana elani-hərb edir. Müharibənin nəticəsi olaraq Xəzər (Kaspi) dənizinin qərb və cənub cəhətləri Rusiya dövlətinə ilhaq olunur [birləşdirilir].

Xita [Çin] məmləkəti ilə başlanmış əlaqəni də sazlaşdırmaq üçün imperator hökm verir ki, oraya iki ildə bir dəfə rus karvanı göndərilsin ta ki, rus malları çoxalıb qiymətindən düşməsinlər.

İmperatorun arzu və amalı bulunan "müxtəsər Hindistan yolu" Kaspi dənizindən şərq cəhətlərində aranıldısa da, əsl məqsəd hasil olmadı. Zira Xivə və Buxaraya göndərilmiş səfir ora əhalisi ilə rəftarı bacarammayıb, həm özünü və həm yanındakı rus qoşununu fəlakətə verdi. Bir bu qədər rus ticarəti üçün ciddü-cəhd etmiş imperator Pyotri-Kəbirin varisləri isə babaları kimi artıq iş görə bilməmişlərdir. Bunların səyləri ancaq Pyotr başladığı işləri axıra yetirmək və bəzilərini də hətta pozmaq idi.

Birinci Katerina əsnasında Pyotrun vəsiyyətinə əməl olaraq rus mallarından üç gəmi İspaniyaya göndərilib satılırsa da, sonralardan bunun dalınca gedən olmayıb İspaniyanın ticarət əlaqəsi də pozulur. Həmçinin İtaliya, Fransa və Hollandiya ilə də ticarət əlaqəsi başa gəlməyir. Bundan istifadə edərək əcnəbi tacirləri və ələlxüsus ingilislər Rusiyanın xarici ticarətini ələ alıb, rus mallarını Yevropa qitəsinə daşıyırlar. Odur ki, rus malı almaq üçün əcnəbilər ruslara yox, ingilislərə müraciət edirlər.

1755-ci ildə İran ticarətini böyütmək üçün rus tacirləri bir şirkət yapırlar. O vaxta qədər bu ticarəti özlərinə məxsus bir "vərəsə" ədd [hesab] etmiş Hacı-Tərxandakı erməni tacirləri yeni şirkətin qapadılması üçün çox səylər yapdılarsa da, məqsədlərinə nail olammadılar. Naəlac qalaraq özlərini 600 min rublə sərmayə ilə bu şirkətə daxil edib yenə işləri ələ almağa müvəffəq oldular.

Asiyayi-vüsta [Orta Asiya] ticarətinə müavinət [kömək] göstərmək üçün 1734-cü ildə Orenburq şəhəri təsis olunur. Binaənileyh [ona görə], Buxara və Daşkənd karvanları ilə Şərq malları buraya gətirilir. Bundan əlavə, rus tacirləri Orenburqdan cənuba doğru irəliləyərək Balka şəhərinə qədər gedib, burada Hindistan tacirlərinə rast gəlirdilər və burada mübadilə edib hind malları ilə Rusiyaya qayıdırdılar.

Ticarət işlərini asanlaşdırmaq üçün 1729-cu ildə birinci dəfə olaraq "Veksel Nizamnaməsi" tərtib verildi. Bu qanuna görə, pul müaməlesi 12-15 və hətta 20 faiz olduğu üçün çox-çox ağır idi. Rusiyanın bugünkü bankaları Pyotrun qızı Elizabet əsnasında açılmışdır. Faiz miqdarı isə 6 % qədər enmişdir.

Bu vaxtlar imperatoriçələrə müqərrəb [yaxın] bəzi əsilzadələr ticarət işlərinə müdaxilə edib böyük fənalıqlar yapırdılar. Böylə ki, 1757-ci ildə qraf [Mixail İllarionoviç] Vorontsov əcnəbilərə taxıl satmaq ixtiyarını alıb, sairlərini qoymayırdı. Sair bir qraf da [Aleksandr İvanoviç] Şuvalov bu üsul ilə Rusiyanın meşə və tənbəki ticarətini ələ almışdı. Böylə fənalıqların nəticəsi olaraq daxili ticarət xaricisindən heç olmasa iki dəfə də artmamışdı. İşbu ticarət tənəzzülü İkinci Katerina dövrünə qədər davam edib, bu qadının səy və hümməti ilə yenə parlamağa başlayır. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

*Ədəbi sütunlar*

## ƏSGƏRLƏRİMİZƏ - KÖNÜLLÜLƏRİMİZƏ

Millətin namusu sizdən çox şücaət gözləyir,
Dövləti-növzadi-milli qalibiyyət gözləyir.
Bəkləyir sizdən zəfər atimiz, istiqlalımız,
Şanlı qeyrət, şanlı hümmət, şanlı cür'ət gözləyir.
Bir baxın nisvani-iffətpərvəri-millimizə
Dideyi-ümmid ilə sizdən həmiyyət gözləyir.
Payimali-düşmən olsunmu çəmənzari-vətən?
Yurdumuz sizdən bu gün çox ali hümmət
gözləyir.
Hifz üçün əğyar əlindən dilbəri-hürriyyəti
Müstəqil olmuş vətən əzmü-mətanət gözləyir.
Qoymayın olsun xəzan gülzari-istiqlalımız,
Sizdən istiqlalımız parlaq təravət gözləyir.
Millətin heysiyyətin yüksəldin ey qeyrətvəran!
Millətim sizdən böyük şanü-şərafət gözləyir.
Şanlı ölmək ölməməkdir, anlayın bu hikməti
Pürşərəf kim can verərsə anı rəhmət gözləyir.
Millətim istər ürəkdən çox şərəfli bir həyat.
Anlasın, etsin bunu idrak əhli-kainat!

*Bakı, 21 nisan 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## BAKI XƏBƏRLƏRİ

**Rüstəmbəyovun əziməti**

Kuban Hökuməti nəzdinə Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəliyinə Cəfər bəy Rüstəmbəyov təyin edilmişdir. Rüstəmbəyov cənabları keçən gecə xüsusi tren [qatar] ilə məmuriyyətinə əzimət etmişdir [yola düşmüşdür].

**Qatarın dayanması haqqında**

Əmirhacıyan və Bülbülə kəndlərinin əhalisi Bakı-Sabunçu-Suraxanı qatarının məzkur [deyilən] kəndlərin arasında olan "Beş budka" denilən yerdə kiçik mövqifdə [stansiyada] Keşlədə olduğu kimi bir qədər dayanması haqqında dəfəatla [dəfələrlə] lazımi yerlərinə müraciətdə bulunmuşdularsa da, müvəffəqiyyət hasil edəmməmişlərdi. Böylə ki, qatarın məzkur yerdə dayanması üçün binagüzarlıq edildiyinə [sərəncam verildiyinə] baxmayaraq, naçalnik Lazarev buna razı olmayırdı. İndi həman kəndlərin əhalisi Azərbaycan Cümhuriyyəti Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən bu barədə, yəni qatarın məzkur yerdə dayanmasından ötrü binagüzarlıq edilməsini rica etmişlərdir.

**Təshih [düzəliş]**

Dünənki nömrəmizdə "Bakı xəbərləri" qismində Tağıyev fabrikasında qulluq edən Hacı İsmayılzadə və Hacı Möhsün Kazımzadə "Müsavat" firqəsinə müraciətlə, onlara müdiriyyət tərəfindən edilən zülüm və əziyyətdən şikayət etmişlər və ilaxır, deyə bir fəqərə [hadisə] dərc edilmişdi. Halbuki, həmin şikayət Cəfər Bəndəli oğlu tərəfindən öz xozeyinləri olan Hacı Kazım İsmayılzadə və Hacı Mirabdulla Mirmöhsünzadədən edilmişdir. Mühərririn xətası olduğunu göstərərək, bu barədə təshihi-keyfiyyət ediriz.

**Maştağa kəndindən**

*(İdarəyə məktub)*

Neçə dəfələr bizim kəndin fəqirlərinə pul, bez, ərzaq paylanıbdır. Amma bu zavallıların şəhərdən gətirilən qismətlərindən bir qismət də kənddə ayrılır və hətta bəzi hərəkətlərdən çoxlarına çatmayıb, bu xainanə məsələləri müzakirəyə qoyanda məhəllə ayrılığı münasibətilə çoxları o biri məhəllə vəkillərinin xainliyi barəsində danışmağa haqsız olmaqla tamam olur. Halbuki bu ərzaq beytülmaldır və ruhani atalar əli ilə verilməlidir, nə belə xainlər əli ilə. Qəzetə vasitəsilə rica edirik, pulsuz verilən ərzaq ruhanilər əli ilə verilsin.

*Mətləb Hüseynzadə*

## FƏHLƏ HƏYATI

**Suraxanıda mühazirə**

Aprel ayının 22-də düşənbə [bazar ertəsi] günü saat 1-də Suraxanıda "Narodnı dom"da [Xalq evində] "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə cənabları "Qafqaziya cümhuriyyətləri və Könüllü ordu" ünvanı ilə mühazirə oxuyacaq və Səməd bəy Əliisgəndərzadə cənabları Azərbaycanın əyalətləri xüsusunda dakladda bulunacaqdır.

**İranlıların iclası**

Biz mədən dairəsində olan İran füqərayi-kasibəsi keçən cümə günü aprelin 4-də iki il bundan əqdəm [qabaq] füqərayi-kasibənin 300-ə qədər uşaqları oxudulan "Təməddün" məktəbinin o xarabazara dönmüş məktəb binasına cəm olub, çox danışıqdan sonra 7 nəfərdən ibarət bir heyəti-idarə seçdik ki, həmin heyət bu aprel ayının 11-ci gününə bir iclas çağırsın. Hər 50 adama bir adam seçilib bu cümə aprel ayının 11-də cəm olduq "Təməddün" məktəbinin imarətinə. 400-dən artıq vəkil gəlmişdi.

Möhtərəm "Müsavat" firqəsinin üzvü Məşhədi Həmid Paşazadə cənablarını camaat bir səslə məclisə sədr intixab edib [seçib], usta Rəhman Qənbərəlizadəni katib etdilər. Sədri-məclis nə üçün çağırıldığını camaata elan etdikdən sonra bir neçə adam danışıb, bədəhu [sonra] müvəqqəti heyəti-idarə siyahısını məclisə təqdim etdi. Məclis həmin heyəti bir səslə təsdiq edib 5 nəfərdən əlavə onlara köməkçi verdilər. Seçkidən sonra bir fəhlə nitqə başlayıb deyir:

*"Ey vətəndaşlar! Zalım şahın zülmündən xilas olmaq üçün biz İran camaatı bir neçə il bundan əqdəm [qabaq] silaha sarılıb, zalım Məhəmmədəli şahın hökumətini yıxıb, onun yerində məşrutəli [konstitusiyalı] bir hökumət qoyduq ki, biz füqərayi-kasibə bir gunə [bir növ] azad dolanaq, amma Nikolay zalımın o qəddar generalı Lyaxov bizim o müqəddəs binamızı İran zalımlarının köməyi ilə yıxıb bərbad etdi. Vətəndaşlar, hərçənd o bina yıxıldı, amma iranlı oğlunun məsləyi yıxılmadı. O, məşrutə qanunu üzrə davam etdi və bir də bu adamları ki, biz seçdik, yoldaşlar, bunların vəzifələri budur ki:*

*1) "Təməddün" məktəbinin əşyaları kimdə olmuş olsa, alıb yerinə qoysunlar və məktəbin skamyalarını və hər bir ləvazimatını düzəltsinlər ki, uşaqlarımız bundan artıq avara qalmasınlar.*

*2) Səidülvüzəra cənablarından tələb etsinlər bu məktəbin adından, genə bu Ramazan xan ki, bu qədər füqəraya zülüm edir, buradan bunu əzl etsin [qovsun] və onun yerinə gələn cənab da böylə olsa gəlməsin. Hansı bir nümayəndə füqərayi-kasibəni əzməyə, rüşvət almaya, bizə vacibdir onu hökumətimizin nümayəndəsi bilib, ona var qüvvəmizlə kömək edək.*

*3) Biz bu intixab etdiyimiz adamlara ixtiyar veririk, hər barədə biz füqərayi-kasibəni mühafizə etmək üçün hökumət nümayəndəsi yanında təşəbbüsatda bulunsunlar. Çarə olmasa lazımi məhallinə [lazımi yerə] məlum edib, bizləri onun şərindən xilas etsinlər. Səbəb ki, bizim vilayəti-İran bu saat məşrutə üzrə idarə olunur, binaənileyh [ona görə], gərəkdir bizim nümayəndələrimiz də bizlə qanunla rəftar etsin, nəinki rüşvət yemək, ölənlərinin qanını alıb iki özü götürüb, bir də sahibinə verməklə. Qətiyyən böylə şeylər gərək olmasın."*

Bu arada bir nəfər məclisdə həqiqi səsi olmayan bir adam istədi ki, məclisə bir iğtişaş sala. Cənabi-sədr onun sözünü kəsib, çünki məsələdən xaric olmuşdu, məclisdən xahiş etdilər ki, "Həzərat, bu adama söz verilsin, məsələdən xaric, ya yox?" Camaat bir səslə dedilər ki, "Nəinki ona söz, hətta onu biz iclasdan xaric edərik, səbəb, o xaindir, istəyir iclasa iğtişaş sala, biz də duraq gedək." Sədr səsə qoydu. Camaat bir səslə o xaini məclisdən ixrac etdi. Natiq sözə başlayıb dedi:

*"Camaat, bəsdir nə qədər biz bu Ramazan xanın zülmünə tab etdik. Lazımdır biz də bir siyasi firqə düzəldib böylə zalımların qabağını almaq."*

Camaat tamamən bu təklifi qəbul edib və ixtiyar verdilər sədr cənablarına bu qətnaməni qəzetəyə versin.

*Sədr: Məşhədi Həmid Paşazadə*
*Katib: Usta Rəhman*

**Fəhlə iclası**

19 nisan tarixində şənbə günü saat 9 radələrində "Kaspi yoldaşları"nın Zabrat mədən evlərində məzkur [adı çəkilən] şirkətin Balaxanı, Sabunçu dairələrində bulunan bütün mədənlərinin müsəlman işçiləri tətil edərək mitinq tərtib vermişlərdi.

Mitinqdə Nobel yoldaşlarının 3, 4, 5, 6, 7-ci mədənlərində, Lianozov Zabrat mədənində, Rotşild yoldaşlarının 38, 46, 107-ci mədənlərində, Ter-Akopov, Əsədullayev, "Moskovski", Musa Nağıyev, İretski mədənlərində çalışan müsəlman işçilərinin tərəfindən nümayəndələr dəxi iştirak edirdilər.

Sədr kənar mədənlərdən gələn nümayəndələrə xitabən bildirir ki:

*"Tətil etməkdən məqsədimiz haqlı bir tələbimizi qəbul etdirməkdir. Vəilla [yoxsa] heç bir siyasi və iqtisadi mənzurumuz [niyyətimiz] yoxdur. Keçən Mart hadisəsində həmin bu mənzildə sükunət edən [yaşayan] yoldaşlarımızdan 27 nəfəri xunxar [qaniçən] alçaqlar tərəfindən fəcianə [faciəvi] bir surətdə qətl edilərək quyulara doldur[ul]ublar. Məzlum arxadaşlarımızın qətlində iştirak etmiş canilərdən "Usta Baxşı" [Saturov] nam [adlı] bir nəfər erməni "Kaspi" yoldaşlarının Paçevski mədəninə prikazşik təyin edilmiş. Biz müsəlman işçiləri qardaşlarımızın qatili gözümüzün qabağında dolanmasına laqeyd qala bilməzdik. Kəndi əlimizlə intiqam almaq da hökumətimətbuəmizə [vətəndaşı olduğumuz hökumətə] qarşı sui-ədəb [ədəbsizlik] kimi tələqqi edəcəyi [qiymətləndiriləcəyi] şübhəsiz idi. Binaənileyh [ona görə], məzkur [deyilən] canini mədəndən kənar etmək zimnində [barəsində] kantora müraciət etdik.*

*İki həftə müddəti olar ki, təkrar müraciətimiz nəticə verməmədiyindən maəda [əlavə], məzkur cani kəndi həmfikirlərindən ətrafına toplamağa şüru etmiş [başlamış]. İki gün əqdəm kantora caniləri mədəndən qovmadığı təqdirdə bütün "Kaspi" mədənlərini dayandıracağımızı ittila [xəbər] verdik. Tələbimizə etina edilmədi, tətil etdik. Şimdi bu mənzildə sükunət edən yoldaşlardan keçən ildə Mart faciəsində icra edilən cinayətlərdə Usta Baxşı namdan rəyüleyn [öz gözləri ilə] müşahidə etdiklərini haziruna ittila versinlər."*

[1)]Məşhədi Xəlil İsmayıl oğlu deyir ki:

*"Keçən il davanın ikinci günü şu mənzilləri təxliyə edib fərar edənlərin cümləsində mən də Zabrat kəndinə qaçdım. Sabahkı gün qalan əşyamı çıxarmaq və mənzillərdə qalan yoldaşlardan ittila hasil etmək [xəbər bilmək] sədədi [məqsədi] ilə gəlib həyətə baxdıqda, gördüm Usta Baxşı neçə nəfər müsəlləh [silahlı] canilərlə yoldaşımızdan Nəbi namı cəbrən mənzilə daxil etdilər. Bir az keçmədən güllə açıldı."*

2) Hacıbaba Rza oğlu dedi:

*"Yoldaşlar! Yoldaşımız dediyi kimi, davanın ikinci günü qaçanların cümləsində mən də Ramanı qəryəsinə [kəndinə] getmişdim. İki gün sonra saat 9 radələrində yoldaşlardan xəbər bilmək üçün gəlib gördüm Usta Baxşı durub həyətin vəsətində [ortasında]. Dağıstanlılardan Şalay nam mənzilindən həyətə çıxınca, Usta Baxşı məiyyətində [ətrafında] bulunan müsəlləh canilərə "Vurun!" deyə əmr verdi. Canilər isə filfövr [dərhal] biçarəni su boçkasının yanındaca qətl etdilər. Mütəaqibən [ardınca] iki nəfər qarabağlı Cəbrayıl namı mənzilindən kənara çəkdilər. Usta Baxşı kəndi əli ilə xəncəri Cəbrayıl namın qarnına soxdu."*

3) Məhəmmədsadıq nam ayağa qalxıb dedi:

*"Həzərat! Mən Zabrat kəndində idim. Xəbər gətirdilər ki, qardaşını tutublar. Bu dəhşətli xəbəri eşitdikdə üz qoydum həmin evlərə tərəf gəlməyə. Yaxınlaşdıqda gördüm divarın dibində bir çuxur yerdə Usta Baxşı iki nəfər başqa ermənilər məiyyəti ilə bir nəfəri xəncər ilə qətl edirlər. Kənardan əhvalı böylə gördükdə, fövrən [dərhal] Zabrat tərəfə qayıtdım. Həmin zikr etdiyim hadisə Hacıbaba yoldaşımız dediyi kimi, mənzildən çıxandan iki gün sonra ittifaq düşdü [baş verdi], ancaq mən əsr vaxtı [axşam] saat 4 radələrində bu ittifaqa təsadüf etdim."*

Məruzəçiləri mütəaqib [məruzəçilərin ardınca], ətraf mədənlərdən gəlmiş nümayəndələr birər-birər hərarətli nitqlər irad edərək [söyləyərək] "Kaspi" mədənləri işçi yoldaş və irqdaşlarının tələblərini qəbul etdirmək uğrunda həmə cür [hər cür] müzahirət və müavinətə [dəstək və köməyə] hazır olduqlarını izhar etdilər. Bədəhu [sonra] sədr camaata qəti qərar qəbulunu təklif etdi.

Müzakirat nəticəsində mitinq namından caniləri mədənlərdən kənar etdirmək xüsusunda Məsai Nəzarətinə [Əmək Nazirliyinə] və tövqif birlə istintaq bə'dində mühakimə edilməsi zimnində [həbs edilərək istiqtaqdan sonra məhkəməyə çıxarılması barəsində] Bakı vilayəti müddəiyi-ümumiliyinə [prokurorluğuna] müraciət edilməsi ittifaqi-ara ilə [yekdilliklə] qət və təsvib edildi [qərara alındı və təsdiqləndi]. Əslinə mütabiqdir [uyğundur].

*Sədr: Cənnət Baxşəli oğlu*
*Katib: Məcid Sadiqzadə*

## ŞİKAYƏT

*(Məşixətin*
*[Şeyxülislamlıq İdarəsinin]*
*nəzər-diqqətinə)*

Möhtərəm müdir əfəndi, rica edirik bizim bu neçə kəlmə şikayətimizi möhtərəm "Azərbaycan" qəzetəsinin bir guşəsində dərc buyurasınız.

Neçə ildən bəridir ki, Quba uyezdində Carxı icmasında ruhanilik vəzifəsini ifa edən molla Mehdiqulu Kərbəlayi Daşdəmir oğlu nam [adlı] molla, biçarə camaatın başına olmazın bəlalar gətirməkdədir. Həqiqəti kəşf etməkdən ötrü zeyldəki [aşağıdakı] əhvalatı bildirməyi mənfəətdən xali bilməyirik. İştə, əhvalat bu qərar ilədir:

Carxı icmasında Qaraçaylı kəndində mərhum Məşhədi Əbusəttar ilə Hacı Ağahüseyn Kərəm oğlunun dəyirmanı var şərakətli [ortaq]. Məzkur Hacı Ağa-hüseyn Kərəm oğlunun hissəsini məzkur molla Mehdiqulu, bizim heç şeydən xəbərimiz yox, 1916-cı ilin iyun ayının 3 tarixli saxta bir kağız ilə Qaraçaylı kəndinin sakini mərhum Məşhədi Qoca Kərbəlayi Məhəmməd oğluna 400 manata satar və neçə nəfərin dilindən saxta imzalar da qoyar. Dəyirman sahibi Hacı Ağahüseyn Kərəm oğlunun dilindən bu kağızı yazdığı kimi, iki nəfər də şahid yazar, onların əvəzindən də həman vərəqəni imza edər. Həman şəxslər də bunlardır: Məşhədi Kərim İsmayıl oğlu və Mustafaqulu Ağabala oğlu. Guya bu şəxslər dəyirman satanda şahid olmuşlar, vəhalonki [halbuki] bir kəlmə də olsa onlar bu barədə bir şey bilməyirlər.

Fürsətdən istifadə edib kamali-cəsarətlə bunu da əlavə edirik ki, məzkur molla özünü Carxı icmasında sərbəst bir hökmran hesab edir. Nümunə olaraq bir sübut dəxi göstərə bilərik. Böylə ki, həman icmada nə qədər nikah işi olsa mollanın oğlu molla Əbülqasım ağa kəsməlidir. Başqa bir molla böylə işlərə müdaxilə etsə, molla Mehdiqulu ağa tərəfindən cəzaya giriftar olacaqdır.

Bunlardan əlavə, icmada nə qədər bivaris ölən olsa, cənab molla mütləq özünü "apekun" (qəyyum) təyin edir və mərhumdan qalma əmlak və qeyri varidatı bir neçə günün ərzində təmələllük edib [sahiblənib], işləri sərəncam edir.

Bu sətirləri yazmaqda öylə xəyal etməsinlər ki, bizim molla ilə bir ədavətimiz var. Xeyr, əstəğfirullah. Biz fəqət bədbəxt camaatımızı qəflət yuxusundan ayıltmaqla bərabər, əziz və cavan Azərbaycanımızın paytaxtında yaşayan möhtərəm Məşixət İdarəsinin diqqətini məzkur [adı çəkilən] mollanın işlərinə cəlb edirik. Burası da məxfi qalmasın ki, həman yuxarıda ərz etdiyimiz saxta kağız bizim əlimizdədir ki, bugünlərdə ərizə ilə bərabər divanxanaya verəcəyik. Qoy orada müfəttişlər gəlib bizim imzamızın əsil və ya saxta olduğunu təhqiq etsinlər və müqəssiri öz cəzasına yetirsinlər.

*(İmza)*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"…mayın 10-u olduğunu yəqin söyləyəcəkdir.": qəzetdə "yəqin" yerinə "təyin" getmişdir.

"1871-ci sənə Frankfurt müahidənaməsi imza edilən günə.": Fransanın məğlubiyyəti ilə başa çatan 1870-1871-ci illər Fransa-Prussiya müharibəsi nəticəsində Frankfurtda 10 may 1871-ci ildə sülh sazişi imzalanmışdı.

***Sülh ətrafında***

"İngilislər bolşeviklər haqqında": bu xəbər kiçik fərqlərlə "Azərbaycan" qəzetinin 161-ci nömrəsində "Teleqraf xəbərləri" bölməsində "Bolşeviklər haqqında Avamlar Kamerasında" adı altında getmişdir.

"Avam Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"Saar": qəzetdə səhvən "Sara" kimi getmişdir; Almaniyanın qərbində, Fransa sərhədi yaxınlığında yerləşən və o dövrdə kömür istehsalı mərkəzlərindən biri olan Saar [Saarland] nəzərdə tutulur.

***Qəzetələrdən***

"əmiri-Buxara": Buxaranın sonuncu əmiri Alim xan nəzərdə tutulur.

"Çarcu": Türkmənistanda indiki Türkmənabad şəhəri.

"Qurbanqala": Türkmənistanda, Mərv şəhərindən təxminən 15 km şərqdə dəmiryol stansiyası.

"Ravnina istasyonu": Türkmənistanda Marı-Türkmənabad arasında dəmiryol xətti yaxınlığında şəhərtipli qəsəbə; hal-hazırda Bərqərar adlanır. Ravnina stansiyasının adı qəzetdə "Ravnani" kimi getmişdir.

***Yəhudi hökuməti***

"Yeni qəzetə": İstanbulda 1908-1913 və 1918-1919-cu illərdə türk dilində nəşr edilmiş qəzet.

"Jurnal de Deba" (yaxud "Jurnal de Deba Politik e Literer") [Journal des Débats Politiques et Littéraires]: 1789-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

"saheyi-Yəhuda": e. ə. X əsrlə e. ə. VI əsr arasında mövcud olmuş Yəhuda krallığı nəzərdə tutulur.

"tərbiyi-dairə": "dairənin kvadrata çevrilməsi"; sahəsi verilən bir dairə ilə eyni sahəyə malik bir kvadratın çəkilməsi. Bu məsələ həndəsənin çətin məsələlərindən biri olmuşdur.

***Ermənilərin müdafiəsi***

"Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

"mütəsərrif": Osmanlıda il və ilçə arasındakı inzibati ərazi vahidi olan sancağın idarəçisi.

"icrayi-təhəkküm": qəzetdə "icrayi-təhkim" getmişdir.

***Çağırılacaq beynəlmiləl konfrans münasibətilə Naxçıvan və Şərur mahalları***

"Sabiq Qafqaziya canişini dəftərxanasının kalendarında…": 1845-1916-cı illərdə Tiflisdə çap edilən, Qafqaz haqqında illik məlumat kitabı olan "Kavkazskiy kalendar" nəzərdə tutulur.

"Şah Abbasi-kəbir": (Böyük Şah Abbas) 1587-1629-cu illərdə hakimiyyətdə olan Səfəvi şahı I Abbas.

***Cənub-Qərbi Qafqaziya Cümhuriyyəti***

"berdanka": (yaxud Berdan tüfəngi) təkatılan tüfəng növü. Amerikalı odlu silah ixtiraçısı Hayrem Berdanın [Hiram Berdan] şərəfinə adlandırılmışdır. Rusiya imperiyası ərazisində XIX əsrin ikinci yarısından XX əsrin ortalarına qədər istifadə edilmişdir.

***Rus ticarətinin tarixi***

"Ostzey": Baltik dənizinin almanca [Ostsee] və bəzi digər dillərdə adı; qədim rus mənbələrində də bu ada rast gəlmək olur.

"xalmaqor" (xolmoqor): südlük inək cinsi; adını Arxangelsk quberniyasının Xolmoqorsk uyezdindən götürmüşdür.

"Geniq": alman əsilli mühəndis Hennin (əcdadlarının familiyası Henninq olmuşdur) nəzərdə tutulur, təhrif edilmişdir.

"imperatorun qadınının namı ilə": Yekaterinbuq şəhəri I Pyotrun arvadı I Yekaterinanın şərəfinə adlandırılmışdır.

"Pyotrun qızı Elizabet": 1741-1762-ci illərdə hakimiyyətdə olan Rusiya imperatriçası Yelizaveta Petrovna.

"İkinci Katerina": 1762-1796-cı illərdə hakimiyyətdə olan Rusiya imperatriçası II Yekaterina.

***"Əsgərlərimizə – könüllülərimizə" şeiri (səh. 414) üçün lüğət:***

dövləti-növzadi-milli: yeni yaranmış milli dövlət
ati: gələcək
nisvani-iffətpərvəri-milli: millətin ismətli qadınları
dideyi-ümmid: ümid gözü, ümidlə baxan göz
həmiyyət: qeyrət, təəssüb
paymali-düşmən: düşmən tapdağı
çəmənzari-vətən: vətən çəmənliyi, vətən bağı
əğyar: düşmən
qeyrətvəran: qeyrətlilər
pürşərəf: çox şərəfli
anı: onu

***Bakı xəbərləri***

"beytülmal": dövlət xəzinəsinə məxsus olan şey.

***Fəhlə həyatı***

"Kaspi yoldaşları": Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan, əsası 1886-cı ildə Qukasov (Qukasyan) qardaşları tərəfindən qoyulan "Kaspi ortaqlığı" [Каспийское товарищество] şirkəti nəzərdə tutulur.





# Mədəniyyət





● 1 Oktyabr Beynəlxalq Musiqi Günüdür

## Bir ömrün məhəbbət əfsanəsi

**Elə sənətkarlar var ki, sağlıqlarında düşünürsən ki, bir gün dünyadan köçsələr, onların yerində çox böyük bir boşluq qalacaq. Amma bu, belə deyil. Bu insanların yoxluqları dövründə onları bir-birindən möhtəşəm əsərləri əvəz edir. Dünyanın mədəniyyət xəzinəsinə bəxş etdikləri misilsiz irs külli halında bir yerə toplanıb həmin insanların canlı abidəsini ucaldır, onlara əbədiyyət qazandırır. Artıq 5 ilə yaxındır ki, aramızda olmayan görkəmli bəstəkar Arif Məlikov da zəngin musiqi xəzinəsi ilə əbədiyyət ömrünü davam etdirən belə yaradıcı şəxsiyyətlərimizdəndir.**



İnsanın istedadının yaşın erkən çağlarında parlaması, bu istedadın dahiyanəliyini hər kəsin etiraf etməsi taleyin ikiqat hədiyyəsidir. "Məhəbbət əfsanəsi" baleti ilə dünya şöhrəti qazananda Arif Məlikovun cəmi 26 yaşı vardı. Bütün dünya bu əsərlə gənc Azərbaycan bəstəkarının parlaq istedadına heyran oldu. Yaradıcı ömrün davamı isə göstərdi ki, tale Arif Məlikova təkcə fitri istedad verməyib, eyni zamanda bu istedadın qədrini bilmək, qorumaq, zaman-zaman təkmilləşdirmək üçün yüksək məsuliyyət, əməksevərlik də nəsib edib. Bu baxımdan erkən gəlmiş şöhrət Arif Məlikovun sənət uğurunun yenilərinə yol açdı. Bu, bəlkə də görkəmli bəstəkarın ruhən, qəlbən musiqiçi olması ilə bağlı idi. Arif Məlikov ən yüksək səviyyədə musiqi təhsili almışdı, bu sahədə peşəkar bilik və bacarıqlara malik idi. Əlbəttə, əsərlərinin dahiyanə alınmasında təhsilin, illərlə davam edən gərgin hazırlıqların da mühüm rolu vardı. Bununla belə onun əsərlərini dinləyəndə görürsən ki, sənətdə bu səviyyəyə gəlib çatmaq təkcə təhsilin, qazanılmış vərdişlərin işi deyil, bu, ruh məsələsidir, musiqinin damarlarda axan qana qarışıb insanın varlığının bir parçasına çevrilməsidir.

### Qara Qarayevdən ustad dərsləri

Arif Məlikovun konservatoriyada təhsil alarkən dahi bəstəkar Qara Qarayevlə rastlaşması, onun sinfində təhsil alması da taleyin gənc musiqiçiyə xoş bir məramı idi. Arif Məlikov özü də illər sonra deyirdi ki, həyatda çox şeyə nail olmağı məhz Qara Qarayevlə ünsiyyətinin nəticəsidir.

Qara Qarayev dahiliyinin cazibəsi, ondan aldığı mükəmməl ustad dərsi Arif Məlikovun musiqiyə sonsuz sevgisi ilə birləşəndə ortaya qiymətli əsərlər çıxır. Gənc bəstəkar hələ tələbəlik illərində simfonik orkestr üçün "Balet süitası", "Nağıl" simfonik poeması, fleyta və orkestr üçün "Konsertino" və Birinci Simfoniya əsərlərini bəstələyir. Bu əsərlər musiqi ictimaiyyətinin diqqətini cəlb etməyə başlayır. Hər kəs onun böyük bir bəstəkar kimi tanınacağına əmin olur. Elə bu əminliklə də müəllimi Qara Qarayev 1959-cu ildə Sankt-Peterburq Opera və Balet Teatrı üçün A.Məlikova Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesi əsasında balet yazmasını təklif edir. Beləliklə, 26 yaşlı bəstəkar şair N.Hikmət, baletmeyster Qriqoroviç, rəssam Virsaladze və dirijor Niyazidən ibarət yaradıcı heyətlə qısa zamanda dünya musiqi xəzinəsinin ən qiymətli incilərindən birini ərsəyə gətirir.

A.Məlikovun musiqi duyumu, peşəkarlıq bacarıqları o qədər güclü idi ki, baletin hər incə detalını əvvəlcədən görür, librettoda da bütün məqamların musiqiyə uyğun şəkildə yerli-yerində olmasına çalışır. Ona görə gənc bəstəkar Nazim Hikmətin librettosunda bəzi dəyişikliklər də edir, unudulmaz şair isə bu dəyişiklikləri razılıqla qarşılayır.

Nazim Hikmət özü "Məhəbbət əfsanəsi"ni ilk dəfə səhnədə görəndən sonra demişdi: "Arif Məlikov mənə deyəndə ki, "Məhəbbət əfsanəsi" baleti yazmaq istəyirəm, həmin gün çox şad oldum. Bu gün gördüklərim təsdiqlədi ki, nahaq yerə sevinməmişəm. Bir daha əmin oldum ki, balet muzey incəsənəti deyil, bu, müasir incəsənətdir. Mən çox həyəcanlanırdım ki, səhnədə Şərq necə görünəcək. Arif Məlikov baletdə Şərq adamına müasir insanın dünyabaxışı ilə baxıb. Buna görə də əsərdə "şirin" Şərqdən, "Əlibaba və qırx quldur" nağılından əsər-əlamət yoxdur. Və bu da yeni baleti teatr tamaşalarından tamam fərqləndirib".



"Məhəbbət əfsanəsi"nin 1961-ci ildə S.M.Kirov adına məşhur Leninqrad Akademik Opera və Balet Teatrının (indi Sankt-Peterburqun Mariinski teatrı) səhnəsindəki ilk tamaşasından sonra dahi bəstəkar Dmitri Şostakoviç də gənc həmkarının yüksək istedadını etiraf edir, xoş sözlərini ondan əsirgəmir: "Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkşafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir".

### Musiqidə yeni dövrün müəllifi

Əfsanəvi balerina Maya Plisetskaya isə dramatik obraz baxımından "Məhəbbət əfsanəsi"ndən yüksək tamaşa tanımadığını vurğulayırdı. 26 yaşlı Arif Məlikov bu əsəri ilə dünya musiqi tarixində yeni bir dövrün əsasını qoymuşdu. Əsər indiyə qədər dünyanın 60-dan çox ölkəsində oynanılıb və böyük tamaşaçı sevgisi ilə qarşılanıb. Hətta Moskvada "Məhəbbət əfsanəsi" baleti haqqında ayrıca kitab çapdan çıxıb. Burada yarım əsrdən də çox müddət ərzində baletə tamaşa edənlərin adları yazılıb. Müxtəlif ölkələrdə təşkil edilən nümayişlər zamanı "Məhəbbət əfsanəsi"ndə dünyanın adlı-sanlı balerinaları rol alıblar.

Nazim Hikmət yaradıcılığına sevgi isə bəstəkarın sonrakı əsərlərində də öz ifadəsini tapır. Arif Məlikovun ötən əsrin 60-cı illərində bəstələdiyi "Şən", "Lay-lay", "Təəssürat", "Yarımı yuxuda gördüm" romansları buna nümunədir. Bu romanslarda N.Hikmət şeirlərinin lirik-psixoloji aləmi musiqinin rəngarəng çalarları ilə canlandırılır. O, Nazim Hikmət yaradıcılığına 1980-ci illərdə növbəti dəfə müraciət etmiş, onun şeirləri əsasında ikinci vokal silsiləsini yaratmışdı.

Bir bəstəkar kimi Arif Məlikovun uğurunun mühüm sirlərindən biri onun yaradıcılığının əhatə dairəsinin son dərəcə genişliyi, müraciət etdiyi janrların çoxluğudur. 8 simfoniya, "Nağıl", "Füzulinin xatirəsinə", "Metamorfozlar" simfonik poemaları, "Məhəbbət əfsanəsi" baletindən süitalar, fleyta ilə simli orkestr üçün konsertino, müxtəlif orkestr pyesləri, o cümlədən "Simfonik rəqslər", "8 pyes", "12 pyes", "Məhəbbət əfsanəsi"ndən başqa, "İki nəfər", "İki qəlbin dastanı", "Əlibaba və qırx quldur" baletləri, "Dalğalar" operettası, instrumental musiqi növlərindən fortepiano üçün prelüdiya, solo skripka üçün sonata, süita və skertso, fortepiano üçün "Ötəri anlar" kimi miniatürlər Arif Məlikovun simfonik yaradıcılığının əsasını təşkil edir.

Görkəmli bəstəkar vokal janrı ilə də ciddi şəkildə məşğul olmuş, şairlərimizin şeirlərinə kantatalar, vokal-simfonik poemalar bəstələmişdir.

A.Məlikov həm də kinofilmlərə və müxtəlif teatr tamaşalarına ən çox musiqi yazan bəstəkar kimi tanınır. Belə ki, "Sehirli xalat", "Ulduzlar sönmür", "Rüstəm və Söhrab", "Axırıncı aşırım", "Qərib cinlər diyarında" filmlərinin, "Natəvan", "Atabəylər" tamaşalarının, 5 seriyalı "Şahnamə" filminin, ümumilikdə isə 30-a qədər film və tamaşanın musiqisi ona aiddir.

Görkəmli bəstəkar musiqi nəzəriyyəsi ilə də məşğul olurdu. 2016-cı ildə onun 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" çapdan çıxmışdı.

### Səslər və rənglər dünyasından gəlmiş adam

Arif Məlikov dünyanı həm səslərin, həm də rənglərin dili ilə tam anlaya və onun sirli aləmini insanlara yetirə bilirdi. "Çiçəkli badam ağacı", "Şərq", "Ankarada gecə", "Xəzərin qara qızılı - aylı gecə", "Aya Sofiya", "Badam ağacının budağı", "3 hissəli simfoniya-triptix", "Zuqulba", "Təəssürat", "Fantaziya", "Təzəpir - gecə", "Təzəpir - gündüz", "Təzəpir - Novruz bayramı", "Qafqaz dağları"," 20 Yanvar", "Bakı", "Əbədiyyət","Günəş", "Həyat", "Göy vaza", "Vazada güllər", "Qərənfillər", "Ağ vaza", "Əks", "Sevimli şəkillər" kimi rəsmləri onun rəngli dünya ilə insanlar arasındakı tərcümanlığıdır.

Maraqlı burasındadır ki, Arif Məlikov musiqidə olduğu kimi rəngkarlıqda da yeniliklər axtarışında idi. Eyni zamanda əsərlərinin janr müxtəlifliyinə nəzər salarkən onun bu yenilikləri müxtəlif janrların, üslubların köməyi ilə axtardığını görürük. Həmçinin milliliyi rəsmlərində də qoruyurdu. Əsərlərinin əsas mövzusu təbiət aləmidir, bəstəkar-rəssam çiçəkləri, tarixi abidələri kətana köçürür, tapmaq istədiklərini təbiətin əlvanlıqlarında, quşlarda, ağaclarda, sonsuz kainatın ən gözəl zərrələrində, Şərqin nağıllar dünyasında, tarixi abidələrin əsrarəngizliyində axtarırdı.

O, rəsm əsərlərində də son dərəcə səmimidir. Necə alınmasından asılı olmayaraq qəlbinin ülvi hisslərini yetirməyə çalışır, ona görə də bu hisslər ünvanına çatır, dinləyici və tamaşaçı duyğularına toxunur.

Arif Məlikov bəstəkar, rəssam, pedaqoq, alim olduğu qədər həm də vətəndaş idi. Onun 20 Yanvar faciəsinə həsr olunmuş "Mən ittiham edirəm..." adlı fundamental kitabı tariximizin mühüm bir səhifəsidir. Dəyərli ziyalımız 1994-cü ildə nəşr olunmuş bu oçerklər toplusu ilə 20 Yanvar faciəsinə bais olanların, o cümlədən siyasi və hərbi orqanların yalanlarını, saxtakarlıqlarını ifşa etmişdi. Arif Məlikov bu əsəri şəxsi müşahidələri, topladığı tarixi dəlillər, hadisələrin bilavasitə şahidi olmuş bir çox insanlarla söhbətləri əsasında qələmə almışdır. Günü bu gün də "Mən ittiham edirəm" əsəri 20 Yanvar faciəsi ilə bağlı tarixi həqiqətləri öyrənmək istəyənlər üçün mötəbər mənbədir.

Görkəmli bəstəkar həm də ona görə xoşbəxt insan idi ki, sağlığında onun şəxsiyyətinə və yaradıcılığına nə qədər böyük sevginin olduğunu görürdü. O, 1965-ci ildə Əməkdar incəsənət xadimi, 1978-ci ildə Azərbaycanın Xalq artisti, 1986-cı ildə SSRİ-nin Xalq artisti adlarına, 1986-cı ildə dövlət mükafatına layiq görülmüş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmiş, "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. Müsahibələrinin birində bəstəkar deyirdi: "Peşmanlıq yaşamamışam. Daha çox xoşbəxt anlarım olub. Hərdən o qədər böyük xoşbəxtlik yaşamışam ki, sözlə deyə bilmirəm. Mən yaşayan bəstəkarlardan heç birinin əsərlərinin 55 il dünya teatrlarında oynanılmasını görməmişəm. Hərdən mənə deyirlər ki, bu sənət sənə nə verdi? Deyirəm ki, "Məhəbbət əfsanəsi"ni. O balet mənə dünyada bütün qapıları açdı".

Əslində, Arif Məlikovun özünün həyat və yaradıcılığı da bir məhəbbət əfsanəsidir. Nə qədər ki, musiqi, musiqiyə məhəbbət var, bu əfsanə də davam edəcək və Arif Məlikov şəxsiyyətinə sevgini hər zaman yaşadacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Müasir İncəsənət Muzeyində sərgi: "15 fırçanın simfoniyası"

Sentyabrın 28-də Müasir İncəsənət Muzeyinin 15 illik yubileyinə həsr olunmuş "15 fırçanın simfoniyası" adlı sərgi açılıb.



AZƏRTAC xəbər verir ki, "15" adı Azərbaycanda müasir incəsənətin yaranması yoluna toxunan 15 modernist ustadın əsərlərini ifadə edib. Sərgidə həm yaşlı, həm də gənc nəslin nümayəndələrinin yaradıcılıq ekspozisiyası yer alıb.

Sərginin açılışından əvvəl AZƏRTAC-a müsahibəsində Xalq rəssamı Cəlil Hüseynov bugünkü sərgidə onun beş əsərinin nümayiş edildiyini bildirərək deyib: "Burada nümayiş olunan əsərlərim Abşeron mənzərələri barədədir. Həmin əsərlərdə yarımadanın gözəl görüntüləri, Xəzər dənizi əks olunub. Sərginin təşkilində əməyi keçən hər kəsə öz minnətdarlığımı bildirir və uğurlar arzulayıram".



Xalq rəssamı Səlhab Məmmədov rəssamların emalatxanalarda qalmış əsərlərinin nümayiş olunması üçün Müasir İncəsənət Muzeyində çox gözəl şəraitin yaradıldığını qeyd edib. O, bildirib ki, bu muzey məhz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayıb. Xalq rəssamının sözlərinə görə, sərgidə nümayiş edilən əsərlər onu göstərir ki, ölkəmizdə müasir incəsənət sahəsində böyük nəticələr əldə olunub. Səlhab Məmmədov həmçinin muzeydə üç əsərinin nümayiş olunduğunu da diqqətə çatdırıb. Sərginin açılışında çıxış edən Xalq rəssamı Fuad Salayev bu il Müasir İncəsənət Muzeyinin 15 illiyinin tamam olduğunu bildirib. Qeyd edib ki, qısa zamanda muzey çox inkişaf edib. "Mən 15 il bundan qabaq bu binada olmuşdum. Amma o vaxt burada heç nə yox idi. Bu muzey gözümün qabağında formalaşıb. Muzeydə Azərbaycan təsviri sənəti rəssamların yaşadıb yaratdıqları bu əsərlərlə ortaya çıxıb. Ölkəmizin tanınmış, həmçinin gənc rəssamları Müasir İncəsənət Muzeyində yer alıblar. Hər bir rəssam əsərlər üzərində özü düşünüb, onları özü yetişdirib ki, elə bu əsərlərin dəyəri də ondadır", - deyə Fuad Salayev diqqətə çatdırıb.

Daha sonra qonaqlar Müasir İncəsənət Muzeyinin 15 illiyinə həsr olunmuş "15 fırçanın simfoniyası" adlı sərgi ilə tanış olublar. İncəsənətsevərlərə hər biri özünəməxsus texnikası, müxtəlif rəng çalarları, kölgələri və cizgiləri ilə seçilən əsərlərdən ibarət sərgi təqdim olunub. Eyni zamanda sərgidə modernizm cərəyanının yaranmasına yol açmış həm rəssamların, həm də heykəltəraşların sənət əsərləri nümayiş etdirilib.

Təqdim olunan əsərlər 15 incəsənət ustasının XX əsrin ikinci yarısından bu günə qədər olan dövr ərzində yaratmış olduqları sənət nümunələridir.

Muzeyin sərgi zalında toplanmış əsərlərin kolleksiyası eyni zamanda rəng sıçrayışının və forma incəliyinin cəlbedici məkanı olmaqla, xalqın mədəni irsinin məcmusunu özündə ehtiva edir.

Sərgiyə gələn qonaqlar sənətkarların 40-a yaxın sənət əsərlərindən ibarət ekspozisiyaya tamaşa ediblər.

## Azərbaycanın turizm imkanları Yaponiyada təbliğ edilib

Azərbaycanın turizm imkanları Yaponiyanın Tokio şəhərində keçirilən "Yaponiya Expo Turizm" (Tourism Expo Japan 2024) sərgisində tanıdılıb.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, sərgidə iştirakın məqsədi turizm məhsullarının təşviqi sahəsində təcrübə və məlumat mübadiləsinin, qarşılıqlı təbliğatın və turizm ekspertləri arasında kommunikasiyanın gücləndirilməsi, eləcə də turizm agentliklərinin dəstəklənməsi və digər məsələlərdə əməkdaşlıq əlaqələrini formalaşdırmaqdır.

Sərgi iştirakçılarına Azərbaycanın mədəni, təbiət, sağlamlıq, işgüzar turizm imkanları, eləcə də şərabçılıq ənənəsi və qastronomiyası haqqında məlumat verilib.

Azərbaycan Turizm Bürosunun nümayəndələri və yerli tərəfdaşların iştirakı ilə Yaponiya Səyahət Agentlikləri Assosiasiyası və Yaponiyanın tanınmış turizm agentlikləri arasında görüşlər təşkil edilib, əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.




Sərgidəki milli stendi Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə ziyarət edərək sərginin gedişatı ilə tanış olub.

Qeyd edək ki, 2024-cü ilin yanvar-avqust aylarında Yaponiyadan Azərbaycana səfər edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 60 faizdən çox artıb.

## "Türk dünyasından hekayələr" kitabı nəşr olunub




Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Gənclər Fondunun dəstəyi ilə nəşr olunan "Türk dünyasından hekayələr" kitabı oxuculara təqdim edilib.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, BDU-nun doktorantı və müəllimi, layihə rəhbəri Məleykə Mirzəli "Türk dünyası hekayələrdə" layihəsi barədə məlumat verib. Qeyd edib ki, bu kitab gənclərdə türk dünyasına, türk xalqlarına, onların çağdaş ədəbiyyatına, ümumilikdə isə mütaliə mədəniyyətinə maraq yaratmaq məqsədi daşıyır.

Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərov çıxışında bildirib ki, qədim tarixə malik, dünya mədəniyyətinə misilsiz töhfələr verən türk xalqlarının ədəbiyyatını tanıtmaq və gənclər arasında təbliğatı baxımından bu nəşr təqdirəlayiqdir.

Milli Məclisin Mədəniyyət komitəsinin eksperti, şair-publisist Əkbər Qoşalı Sibirdən tutmuş Avropaya qədər uzanan coğrafiyaya yayılmış türk xalqlarının hazırkı ədəbiyyatının təbliğ edilməsinin önəmini vurğulayıb.

Sonra BDU-nun Ədəbiyyat tarixi kafedrasının dosenti Məti Osmanoğlu, həmin kafedranın professoru Yeganə İsmayılova layihənin önəmindən bəhs ediblər. Qeyd olunub ki, antologiya səciyyəli hekayələr kitabından tədris zamanı tələbələr də yararlana bilərlər. Həmçinin bu nəşrdən ölkəmizdə türkoloji tədqiqatlarda da faydalı vəsait kimi istifadə olunacaq.

Çıxışlardan sonra gənc ədəbiyyatçı-tədqiqatçılar kitabda yer alan hekayələri təhlil ediblər.

# Kanada və Fransanın rəzilliyi

## Biri yerli xalqların soyqırımı nəticəsində yaranıb, digəri isə hələ də müstəmləkəçidir





Antiterror tədbirlərindən sonra Qarabağda yaşayan erməni sakinlər öz istəkləri ilə ölkəmizi tərk etdilər. Həmin ermənilər yerli, beynəlxalq KİV-ə verdikləri müsahibələrdə də bu addımı könüllü atdıqlarını, onlara Azərbaycan tərəfindən heç bir təzyiqin edilmədiyini dilə gətirdilər.

Hətta həmin zaman çəkilən videokadrlarda Azərbaycan polisinin erməni sakinlərə su və digər ərzaqlar paylamasının görüntüləri beynəlxalq aləmdə böyük maraqla qarşılandı.

### Riyakarlığın pik nöqtəsi

Lakin tarixin uzaq əsrlərində yox, cəmi bir il əvvəl hamının gözü qarşısında baş verən bu hadisələri Fransa və Kanada rəsmiləri riyakarlıqla, qərəzli şəkildə, özlərinə sərf edən formada şərh edir, ermənilərin guya etnik təmizləməyə məruz qalması barədə qışqır-bağır salırlar.

Ancaq tarixi soyqırımlar üzərində qurulan, bu günə qədər də müxtəlif əraziləri öz müstəmləkəsi altında saxlayan və insanların azadlıq səslərini qanla boğan müstəmləkəçi Fransanın, özü yerli aborigen xalqların soyqırımı nəticəsində yaradılmış Kanadanın Azərbaycanı "etnik təmizləmə"də günahlandırması tragikomediyadır, sözün əsl mənasında, həyasızlığın pik nöqtəsidir.

### Fransa xalqların müstəqillik tələbini qanla boğur

Əli bir milyondan çox əlcəzairlinin qanına batan Fransa dənizaşırı əraziləri müstəmləkə altında saxlamaq üçün hər cür iyrənc vasitələrdən istifadə edir, xalqların müstəqillik tələblərini qanla boğur. Uzun illərdir ki, Fransa hökuməti minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli sakin olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Buna etiraz edən kanakları öldürür.

Fransa müstəmləkəsi altında inləyən və müstəqillik arzusunda olan ölkələrdən biri də Maohi Nuidir (Fransız Polineziyası). Fransa beynəlxalq qanunları heçə sayaraq Maohi Nui xalqının hüquqlarını heçə sayır, adadakı kolonial siyasətini davam etdirir.

Eyni zamanda Fransa Martinik xalqının öz müqəddəratını təyinetmə hüququnu tam təmin etmədiyinə görə BMT Nizamnaməsinin maddələrini pozur. Belə ki, BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa Martinik xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verməlidir. Ancaq Fransa beynəlxalq hüququ tapdalayaraq müstəmləkə siyasətini davam etdirir.

1946-cı il qanunsuz referendum nəticəsində Martinik Fransanın dənizaşırı departamenti statusunu alıb. Bununla Martinik beynəlxalq hüququn və yerli əhalinin öz müqəddəratını təyinetmə hüququna zidd olaraq Fransa ərazisinin bir hissəsi kimi tanınır və idarəçilik baxımından Fransa qanunlarına tam şəkildə tabe edilir.

2003-cü və 2010-cu il referendumlarının nəticələri saxtalaşdırılıb və Fransanın ərazidə qeyri-qanuni fəaliyyəti daha da gücləndirilib, müstəmləkəçi ölkə Martinik xalqının iradəsinə zidd addımlar atıb və onların hüquqlarını daha da məhdudlaşdırıb.

Martinik xalqının iqtisadi və sosial ədalət haqları repressiyaya məruz qalır, onların iqtisadi haqları ciddi şəkildə pozulur. Martinik xalqının ədalət və bərabərlik tələbləri repressiv tədbirlərlə boğulur.

### Kanadanın bitməyən insanlıq cinayətləri

Özünü insan haqlarının "keşikçi"si hesab edən Kanadanın qanlı əməllərinə bir neçə fakt göstərək. Kanadada 1876-cı ildə yerli xalqların rezervasiyalarda yerləşdirilməsi etnik təmizləmə və mədəni soyqırımı aktı olaraq qiymətləndirilir. 1831-1996-cı illərdə kilsə tərəfindən idarə olunan yerli xalqlar üçün 130 məktəb-internat fəaliyyət göstərib. Yerli xalqların assimilyasiyası siyasəti yeridilib. Həmin məktəblərdə ən azı 3200 uşaq soyuq hava, pis qidalanma və xəstəliklər səbəbindən vəfat edib.

2012-ci ildə yerli xalqların 325 nümayəndəsi Kanada hökumətinə qarşı maddi təzminat tələbi ilə iddia qaldırıb. 2015-ci ildə Həqiqətin Tapılması və Barışıq Komissiyası açıqladığı hesabatda həmin internat-məktəblər sistemini mədəni soyqırımı adlandırıb. 2021-ci ildə Kanadanın Saskaçevan vilayətindən bu tip internat-məktəb həyətinin yanında 751 nəfərə aid məzarlıqlar tapılıb.

1950-ci ildə Kanada hökuməti Amerikanın bir qrup yerli sakinini öz tarixi torpaqlarından köçürməyə qərar verib. Onlar izolyasiyada olan adaya köçürülüb və insanlara yaşamaq üçün yemək, infrastruktur və ya tikinti üçün avadanlıq verilməyib. Köçürülmə zamanı onların bir çoxu ölüb. Daha sonra onlar 1957-ci ildə yenidən başqa yerə köçürülüblər. Bundan sonra daha 3 köçürülmə olub. Proses zamanı icmanın yarısından çoxu məhv olub.

Siyahını uzatmaq da olar, amma elə bu qanlı cinayət əməllərinə dair faktlar da göstərir ki, Kanada özü tarixboyu etnik təmizləmə ilə məşğul olub. Buna görə də bu ölkə başqalarına böhtan atmaqdansa, öz keçmişinə baxsın. Bəlkə utanar...

Göründüyü kimi, Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar yaratması və bölgədə dayanıqlı sülhə yol açması məhz Fransa və Kanada kimi etnik təmizləmə, yerli xalqlara qarşı qətliam, soyqırımı törətmiş və hələ də bu cinayət əməllərini davam etdirən dövlətləri qane etmir. Buna görə də dünyanın o başında oturub Azərbaycana qarşı əsassız ittihamlar irəli sürür, olmayan yalanlar quraşdırıb tirajlayırlar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Cəbrayıl şəhərinə növbəti köç karvanı yola salınıb









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu dəfə Cəbrayıl şəhərinə 40 ailə - 123 nəfər köçürülüb.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Cəbrayıl şəhərində 117 ailənin, yəni 364 nəfərin daimi məskunlaşması təmin edilib.

# Avropada millətçilər önə çıxır

## Avstriyada İkinci Dünya müharibəsindən sonra bir ilk baş verib

Avstriyada İkinci Dünya müharibəsindən sonra ilk dəfə parlament seçkilərində ifrat sağçılar qalib gəlir. İlkin məlumatlara görə, millətçi Azadlıq Partiyası 29,2 faiz səs toplayaraq birinci yeri tutub. Sonrakı yerdə 26,5 faiz səslə kansler Karl Nehammerin hakim Avstriya Xalq Partiyası gəlir. Mərkəz solçu Sosial Demokratlar 21 faiz səslə üçüncü olub. İstefa verən hökumət Nehammerin partiyası ilə Yaşıllar arasında koalisiyada idi. O, parlamentin aşağı palatasında çoxluğunu itirib.






Vyanada tərəfdarları qarşısında çıxış edən Azadlıq Partiyasının lideri Herbert Kikl deyib ki, "bu, birlikdə yazdığımız bir tarix parçasıdır. Biz yeni eranın qapısını açdıq. İndi, həqiqətən də, Avstriya tarixinin bu yeni səhifəsini birlikdə yazacağıq. Bu nəticəyə necə sevindiyimi sözlə ifadə edə bilmərəm. Əldə etdiyimiz uğur mənim ən çəsarətli arzularımdan da artıqdır" .

Eyni zamanda Avstriyanın yeni lideri olmaq üçün Kikl koalisiya tərəfdaşı tapmalı və parlament çoxluğunu qazanmalıdır. Bu isə asan olmaya bilər. Azadlıq Partiyasının rəhbəri bildirib ki, o, digər partiyalarla danışıqlara hazırdır, lakin hələlik nə Karl Nehammerin mühafizəkarları, nə də Andreas Bablerin sosial demokratları millətçilərlə işləməyə hazırdılar.

Seçkilərin nəticələrindən sonra açıqlama verən kansler məğlubiyyətin "acı" olduğunu, lakin Kiklin partiyasına qarşı mövqeyinin dəyişmədiyini vurğulayıb.

Karl Nehammer bildirib ki, Herbert Kikl sui-qəsd nəzəriyyələrinə inanır, Ümumdünya Səhiyyə Təşkilatını növbəti dünya hökuməti olmaqda günahlandırır və Davosdakı görüşü dünya hökmranlığına hazırlıq adlandırır. Belə adamla dövləti ağılla, məsuliyyətlə idarə etmək mümkün deyil.

Analitiklər deyirlər ki, ifrat sağçıların populyarlığı yüksək inflyasiya, Ukraynadakı müharibə və COVID-19 pandemiyasından narazılıq, habelə miqrasiya ilə bağlı narahatlıqlar səbəbindən artıb. Azadlıq Partiyası "Qala Avstriya" adlı seçki platformasında dəvət olunmamış əcnəbilərin qovulmasına, sərt sərhəd nəzarəti vasitəsilə daha "homogen" millətin yaradılmasına və fövqəladə qanun əsasında sığınacaq hüququnun dayandırılmasına çağırır. Ötən cümə axşamı günü debatlar zamanı Kikl immiqrasiyanı "nəhəng təhlükəsizlik problemi" adlandırıb, çünki "biz ölkəyə islamlaşmanı gətiririk", - deyib.

Bu, bütün siyasi spektrdə geniş çaşqınlığa səbəb olub, opponentlər isə bu cür siyasəti ksenofob, irqçi və islamofob adlandırıblar.

Azadlıq Partiyası həmçinin Rusiyaya qarşı sanksiyalara son qoymağa çağırır, Qərbin Ukraynaya hərbi yardımını tənqid edir və Almaniyanın başlatdığı raketdən müdafiə layihəsi olan "Avropa Səma Qalxanı" təşəbbüsündən çıxmaq istəyir.

Herbert Kikl Brüsseldə "elita" adlandırılan təbəqəni də tənqid edir və Avropa İttifaqından bəzi səlahiyyətlərin Avstriyaya qaytarılmasını istəyir.

Azadlıq Partiyasının qələbəsi Vyanada parlament binası qarşısında etirazlara səbəb olub, nümayişçilər əllərində "Kikl nasistdir" şüarları yazılmış plakatlar tutublar.

Yekun nəticələr az sayda poçtla göndərilən bülletenlər hesablandıqdan sonra həftənin sonunda açıqlanacaq.

Monten İnstitutunun Avropa proqramının direktoru Corcina Rayt hesab edir ki, Avropada ifrat sağçıların dirçəlişinin əhalinin siyasi əsas cərəyandan - meynstrimdən narazılığı ilə çox əlaqəsi var.

Son illər Avropanın bir sıra ölkəsində millətçilərin dirçəlməsi səbəbini şərh edən ekspertin fikrincə, bir çox avropalı seçicilər sağçı partiyaların səmimiyyətini bəyənirlər və Avropa cəmiyyətinin üç əsas problemini - milli kimlik, iqtisadiyyat və sosial ədalət məsələlərini hələ də həll edə bilməyən ənənəvi siyasətçilərin davranışından qıcıqlanırlar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4195
Sifariş 2224

Qiyməti 60 qəpik